Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 47 (6140) 12 dekabr 2025-ci il | Qiyməti 40 qəpik

# 12 DEKABR – ULU ÖNDƏRİN ANIM GÜNÜDÜR



## *Spiker:* "Azərbaycan dilinin inkişaf məsələsi dövlət düşüncəmizin mərkəzində dayanır"



**"Biz bu gün Azərbaycan dilindən danışacağıq. Konfransın məqsədi Azərbaycan dilinin qorunması və inkişaf strategiyalarını müzakirə etmək, ziyalıların bu istiqamətdə vəzifələrini müəyyən etməkdir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: Mövcud vəziyyət və perspektivlər" mövzusuna həsr edilən konfransda çıxışı zamanı spiker Sahibə Qafarova deyib. "Dilimiz bizim tarixi yaddaşımız, dövlətçiliyimizin təməli, milli mənəviyyatımızın özəyidir. Dilimizin qorunması ilə bağlı qəbul edilən qanunlar, qərarlar və proqramlar məhz parlamentin iştirakı ilə gerçəkləşdirilir. Azərbaycan dilinin inkişaf məsələsi həmişə dövlət düşüncəmizin mərkəzində dayanır. Xalqın mənəvi sərvətlərinin, dilinin qorunub saxlanması üçün hüquqi əsaslar genişləndirilib", - deyə spiker bildirib.

## Milli Məclis gələn ilin dövlət büdcəsini qəbul etdi

**"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin iclasında üçüncü oxunuşda qəbul edilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin gəlirləri 38 609 000,0 min manat, xərcləri 41 703 600,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 37 850 712,0 min manat, yerli gəlirləri 758 288,0 min manat, mərkəzləşdirilmiş xərcləri 40 944 465,0 min manat, yerli xərcləri 759 135,0 min manat) məbləğində təsdiq edilib.

## "Ədalət" qəzetinin əməkdaşı MEDİA-nın müsabiqəsində qalib oldu



**Medianın İnkişafı Agentliyinin (MEDİA) elan etdiyi fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanıb.**

"Ədalət" qəzetinin əməkdaşı Sübhan Mahmudlu "MEDİA - Fərdi jurnalist müsabiqəsi"nin "Ən yaxşı oçerk" nominasiyasının birincisi olub.

Qeyd edək ki, qalib gəlmiş jurnalistlərə pul mükafatı təqdim olunacaq.

## *Zəngəzur dəhlizinin inşasına başlanacağı tarix açıqlandı*

**Tramp marşrutunun (TRIPP və ya Zəngəzue dəhlizi) inşasına gələn il başlanılacaq.**

Adalet.az xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Almaniyaya rəsmi səfəri zamanı bildirib.

Paşinyanın sözlərinə görə, hazırda Ermənistan ABŞ tərəfi ilə layihənin ümumi şərtləri üzrə intensiv danışıqlar aparır.

O bildirib ki, "TRIPP Company" adlı yeni qurum dəmir yolu və avtomobil yolu infrastrukturu, neft və qaz boru kəmərləri, eləcə də fiber-optik rabitə xətlərinin inkişafı üçün səlahiyyətə malik olacaq.

"Layihənin mərhələli şəkildə icrasına gələn il başlayacağıq", - Paşinyan vurğulayıb.

Xatırladaq ki, 8 avqustda Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş paraflanıb. Həmin gün Azərbaycan, Ermənistan və ABŞ liderləri birgə bəyanat imzalayaraq TRIPP layihəsini dəstəklədiklərini açıqlamışdılar.

## *Yekun hesabat nə vaxt yayımlayacaq?*



**Qazaxıstan iki xarici laboratoriyanın araşdırma nəticələrini gözləyir və onlardan sonra Aktau yaxınlığında AZAL təyyarəsinin qəzaya uğraması ilə bağlı yekun hesabatı dərc edəcək.**

Adalet.az xəbər verir ki, bu barədə Qazaxıstan Nəqliyyat Nazirliyi məlumat yayıb.

ICAO qaydalarına görə, hava qəzasının təhqiqatı üzrə yekun hesabat hadisənin baş verməsindən 12 ay ərzində yayımlanmalıdır.

Qeyd edək ki, ötən ilin 25 dekabrında baş verən qəzada 38 sərnişin və ekipaj üzvü həlak olub, 29 nəfər isə xəsarət alıb.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ONUN ƏN BÖYÜK VƏZİFƏSİ ETİBAR BABAYEV OLMAQDIR



*Məndən cəmi üççə yaş böyükdü. Dekabrın 15-də 75 yaşı tamam olacaq. Amma ilk tanıdığım gündən - 50 il bundan qabaqdan danışıram, yəni cavan oğlan idi, ona ağsaqqal kimi baxırdım. Təbii ki, ağsaqqallıq yaşa baxmır, o, öz mədəniyyəti ilə, səmimiyyəti ilə, geniş dünyagörüşü ilə, ədəbi ilə qazanmışdı hələ gənc yaşlarından ağsaqqallığı.*

*Bir komsomol təşkilatı vardı, təbii ki, bu təşkilatda işləyənlər gənclər idi. Çox təmiz təşkilat idi, bu təmiz təşkilatda da təmiz oğlanlar işləyirdi və komsomol çörəyi yeyirdilər, yəni təmiz çörək. Rüşvətdən uzaq, intriqalardan uzaq, yalnız mehribançılığı və səmimiyyəti özündə ehtiva edən bir çörək. Və bu komsomol dostluğu əsgər dostluğu kimi bir şeydi. İnsan heç vaxt əsgərlik dostlarını ömrünün sonunadək unutmadığı kimi, bu komsomol dostluğu da ömrünün sonunadək davam edir. Çünki təmənnasız dostluqdur.*

*Bu təşkilatın dağılmasından təxminən 35-36 il keçsə də, amma həmin dostluq bu gün də unudulmur.*

**Bax:səh-14**

Əbülfət MƏDƏTOĞLU

## "Unudulmaq qorxusu" hamımızda var

**Bax:səh-8**

# İlham Əliyev Donald Trampa təşəkkür etdi



**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa məktub ünvanlayıb.**

Adalet.az xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

"Hörmətli cənab Prezident.

Səmimi məktubunuza görə Sizə dərin təşəkkürümü bildirirəm. Xoş sözlərinizi, sülh və sabitlik naminə səylərimizə dair fikirlərinizi yüksək qiymətləndirirəm.

Münaqişələrin həllinə davamlı sadiqliyiniz, dialoqun irəlilədilməsində şəxsi iştirakınız və dünyanın müxtəlif bölgələrində gərginliyin azalmasına verdiyiniz töhfələr qəti inamıma görə, Nobel Sülh Mükafatı da daxil olmaqla, ən yüksək beynəlxalq tanınmaya tam layiqdir. Sizin qətiyyəti və məsuliyyəti rəhbər tutan liderliyiniz qlobal sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsidir. Əminəm ki, davamlı dialoq və əməkdaşlıq vasitəsilə tərəfdaşlığımız ölkələrimizdə və onun hüdudlarından kənarda da sülhün, təhlükəsizliyin və rifahın möhkəmlənməsinə xidmət edəcəkdir.

Məktubunuzda ifadə olunan qarşılıqlı hörmət ruhuna və diqqətinizə görə səmimi minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm", - məktubda qeyd olunub.

# İlham Əliyev Qurbanqulu Berdiməhəmmədova zəng etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib.**

Dövlətimizin başçısı Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Qurbanqulu Berdiməhəmmədovu təbrik edib və qardaş Türkmənistana uğurlar arzulayıb. Prezident İlham Əliyev dekabrın 12-də Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin anım gününün keçirildiyini deyərək, Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü ilə bağlı keçirilən tədbirlərdə iştirak edə bilməcəyini bildirib, həmin tədbirlərdə Azərbaycanın Baş nazirinin iştirak edəcəyini vurğulayıb.

Bir neçə gün əvvəl Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərinə toxunan dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinə göstərilmiş diqqət və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Prezident İlham Əliyev Heydər Əliyev Fondu ilə Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondu arasında imzalanmış Anlaşma Memorandumunu əməkdaşlığımızın növbəti göstəricisi kimi qiymətləndirib. Azərbaycan Prezidenti ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olmasında Türkmənistanın birmənalı və tam dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı salamlarını və Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə təbriklərini Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib. Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov telefon zənginə və salamlara görə minnətdarlığını bildirib. Qurbanqulu Berdiməhəmmədov Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı başsağlığını çatdıraraq, onun böyük şəxsiyyət olduğunu və xatirəsini dərin hörmətlə andığını vurğulayıb. Türkmənistan Xalq Məsləhətinin sədri Ümumilli Liderin ölkələrimiz arasında əlaqələrin inkişafında böyük rolunun olduğunu qeyd edib. O da öz növbəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərini, Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva ilə görüşünü çox yüksək qiymətləndirərək, imzalanmış sənədin böyük əhəmiyyət daşıdığını deyib. Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olması münasibətilə təbriklərini çatdıraraq, Türkmənistanın həmişə bu məsələni dəstəklədiyini vurğulayıb.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

# *Baş nazir:* "Problemlərin həlli istiqamətində mümkün olan bütün zəruri tədbirlər görüləcək"



**"2026-cı ilin dövlət büdcəsində investisiya yönümlü dövlət proqramlarının maliyyə təminatı üçün kifayət həcmdə vəsait nəzərdə tutulur. Hazırda Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında çıxışı zamanı Baş nazir Əli Əsədov deyib. Baş nazir bildirib ki, ən yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat marşrutu kimi mühüm əhəmiyyət kəsb edir:

"Bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılmasıdır. Bu istiqamətdə icra edilən layihələr böyük həcmdə beynəlxalq sərmayələr cəlb edir. Bu, sənayenin inkişafının növbəti istiqamətidir. Bu gün Azərbaycan bir sıra Mərkəzi Asiya ölkələri ilə birgə sərmayə fondları yaradıb, bir sıra dost ölkələrə Dövlət Neft Fondu və SOCAR vasitəsilə investisiya yatırıb.

Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək, ölkəmiz dividendlər qazanacaq və iqtisadiyyatımız üçün əlavə dəyər yaranacaqdır.

Beləliklə, sadalanan istiqamətlər yeni inkişaf modelini və yeni artım drayverlərini yaradan strateji layihələrdir. Bütövlükdə, cənab Prezidentin son 20 ildə uzaqgörən və düşünülmüş siyasəti Azərbaycana mühüm siyasi - iqtisadi uğurlar qazandırmışdır ki, bu uğurların məntiqi zirvəsi hazırda yaşadığımız şanlı Zəfər tarixidir. Cənab Prezidentin bugünkü çoxşaxəli siyasəti və ondan irəli gələrək Hökumət qarşısında qoyacağı hədəflər isə qarşıdakı illərdə milli iqtisadiyyatımızın dinamik inkişafını təmin edəcəkdir. Büdcə müzakirələri zamanı qaldırılan məsələlər Hökumət və aidiyyəti qurumlar tərəfindən daim diqqətə alınacaq, qeyd edilən problemlərin həlli istiqamətində hər il olduğu kimi gələn ildə büdcə imkanları çərçivəsində mümkün olan bütün zəruri tədbirlər görüləcək".

**Nicat**

# Azərbaycan-NATO əlaqələri müzakirə olunub

**Dekabrın 9-da müdafiə naziri general-polkovnik Zakir Həsənov "16-cı NATO günləri" çərçivəsində Azərbaycanda səfərdə olan Alyansın Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığının (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Yusuf Karagüllenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən xəbərə görə, müdafiə naziri Azərbaycan ilə NATO arasında xüsusi əhəmiyyət daşıyan əlaqələrin hər iki tərəf üçün peşəkar hərbi kadrların inkişafına müsbət töhfə verdiyini bildirib.

General-polkovnik Z.Həsənov NATO-nun dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında rolunu yüksək qiymətləndirib, ölkəmizin Alyansla qarşılıqlı əməkdaşlığa daim önəm verdiyini, həmçinin Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Ortaq Qüvvələr Birliyinə əlavə qüvvələrin bəyan edildiyini diqqətə çatdırıb.

Kontr-admiral Y.Karagülle Azərbaycan-NATO əlaqələrinin daha da genişləndirilməsini, həmçinin ölkəmizin Alyansın həyata keçirdiyi təhlükəsizlik və sabitliyin təşviqi, böhrana cavab əməliyyatlarında iştirakını yüksək qiymətləndirib və qarşılıqlı səfərlərin, müxtəlif formatlarda keçirilən görüşlərin səmərəli olduğunu xüsusi vurğulayıb.

Bu günədək Azərbaycan Ordusunun NATO qərargahlarında Tərəfdaşlığın Qərargah Elementi Konsepsiyası çərçivəsində xidmət edən 40-dan çox zabitinin peşəkarlığı yüksək qiymətləndirilib.

Görüşdə ölkəmizlə Alyans arasında hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb, gələcək planlar müzakirə olunub.

"Sülh Naminə Tərəfdaşlıq" (SNT) Proqramı çərçivəsində Azərbaycan Ordusunun 250-dək nümayəndəsinin xarici ölkələrdə keçirilən 146 beynəlxalq tədbirdə, 395 nəfərin isə ölkəmizdə təşkil edilən 33 NATO tədbirində iştirak etdiyi bildirilib.

**Qeyd olunub ki, dekabrın 12-dək keçiriləcək "16-cı NATO günləri" çərçivəsində qonaqlar bir neçə hərbi hissəni və Mili Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrini ziyarət edəcəklər.**

***Aqil ABBAS***

# KƏRBƏLAYİ: "OĞLUM YADULLANIN MÜSİBƏTİ HEÇ BELƏ OLMAMIŞDI!"

*Hamımız qələbəyə köklənmişdik. Amma bu futboldu, istədiyimiz olmadı. Təbii ki, mən hələ də özümə gəlməmişəm. Amma heç vaxt "Qarabağ"a ümidimi və inamımı itirmərəm. Adım kimi əminəm ki, "Qarabağ" bu mərhələni adlayacaq.*

*Və azarkeşlərimiz, "Qarabağ"sevərlərimiz unudurlar ki, "Səbail"lə oynamırdılar ey, Avropanın ən öndə gedən futbol ölkəsinin ən güclü komandası ilə oynayırdı. Nə olsun ki, ilk beş turda məğlub olmuşdular.*

*İndi baxıram ki, sosial şəbəkələrdə və mənə zəng edən saytlarda hamı Qurban Qurbanova dərs keçir: bu belə olmalıydı, o belə olmalıydı, Nərimanı niyə oyuna saldı və sair və ilaxır.*






*Adı yadımdan çıxıb, məşhur bir rus yazıçısı deyir:*

*- Hamı üç şeyi bilir: futbolu, kinonu və polisi. Mən komandanı belə oynadardım, filankəsi vaxtında dəyişərdim, sistemi belə qurardım, bu filmi belə çəkərdim, rejissor burda səhv edib, aktyorları düz seçməyib, cinayəti açmaqda polis gecikib, dəlilləri ayrı cür toplamalıydı və sair və ilaxır.*

*İndi baxıram, hamı Qurban Qurbanovu tənqid atəşinə tutub, xüsusilə Nəriman məsələsində. Nərimanın 21 yaşı var, istedadlı futbolçudu və Qurban Xoca da ona inanır. Nərimanı oynatmalıydı ki, təcrübə toplasın, onu komandaya gətirməyib ki, şorabaya qoysun.*

*Hamı qalibin yanında olur, əsl azarkeş odur ki, komanda uduzanda da onun yanında olsun. İlk beş oyunu uduzmuş "Ayaks"ın fanatları kimi. 1450-yə yaxın fanatı gəlmişdi komandalarına dəstək üçün. Bütün oyun boyu da yorulmadan mahnı oxuyurdular. Belə olmaq lazımdı, yoxsa uduzan kimi komandadan küsmək nə dərəcədə doğrudur?*

*Gəlin boş-boş məsləhətlər verməklə, tənqid etməklə, hətta Nərimanı təhqir etməklə (belə bir təhqiramiz video paylaşıblar), futbolçuları ruhdan salmaqla nə qazanacaqsınız?*

*Uğurlar olsun, Qurban Xoca!*

*Uğurlar olsun, "Qarabağ"!*

*Uğurlar olsun, Nəriman! İnanıram ki, növbəti oyunda qol vuracaqsan və səni qaldıracaqlar Arda Gülərin yanına.*

# *"Tramp və komandası Zəngəzur dəhlizinə Rusiyanı dəvət edərsə..."*

**"ABŞ elan olunan Milli Təhlükəsizlik Strategiyası Rusiyanın siyasi maraqlarına xidmət edir. Donald Tramp administrasiyasının hazırladığı bu Strategiya Avropa ilə siyasi-təhlükəsizlik və hərbi əlaqələri aşağı səviyyəyə salır. NATO genişləndirilməməsi qeyd edilir. Tramp administrasiyası Qərb Alyansının inkişafına zərbə vurur və parçalanmasını həyata keçirir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, qəbul edilən strategiyada qeyd edilir ki, ABŞ-nin bütün dünya nizamını təkbaşına daşıdığı dövr artıq arxada qalıb:

"Göründüyü kimi, ABŞ administrasiyası yeni dünya siyasi nizamında təkbaşına deyil, Rusiyaya da yer verməyi planlaşdırır.

Bu, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin təhlükəsizliyini təhdid edir. Rusiya prezidenti Vladimir Putinin də əsas siyasi planı bundan ibarətdir. Tramp Ukrayna məsələsində Rusiyanın mövqeyini dəstəkləyir. Tramp və komandası Zəngəzur dəhlizinə Rusiyanı dəvət edərsə, təəccüblü olmayacaq. Tramp xüsusi nümayəndəsi S.Uitkof kürəkəni C.Kuşner Rusiyanın əsas lobbiçiliyini həyata keçirir. Tramp və vitse-prezident Vens ABŞ Rusiyanın qarşısından geri çəkir.

Ukraynaya ciddi təzyiqlər edərək, ərazi güzəştinə məcbur edir. ABŞ prezidenti Putinin istəyi ilə Qərb Alyansını parçalayır. ABŞ Milli Təhlükəsizlik Strategiyasından aydın olur ki, indiki adminstrasiyaya üç il ərzində etibar etmək olmaz".

**Vasif ƏLİHÜSEYN**

# Xəyanətlərin ən iyrənci

**"Mehdiyev işi" ətrafında qalmaqal davam edir. Hər gün, hər saat yeni-yeni faktlar ortaya çıxır. Və bu faktların da işin miqyasına təsir edəcəyi birmənalıdır. 25 il (1995-2019) Prezident Administrasiyasının rəhbəri, sonra da 3 il (2019-2022) Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edən şəxs niyə gündəm olmasınki?!**

Ərz edim ki, Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunan Ramiz Mehdiyev barədə Bakı şəhəri Səbail rayon məhkəməsi 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib. Bununla yanaşı R,Mehdiyevlə əlbir olmaqda ittiham olunan AXCP sədri Əli Kərimli və onun müavini Məmməd İbrahimli barəsində də həbs qətimkan tədbiri seçilib, Milli Şuranın sədri Cəmil Həsənli DTX-də dindirilib, Gültəkin Hacıbəyli isə Türkiyədə saxlanılıb, onun Azərbaycana deportasiya ediləcəyi gözlənilir.

Bütün bunlar öz yerində. Hər kəs qanun qarşısında qanuna zidd etdiyi və ya etmək istədiyi lakin ondan asılı olmayan səsblərdən baş tutmayan əmələ görə gec-tez cavab verəcək. Və bir də var vicdan cəzası. Yəni insan gərək hər hansı bir qanuna zidd əməli törətdikdə özünün də bir ədalət tərəzisi də olsun. Törətdiyi əmələ bir don geyindirə bilsin. Bir az vicdan qatsın cinayətinə. Amma görünən odur ki, bunların gözünü hakimiyyət xəstəliyi tutubmuş. Bunlar Vətənini belə satmağa hazır olublar. Təki hakimiyyət olsunlar.

Dünən Modern.az portalında Milli Məclisin İntizam komissiyasının sədri, YAP-ın məşhur simalarından olan Eldar İbrahimovun bu olay ilə bağlı açıqladığı faktları oxuduqca çox sarsıldım. Məni sarsıdan fakt o idi ki, E.İbrahimov bildirir ki, hələ 2003-cü ildə Yeni Azərbaycan Partiyası İlham Əliyevin namizədliyini irəli sürəndə Ramiz Mehdiyev bununla razılaşmayaraq öz tabeliyində



olan adamlara İlham Əliyevin bu vəzifə üçün çox gənc olduğunu bəhanə edərək onun əleyhinə səs verməyi tapşırırmış: "Çünki Ramiz Mehdiyev yalnız özünü bu vəzifəyə layiq bilirdi.

O, İlham Əliyev cənablarının Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətinin ilk 16 ilində də bu yüksək vəzifəni tutmaqda riyakar və çirkin əməllərini davam etdirirdi. Bütün bunlara baxmayaraq, İlham Əliyev cənabları Azərbaycan xalqının çox böyük əksəriyyətinin səsini toplayaraq həmin seçkidə qalib gəldi. Prezident seçildikdən sonra İlham Əliyev cənablarının uzaqgörənliklə formalaşdırdığı uğurlu xarici və daxili siyasət nəticəsində Azərbaycan Respublikası 22 il ərzində analoqu olmayan iqtisadi, siyasi və sosial inkişafa nail oldu. Bu müddət ərzində respublikamızın ərazi bütövlüyünün təmin edilməsi və suverenliyinin bərpası istiqamətində də əsaslı tədbirlər həyata keçirildi. Bunu gözü götürməyən və Prezidentlik xülyasından əl çəkməyən Ramiz Mehdiyev və ətrafına topladığı xainlər Qarabağın işğaldan azad olunması üçün hərbi əməliyyatların başlanmasına mane olurdular, bunun vaxtının çatmadığını bildirirdilər. Yalnız Ramiz Mehdiyevin Azərbaycan Respublikası Prezident Administrasiyasının Aparat rəhbəri vəzifəsindən azad edildikdən sonra ölkə Prezidenti qəti qərar qəbul etdi və 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə silahlı basqınına cavab olaraq əks hücum əməliyyatına başlanması barədə qərar verdi.

44 günlük Vətən Müharibəsi Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu möhtəşəm qələbə əldə etdi. 2023-cü ilin noyabr ayında isə bir günlük antiterror əməliyyatı ilə Qarabağ işğaldan azad edilərək ölkəmizin ərazi bütövlüyü və suverenliyi təmin olundu.

Azərbaycan xalqının 30 ildən çox intizarla gözlədiyi bu tarixi hadisə Prezident İlham Əliyev cənablarının nüfuzunu həm ölkə daxilində və həm də xaricdə ən yüksək zirvəyə qaldırdı".

**Bax məni sarsıdan bu məqamdır. O məqam ki, öz şəxsi maraqların naminə ölkənin suverenliyinə quyu qazasan. İşğal altında olan, minlərlə insanın canını verdiyi Vətən torpağının azad olunmasına maneçilik törədəsən. Bundan o tərəfi yoxdur. Bu xəyanətin ən iyrənci və bağışlanması olmayan tərəfidir. Və bu xəyanətdə kim dəyirmana su tökübsə cəzalanmalıdır.**

**Nicat Novruzoğlu**

# Daxili qoşunların hərbçiləri bu hallarda odlu silahdan atəş aça biləcəklər

**Daxili qoşunların hərbi qulluqçuları tərəfindən odlu silahın tətbiqi şərtləri müəyyənləşdiriləcək.**

Adalet.az xəbər verir ki, bu məsələ Milli Məclisin iclasında müzakirə olunan "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, odlu silahın xəbərdarlıq edilmədən tətbiq edildiyi hallar və birdən-birə gözlənilməz hücum halı istisna olmaqla, odlu silah tətbiq edilməzdən əvvəl səslə və ya havaya atəş açmaqla silah işlədiləcək şəxsə xəbərdarlıq edilməlidir.

Daxili qoşunların hərbi qulluqçularının xəbərdarlıq etdikdən sonra aşağıdakı hallarda odlu silah tətbiq etmək hüququ olacaq:



- insan həyatına və sağlamlığına real təhlükə yaradan basqın və ya digər zorakılıq hallarında;
- xidməti vəzifələrinin icrası zamanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hərbi qulluqçularının və əməkdaşlarının həyatına və sağlamlığına təhlükə törədən qəsdlər baş verdikdə və ya onların silahlarının, döyüş texnikasının və xüsusi texnikanın ələ keçirilməsi cəhdlərinin qarşısı alındıqda;
- girovlar, zəbt edilmiş binalar və digər tikililər, qurğular, ərazilər və nəqliyyat vasitələri azad edildikdə;
- insanların həyatına, sağlamlığına və mülkiyyətinə qarşı cinayət törətmiş və gizlənməyə çalışan, habelə silahlı müqavimət göstərən şəxslər saxlanıldıqda;
- fövqəladə və ya hərbi vəziyyət rejimi şəraitində yaşayış məntəqəsinə giriş-çıxış postlarında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşının və ya hərbi qulluqçusunun nəqliyyat vasitəsini dayandırmaq tələbinə tabe olmayan nəqliyyat vasitəsi saxlanıldıqda;
- qrup halında və ya silahlı basqın, o cümlədən nəqliyyat vasitələrindən istifadə etməklə törədilən basqın dəf edildikdə;
- qanunsuz silahlı birləşmələrdə, terror təşkilatlarında və terror qruplarında, habelə silahlı müqavimət göstərən şəxsdə olan silahı, döyüş texnikasını və xüsusi texnikanı təhvil vermək tələbi yerinə yetirilmədikdə;
- terrorçuluq və ya dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi ilə bağlı cinayətlərin qarşısı alındıqda.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

**Nicat**

# Əli Kərimli barəsində vəsatət təmin olunmayıb

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyatla saxlanılan AXCP sədri Əli Kərimli barəsində seçilmiş həbs qətimkan tədbiri ilə bağlı qərarın dəyişdirilməsi ilə bağlı məhkəməyə müraciət edilib.**

Adalet.az xəbər verir ki, bu gün Səbail Rayon Məhkəməsində vəsatətə baxılıb və qərar qəbul edilib.

Qərara əsasən, vəsatət təmin edilməyib.

Xatırladaq ki, Səbail Rayon Məhkəməsinin qərarı ilə Əli



Kərimli barəsində 2 ay 15 gün müddətinə həbs qətimkan tədbiri seçilib. Bakı Apellyasiya Məhkəməsi qərarı qüvvədə saxlayıb.

Qeyd edək ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimli və partiyanın Rəyasət Heyətinin üzvü Məmməd İbrahimli barələrində aparılan araşdırma çərçivəsində DTX-də dindiriliblər.

Onların evində axtarış aparıldıqdan sonra DTX-yə aparılıblar.

Əli Kərimliyə Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülüb. Əli Kərimlinin və Məmməd İbrahimin evindəki axtarış və dindirilmə Ramiz Mehdiyev DTX-da istintaq olunan cinayət işi ilə əlaqədardır.

Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

*Səxavət Məmməd*

## Böhrandan ən gözəl çıxış yolu toqquşmalardır...



*Rusiya Ukrayna müharibəsinin dayandırılması ilə bağlı danışıqlar demək olar heç bir nəticə vermir. Ukrayna tərəfi ərazi güzəştinə getmək niyyətində deyil. Doğru olan da budur. Ancaq Azərbaycan Ermənistan münaqişəsi də göstərdi ki, qanla gedən, qanla gəlir. Yəni, müdafiə olunaraq qazanmağa ümid etmək doğru yanaşma deyil. Azərbaycan ərazilərini Ermənistan işğal etmişdi. BMT-nin hətta əraziləri boşaltmaqla bağlı qətnamələri vardı. Tarix göstərdi ki, çirnellə yazılan yox, qanla yazılan sənin olur. Ona görə də, Ukrayna öz sərhədlərinə çıxmaq üçün mütləq şəkildə döyüşməlidir. Sahədə itirərək masada qazanmaq kimi bir təcrübə yoxdur. Rusiya da bunun fərqindədir. Ona görə də, hücumlarının kəsərini artırır, maksimum işğalı genişləndirmək istəyir. Yaxşı işğalçı anlayışı yoxdur. İşğalçıların hamısı eynidir. İşğala məruz qalanların da hamısı eynidir. Döyüşür, ölür, öldürür, ədalət axtarır, ikili standartlardan danışır. Ümumiyyətlə, ədalətli sülh anlaşıyı yoxdur. Dünyada ədalət var? Ədalət anlayışı olsaydı Qarabağla bağlı BMT qətnamələri işləyirdi, Fələstin dövləti yaranardı, canlı yayımda, dünyanın gözü qarşısında fələstinlilər qırılmazdı, Rusiya nəniki 2022-ci ildə Ukraynaya hücum edərdi, Krımı geri qaytarardı...*

*Azərbaycanda bir çoxları düşünür ki, Rusiya Ukrayna müharibəsi qısa zamanda bitməlidir. Soyuqqanlı düşünəndə, müharibənin qısa zamanda bitməsi Cənubi Qafqaz ölkələrinin strateji maraqlarına ziddir. Niyə? Çünki Rusiya Cənubi Qafqaza və Orta Asiyaya diqqət ayıracaq. Rusiyanın Cənubi Qafqazda təsir rıçakları mövcutdur? Bəli? Gəlin, bunu açaq.*

*Məlum 10 noyabr bəyanatı ilə birgə Qazax rayonunun 7 və Naxçıvanın Kərki (anklav) kəndinin Azərbaycana qaytarılması məsələsi gündəmə gəldi. Azərbaycan tərəfi rəsmi şəkildə bəyan etdi ki, Ermənistan bu kəndlərin geri qaytarılması ilə bağlı öhtəlik götürüb. Ermənistan tərəfi də bunu inkar etmədi. Ortada bir sənəd olmadığı üçün sənədə istinad edə bilmirəm. Xüsusilə anklav kəndlərin qaytarılması məsələsi iki ölkə arasında sülh müqaviləsinin bağlanması məsələsində ciddi düyün kimi görsənir. Misal üçün Ermənistan Qazax rayonunun 4 kəndini geri qaytardı. Ancaq bu Ermənistan hakimiyyəti üçün o qədər də asan başa gəlmədi. Ölkədə mitinqlər, yürüşlər baş verdi, həbslər dalğası oldu. Proses Ermənistanda sancılı həyata keçdi. Anklavların qaytarılması da Ermənistanda asan keçməyəcək. Sual yaranacaq ki, bu mövzunun Rusiya ilə nə əlaqəsi var? Əslində birbaşa əlaqəsi var. Rusiya onsuzda regionda çoxlu sayda bu tip minalar basdırıb. Anklavlar da bu minalardan biridir. Ermənistanda belə bir fikir səsləndir ki, Kərki ilə Gədəbəyin Başkəndi başabaş dəyişdirilməlidir. Rəsmi Bakının buna gedəcəyi inandırıcı deyil. Çünki Başkəndin heç bir strateji əhəmiyyəti yoxdur. Ancaq Azərbaycana qaytarılmalı olan kədlərin ciddi strateji əhəmiyyəti mövcutdur. Digər tərəfdən Ermənistan tərəfi rəsmi olaraq Başkəndi Azərbaycandan tələb edə bilmir. Əldə edilmiş razılaşmada Başkənddən söz açılmır. Rusiya açıq şəkildə bildirir ki, qısa zamanda Azərbaycanla Rusiya arasında sülh müqaviləsinin bağlanmasını istəmir. Rusiya anklavlar və digər bəhanələrlə yenidən prosesə müdaxilə edə bilər.*

*ATƏT-in Minsk qrupu ləğv edildi. Azərbaycan daha çox Rusiya bu regiondan sıxışdırılır tipli fikirlər səsləndirilir, yazılır. Ancaq real vəziyyətə baxdıqda Minsk qrupunun ləğvi ilə bu regiondan sıxışdırılıb çıxarılan ölkə Fransa oldu. Çünki Rusiyanın Ermənistanda hələ də təsir rıçakları var, anklavlar məsəsləsində vəziyyəti istənilən vaxt gərginləşdirə bilər, bundan əlavə müəyyən razılaşmalar da mövcutdur. Gürcüstan ərazisinin təxminən 20 faizinin işağlda olması da faktdır. ABŞ də regionda ən azı Vaşinqton bəyanatı ilə təmsil olunur. Açıq şəkildə deyə bilərik ki, Fransa bu regiondan tamamilə sıxışdırılıb çıxarılıb. Əlavə etmək lazımdır ki, Fransanın bu regiondan çıxarılmasında Azərbaycanın birbaşa rolu oldu və rəsmi Bakı dirəniş göstərdi. Məsələ bundan sonrakı mərhələdir. Bu region hansı ölkələrin təsir dairəsində olacaq? Rusiya və ABŞ-ni başa düşdük. Yeni oyunçunun bu regiona ayaq açmasına şərait yaradacaqlar? İsrailin o potensialı yoxdur, Almaniyanın da həmçinin. Əgər bu regiona üçüncü bir ölkə transfer olacaqsa, bu Böyük Britaniya ola bilər. Hətta düşünürəm ki, Fransanın sıxışdırılıb çıxarılmasında Böyük Britaniyanın ciddi rolu olub. Yeri gəlmişkən Ukraynada da Böyük Britaniya ilə Fransanın rəqabət içərisində olduğunu görmək olur.*

*Digər sual, regionda yenidən münaqişə ola bilər? Mümkün variantdır. Əgər Rusiya bu regionda varlığını sübut etmək istəyəcəksə, anklavlar üzərindən Ermənistan daxilində müəyyən proseslər apara bilər və Zəngəzur dəhlizi adlanan istiqamətində isə münaqişə yarada bilər. 2020-ci ilin 10 noyabr bəyanatından sonra da yazırdım, əgər regionda yeni münaqişə yaranacaqsa, bu dəfə bu münaqişə ocağı Ermənistan ərazisində olacaq. Ən azı Rusiya bir neçə dəfə buna cəhdlər edib, sadəcə olaraq Azərbaycan tərəfi Ermənistanın yaşayış məntəqələrinə enməyib. Enmək şansı bir neçə dəfə olsa da, sadəcə rəsmi Bakı Rusiyanın bu oyununa gəlməyib. Hazırda dünyada böhranlı bir vəziyyət yaranıb. Böhranın daha da dərinləşməsi gözlənilləndir. Məlum böhran bizim regiondan da yan keçə bilməz. Böhrandan ən gözəl çıxış yolu isə toqquşmalardır. Bu məsələdə Azərbaycan və Ermənistan tərəfinin mövqeyindən, dirənişindən çox şey aslıdır. Hazırkı Ermənistan hakimiyyəti də bu məsələdən yan keçmək xətti tutub. Ən azı Paşinyan hakimiyyətinin necə addım atacağını proqnoz etmək mümkündür. Ancaq Paşinyan seçkilərdə uduzarsa və Rusiyanın dəstəklədiyi qüvvələr hakimiyyətə gələrsə, o zaman hadisələrin necə inkişaf edəcəyini demək mümkün deyil. Hətta bunu rəsmi Bakı da proqnozlaşdıra bilmir. Azərbaycan tərəfi yalnız proseslərə adekvat davranmaq üçün hazırlıqlar görə bilir və proseslər onu göstərir ki, addımlar da bu istiqamətdə atılır.*

## *Əhməd İsmayılov Suriyanın informasiya naziri ilə görüşdü*



**Əbu-Dabidə keçirilən "Bridge" media və məzmun sənayesi sammiti çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ilə Suriya Ərəb Respublikasının informasiya naziri Həmzə Əl-Mustafa arasında ikitərəfli görüş keçirilib.**

Adalet.az xəbər verir ki, görüş zamanı Azərbaycan ilə Suriya arasında media və kommunikasiya sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri, informasiya axınının genişləndirilməsi və bu sahədə qarşılıqlı maraq doğuran istiqamətlər ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda dezinformasiya ilə mübarizə, etibarlı informasiya mühitinin formalaşdırılması, dialoqun genişləndirilməsi və institusional əlaqələrin inkişaf etdirilməsi məsələləri də diqqət mərkəzində olub.

## *Zaxarova Qərb yarımkürəsinin təhlükə ilə üzləşməsindən narahatdır*



**Rusiya Federasiyası xarici işlər nazirliyinin sözçüsü Mariya Zaxarova, Venesurla münaqişəsindən narahat olduğunu və Pentaqon tərəfindən Vrnesuela ətrafında yaradılan münaqişənin Qərb yarımkürəsinə təhlükə yarada biləcəyini bildirib.**

Xanım Zaxarova, deyəsən nəinki Şərq yarımkürəsinə, hətta bütün dünyaya təhlükə yaradan, dörd ilə yaxındır davam edən Rusiya-Ukrayna müharibədindən xəbəri yoxdur...

The News York Tines qəzeti qəzeti məlumatlı mənbələrinə əsasən yazır ki, ABŞ prezidenti Donsld Trampın administrasiyası, Venesuelaya aarşı hərbi əməliyyatlar keçirilməsi məsələsi üzrə üç variantı müzakirə edir.

## *Tramp Qəzzanın bərpasını Qətərin boynuna qoymaq istəyir?*



**Qətərin bsş naziri Məhəmməd ibn Əbdürəhman əl-Tani bəyan edib ki, Qətər Qəzzanın bərpa olunması üçün vəsait xərcləmək fikirində deyil.**

"Biz, başqalarlnın dağıtdığı əraziləri bərpa etməyəcəyik. İsrail Qəzzanın altını üstünə çevirib"- deyə əl-Tani "Doxa Fotum" diplomatik konfrandında keçirdiyi mətbuat konfrsndında bildirib. Üəyərun baş naziri daha sonra qeyd edib ki, Qəzza və Ukraynanın bərpa klunması məsələlərinə ikili standartlarla yanaşılır.

"Ukraynanın bərpa olunması məsələdinə gələndə, deyirlər ki, dağıdıkmış əraziləri xaricdəki aktivlərinin hesabıns Rusiya bərpa etməlidir. Qəzzanın bərpasına gəldikdə isə, İsrailin bu əraziləri pərpa etməsnə "yox" deyirlər. Bu ironik "ikili standart" deyilmi?"- deyə Qətərun bsş naziri bildirib.

## *Makron münaqişə prossesində pozitiv məqamlar görür*



**Avropa liderlərinin Ukrayna münaqişəsini həllidə iştirak etmək üçün əllərində ciddi kozırları var. Bu barədə Fransa prezidenti bəyan edib.**

"Bizim əlimizdə çoxsaylı kartlar var"-deyə Makron bildirib.

Fransa prezidenti həmçinin üeyd edib ki, danışıqlar prossesinin irəliləmək imkanlarında "pozitiv məqamlar" görür.

Emmanuel Makronun simasında Qərb ölkələrinin liderləri, əraziləri işğal olunmuş Ukrayna prezidenti Volodimir Zelenskini haqlı olaraq tutduğu möqedən başqa bütün "mövqeləri" "yaxşı" görürlər.

**Rüstəm Hacıyev**

# Tarix öz liderlərini çağıranda

## Heydər Əliyevin qayıdış fenomeni və de Qoll, Ruzvelt, Atatürk və Çörçill paralelləri

**Tarix yalnız onu daşıya bilənləri seçir Xalqların taleyində elə anlar olur ki, tarix sanki keçmişə müraciət edərək gələcək üçün cavab axtarır. Belə dövrlərdə dövlətlər yalnız idarə edənləri deyil - ölkənin təməllərini bərpa etməyə, istiqamətini müəyyənləşdirməyə qadir liderləri çağırırlar.**

Uinston Çörçillin məşhur fikridir: "Millətin böyüklüyü onun çətin zamanlarda necə davranması ilə ölçülür." Bu fikir müxtəlif ölkələrin təcrübəsində öz təsdiqini tapır: siyasi və tarixi böhran dövrlərində xalqlar dayağa çevrilə bilən liderləri yenidən önə gətirirlər. Müxtəlif dövrlərdə Şarl de Qollun, Mustafa Kamal Atatürkün, Franklin Ruzveltin hakimiyyətə qayıdışı bunun nümunəsidir. Gürcüstanda Şevardnadzenin çağırılması, ABŞ-da Donald Trampa yaranmış güclü ictimai tələbat da bu fenomenin müasir təzahürləridir.

1993-cü ildə Azərbaycan da məhz belə bir tarixi dönüş nöqtəsində öz liderini - Heydər Əliyevi çağırdı. Dövlət uçurumun kənarında olanda 1990-cı illərin əvvəlləri Azərbaycanın yeni müstəqilliyi üçün misilsiz sınaqlar dövrü idi. Siyasi xaos, müharibə, iqtisadi tənəzzül - bütün bunlar dövlətçiliyin əldən getdiyi hissini yaradırdı.

Cəmiyyətdə tək və aydın bir tələb formalaşmışdı: "Bizə dövləti sıfırdan qura biləcək insan lazımdır."Bu İNSAN isə bəlli idi - Heydər Əliyev.!!!

Onun qayıdışı siyasi manevr deyil, tarixin çağırışına cavab idi. Ölkənin taleyini dəyişən qayıdış 1993-cü ilin iyununda Bakıya gələn Heydər Əliyev ən ağır böhranın mərkəzində idi. Hər gün ölkə üçün sonuncu gün ola bilərdi. Lakin məhz belə məqamlar tarixi dəyişə bilən liderləri yetişdirir. Heydər Əliyev idarəetməni bərpa etdi, dağılmaqda olan dövlət institutlarını yenidən qurdu, ordunun və diplomatiyanın təməlini möhkəmləndirdi.

O, hakimiyyət üçün yox - dövlət üçün gəldi. Və bu andan etibarən Azərbaycanın yeni epoxası başlandı. Onilliklərlə irəli düşünən lider Heydər Əliyevin gücü onun strateji baxışındaydı. O sadəcə hökumət qurmadı - dövlətçilik sisteminin özülünü yaratdı. O, aşağıdakı sahələrdə dayanıqlı model formalaşdırdı: güclü idarətmə vertikalı; peşəkar güc strukturları; müasir ordu; enerji strategiyasının təməli; şaxələndirilmiş, balanslaşdırılmış xarici siyasət. Şarl de Qollun dediyi kimi: "Xalq tərəddüd edəndə, taleyini öz əlinə ala biləcək lideri axtarır." 1993-cü ildə Azərbaycanın tapdığı məhz belə bir lider idi. Diplomatiya ustalığı: Heydər Əliyev və çoxvektorlu balans siyasəti Heydər Əliyev irsinin ən mühüm, lakin bəzən az vurğulanan hissəsi onun diplomatik dahiliyi idi. Gənc və həssas dövlətlər adətən böyük güclərin rəqabət meydanına çevrilirlər. Lakin Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan əksinə - böyük güclərin rəqabət meydanına yox, əməkdaşlıq platformasına çevrildi. Bakı Dövlət Universitetin Beynəlxalq Münasibətlər və Diplomatiya fakültəsinin magistrantı kimi hesab edirəm ki, Heydər Əliyevin diplomatik fəlsəfəsi Azərbaycan dövlətçiliyinin ən



bahalı və strateji əsaslarından biridir. O bacardı: Qərb və Şərq arasında tarazlığı qorumağı, Şimalla, xüsusən Rusiya ilə praqmatik və proqnozlaşdırıla bilən münasibətlər qurmağı, Türkiyə ilə strateji tərəfdaşlığın dərinləşməsini, ABŞ və Avropa İttifaqı ilə qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığı və ən əsası - bütün bunları milli suverenliyə toxunmadan həyata keçirməyi birmənalı BACARDI!

Bu siyasət Azərbaycanın: Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin qovşağına çevrilməsinə, enerji xəritəsini dəyişən layihələrin müəllifi olmasına, regionun strateji dövlətinə çevrilməsinə imkan yaratdı. Azərbaycan nə bir blokun təzyiq meydanına çevrildi, nə də geosiyasi oyunların aləti oldu. Əksinə, ölkə böyük güclərin əməkdaşlıq xəttinin kəsişdiyi sabit mərkəz oldu. Bu balans siyasəti illər sonra ölkənin tarixi nailiyyətlərini mümkün edən əsas faktor oldu. Tarixi paralellər: dövləti xilas etmək üçün qayıdan liderlər Tarix bir neçə ölkədə liderlərin qayıdışını dövlətin xilası ilə bağlayır. Heydər Əliyevin qayıdışı da bu qlobal ənənəyə daxildir və eyni zamanda onu aşan ölçüdə unikal hadisədir.

Şarl de Qoll - Beşinci Respublikanın banisi Siyasi sistemin çöküşü fonunda hakimiyyətə qayıdaraq Fransanı dağılmaqdan xilas etdi. Franklin Delano Ruzvelt - ölkəni tənəzzüldən çıxaran lider Onun "Yeni kurs" siyasəti strateji dövlət idarəçiliyinin klassik nümunəsidir. Mustafa Kamal Atatürk - müasir Türkiyənin memarı Dövləti sıfırdan quraraq milli inkişaf modelini müəyyənləşdirdi. Uinston Çörçill - ölkənin yardım çağırdığı lider İkinci Dünya Müharibəsinin ən qaranlıq günlərində Britaniyanın taleyini dəyişdi. Eduard Şevardnadze - postsovet Gürcüstanında sabitlik faktoru Xaosu dayandırmaq üçün xalqın çağırdığı lider oldu. Donald Tramp - qlobal tendensiyanın müasir təzahürü Cəmiyyətlərin böhran zamanı güclü, sistemdən kənar liderlərə yenidən üz tutmasının nümunəsidir. 12 dekabr Heydər Əliyevin , yəni unikal fenomenin - özündən sonra qələbə qoyan liderin anım günüdü. Bu tarix həm də onun ölkədən gedərkən arxasında işlək və dayanıqlı dövlət sistemi qoyduğunu xatırladır. Bu sistem illər sonra Azərbaycanın əsas milli məqsədinə - ərazi bütövlüyünün tam bərpasına aparan yeganə yol oldu. Prezident İlham Əliyev atasının qurduğu modelin potensialını reallaşdırdı. Nəticə isə danılmazdır: Keçmiş SSRİ respublikaları arasında yalnız Azərbaycan beynəlxalq səviyyədə tanınan sərhədlərini tam bərpa edib.

**Bu, Heydər Əliyevin yaratdığı siyasi modelin effektivliyinin tarixi sübutudur. Lider, xalqın taleyində yaşayan şəxsiyyət Heydər Əliyev deyirdi: "Mən fəxr edirəm ki, həyatım boyu Azərbaycan xalqına xidmət etmişəm." Onun xidməti bu gün də Azərbaycanın dövlətçilik xəttində yaşayır. O, fiziki olaraq aramızda yoxdur, lakin onun siyasi strategiyası zamanın sınağından qalib çıxıb. Uinston Çörçill yazırdı: "Keçmişə nə qədər dərindən baxsan, gələcəyi bir o qədər aydın görərsən." Azərbaycanın bugünkü inkişafı bu fikrin təsdiqidir. Nəticə Tarix yalnız ən çətin anlarda ortaya çıxmağı bacaran liderləri çağırır. Heydər Əliyev məhz belə bir lider idi. O, Azərbaycanı özünə qaytardı. Dövlətçiliyi bərpa etdi. İnamsızlığı inama çevirdi. Gələcəyə yol açdı. Və ən əsası - onun qayıdışı bir millətin tarixində qələbə ilə nəticələndi. Bu səbəbdən 12 dekabr təkcə anım günü deyil - bu gün Azərbaycan xalqı taleyini dəyişən liderinə minnətdarlığını bildirir.**

**Leyla Mansimova,**
**Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Diplomatiya fakültəsinin magistrantı**

# Azərbaycan neftinin Ermənistana ilk tranzitindən rüsum tutulmayacaq

**Gürcüstan Azərbaycan neft məhsullarının Ermənistana ilk tranzitinə rüsum tətbiq etməyəcək.**

Adalet.az "Sputnik Ermənistan"a istinadən xəbər verir ki, bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin bəyanatında deyilir.

"Gürcüstan hökuməti bu il dekabrın 5-də tərəfdaş ölkə kimi Azərbaycandan yanacağın tranziti ilə bağlı rəsmi müraciət alıb.

Baş nazir İrakli Kobaxidzenin qərarı ilə "Gürcüstan Dəmir Yolları"na sözügedən yükün tarif tətbiq edilmədən daşınması barədə dərhal tapşırıq verilib", - məlumatda deyilir.



Qeyd olunub ki, Gürcüstan Azərbaycan və Ermənistanın strateji və etibarlı tərəfdaşı olub və olmaqda davam edir, həmçinin regionda sülh və sabitliyi dəstəkləyir.

**Xatırladaq ki, Prezident İlham Əliyev bu il oktyabrın 21-də Qazaxıstanda səfərdə olarkən Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını bəyan etmişdi. Bu il noyabrın 5-də Rusiya buğdası Azərbaycan üzərindən daşınmaqla Ermənistana çatdırılıb. Bundan başqa, Qazaxıstan buğdasının yüklənmiş olduğu qatarlar Azərbaycan ərazisindən keçməklə noyabrın 8-də Ermənistana çatıb.**

# Aqil Abbas: "Ev verilsə, Ağdama köçəcəyəm"

**Hazırda Qarabağda genişmiqyaslı quruculuq prosesi həyata keçirilir. Xüsusilə vurğulamaq lazımdır ki, bölgədə yalnız bərpa deyil, faktiki olaraq tamamilə yeni bir inşa mərhələsi gedir.**



Adalet.az xəbər verir ki, bunu deputat Aqil Abbas Qarabağdakı bərpa-quruculuq prosesinin hazırki mərhələsindən danışarkən Bakıvaxtı.az-a bildirib: "Köç prosesi başlayıb və qayıdış real şəkildə davam edir. Qısa müddətdə bir çox ailə öz yurduna qayıdıb". Müsahibimiz vurğulayıb ki, növbəti il daha böyük köçün olacağı gözlənilir. Onun sözlərinə görə, ilk mərhələdə əsas prioritet infrastrukturun qurulması, yaşayış məntəqələrinin bərpası və məskunlaşdırmanın təmin edilməsidir. Şəhərlərdə tikinti sürətlə davam edir: küçələr, yollar, parklar və digər vacib obyektlər inşa olunur.

A.Abbas qeyd edib ki, indiyədək Qarabağın bərpası üçün 25 milyard dollara yaxın vəsait ayrılıb. Növbəti ilin büdcəsində isə bölgənin quruculuğu üçün təxminən 4 milyard manat nəzərdə tutulub.

Deputat Qarabağa köçmək istəyindən də danışıb:

"Ağdama köçmək fikrim var. Yoldaşımla sözləşmişik ki, gedib orda yaşayacağıq. Bu, həm də bir nümunə olar. İşlərimlə əlaqədar da tez-tez Bakıya gələrəm. Qaçqın statusunda deyiləm, bu səbəbdən dövlətin mənə ayırdığı ev yoxdur. Yəqin ki, hökumətə müraciət edib köçmək barədə rəsmi prosesə qoşulacağam".

# 7 illik vergi güzəşti ləğv olunur: Bu qədər ödəyəcəyik

**Azərbaycanda 2019-cu ildən qüvvədə olan, qeyri-neft-qaz və qeyri-dövlət sektorlarında çalışanlar üçün nəzərdə tutulmuş gəlir vergisi ilə bağlı güzəştin müddətinin 2026-cı il yanvarın 1-də başa çatması ilə əlaqədar fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergilər yeni qaydada tutulacaq.**



Adalet.az xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, 2026-cı ildə aylıq gəliri 2 500 manata qədər olanlar 3 %, 2027-ci ildə 5 %, 2028-ci ildən isə 7 % vergi ödəyəcəklər.

Aylıq gəliri 2 500 manatdan 8 000 manata qədər olanların vergisi 2026-cı ildə 75 manat + 2 500 manatdan 8 000 manata qədər hissənin 10 %-i qədər, 2027-ci ildə 125 manat + 2 500 manatdan 8 000 manata qədər hissənin 10 %-i qədər, 2028-ci ildən isə 175 manat + 2 500 manatdan 8 000 manata qədər hissənin 10 %-i qədər olacaq.

Aylıq gəliri 8 000 manatdan çox olanların vergisi isə 2026-cı ildə 625 manat + 8 000 manatdan artıq hissənin 14 %-i qədər, 2027-ci ildə 675 manat + 8 000 manatdan artıq hissənin 14 %-i qədər, 2028-ci ildən isə 725 manat + 8 000 manatdan artıq hissənin 14 %-i qədər olacaq.

Qeyd edək ki, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergi 2019-cu il yanvarın 1-dən 7 il müddətində aylıq gəlir 8000 manatadək olduqca 0 faiz, 8000 manatdan çox olduqda 14 faiz olmaqla tutulub.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

**Nicat**

# "Milyonlarla vəsaiti olan yüksək çinli din xadimlərinin əksəriyyəti lüks həyat yaşayır..."

**"44 günlük Vətən Müharibəsində starteji məğlubiyyətə məruz qalan Ermənistanın bütün dayaqları sarsıldı. İqtidar, müxalifət, siyasi və hərbi idarəetmə, Qarabağ klanı, kilsə, biznes, media, ictimaiyyət, dispora və sair. Məğlubiyyət sindromunu daşıya bilmədi, bunlardan heç biri mövcud vəziyyətdən real çıxış yolunu tapa bilmədi və Ermənistanın bütün dayaqları parçalandı. Lakin işğalçı ölkədə və ya xaricdə yaşayanların az bir hissəsi rusların Qarabağda olmasına görə nəyəsə ümidli idilər".**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, amma yenə də Azərbaycan Əsgəri adlı "zalım fələk" işğalçının üzünə gülmədi:

"2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistanda olan-qalan son ümidlər yox oldu. Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyənlər, işğal dövründə Azərbaycana qarşı döyüşənlər, onların ailələri, xarici ölkələrdən Qarabağa köçürülən xarici ölkə vətəndaşları, humanitar fəaliyyət adı altında Qarabağda Rusiyanın maraqlarını təmsil edənlər könüllü şəkildə ərazilərimizi tərk etdilər. Vətəndaşlığını qəbul edənlər isə bu gün də Qarabağda yaşayır. Onların araşında ən xoşbəti isə bütün fəsillərdə qırmızı gödəkcədə gəzən Mişadır".

Ə.Verdiyev deyib ki, vaxtilə Azərbaycana qarşı bəyanat



səsləndirən, bizə silah tuşlayanlara haqq qazandıran seperatçı rejimin ən üst səviyyəli rəhbərləri səliqəli və mədəni şəkildə həbs edildi. Vağzalı sədaları altında Bakıya gətirildilər:

"Baş verən hadisələrin şok terapiyasından və başına dəyən çoxsaylı "Dəmir Yumruq" zərbəsindən özünə gəlməyən dizertirlər növbəti dəfə daha ağır bir xəbər aldı. İşğalçı ölkənin son ümidlərinin dayaq nöqtəsi olan Rusiya qoşunları Ermənistana məlumat vermədən Azərbaycan ərazisindən çıxarıldı. Sonrakı proseslərdə isə daha əvvəl 10 yerə parçalanan hay cəmiyyətini hər bir qolunu öz aralarında bir neçə yerə parçalanması ilə müşahidə olunur. Artıq Ermənistanın gələcəyi ilə bağlı planları və ya təklifləri üst-üstə düşən insanlar tapmaq çətindir".

Hərbi ekspertin sözlərinə görə, bütün bu problemlərin kökündə isə apostol kilsəsi dayanır:

"2018-ci ildə Ermənistan vətəndaşlarının əhəmiyyətli bir hissəsi kilsənin başçısı II Qareginin istefasını tələb edirdi. Dindarlar qəzəbinin səbəblərindən biri kilsə rəhbərliyinin dəbdəbəli həyat tərzi idi. Erməni Apostol Kilsəsinin rəhbərləri yerlibazlıq, uşaqbazlıq, qohumbazlıq və dəbdəbəli həyat tərzinə görə tənqid olunurlar. 49 yepiskopdan altısı katolikos ilə eyni kənddə doğulub. Qareginin qardaşı və əsl adı Mkrtıç olan Ezras pedifiliya, digər qohumu Müqəddəs Arşak doğma xalası ilə "kilsədə məhəbbət", Navasard Kçoyan isə "lüks həyat" videoları ilə məşhurdur. Katolikos II Qaregin özü isə asudə vaxtını İrəvanın keçmiş meri, bandit Karen Karapetyana məxsus restoranda qapalı şəraitdə keçirir. Bank hesablarında milyon dollarla vəsait olan yüksək çinli din xadimlərinin əksəriyyəti lüks həyat yaşayır. Aralarında "Bentley Continental Flying Spur" avtomobilini hədiyyə alan da var, Serj Sarkisyandan aldığı bahalı silahla poza verən də var, son model zirehli "Mercedes-Benz S-Class"-da gəzən də. Bütün ermənilərin katolikosu B6/B7 səviyyəli zireh qoruyucusu olan W221 model "Mercedes-Benz S600L Guard" avtomobilində səyahət edir.

Bu nəqliyyat vasitələri mina partlayışlarından və Kalaşnikov avtomatından atəşə tutulmadan qorunur. Lakin qiyməti də uyğundur - yeni avtomobilin qiyməti ən azı 1.000.000 dollardır. Başqa sözlə desək, Ermənistanın nəzarət etdiyi ərazilər kiçilir, erməni kilsəsinin rəhbərlərinin isə gəlirləri və əxlaqsız hərəkətlərinin sayı artır. Ermnistan katalikosu artıq bir neçə ildir ki, Rusiya və yeli müxalif qüvvələr ilə birgə hakimiyyət dəyişikliyi eşqinə düşüb. Nikol Paşinyan isə mövcud təhlükələri daha dərindən hiss edir və qarşı tədbirlər görməkdə davam edir.

Hazırda Ermənistanda mövcud olan bütün təbəqələr bir neçə yerə bölünüb. Belə bir vəziyyətdə daim revanşist ideyalarla yaşayan, əlində silah Azərbaycan ilə döyüşlərdə iştirak edən erməni kilsəsini ram etmək və onu dövlətin nəzarətinə almaq Xilaskar Nikol üçün daha asan ola bilər".

**Vasif ƏLİHÜSEYN**

## *Politoloq: "Tramp hər dəfə Zelenskini aşağılamaqdan həzz alır..."*



**"ABŞ Prezidenti Donald Tramp deyib ki, guya Ukrayna Prezidenti Volodimir Zelenski Vaşinqtonun hazırladığı sülh planının məzmununu oxumayıb. Deyəsən, Tramp hər dəfə Zelenskini aşağılamaqdan həzz alır. Müharibə gedən və əraziləri işğal olunan ölkənin dövlət başçısı ona təqdim olunan sülh planını necə oxumaya bilər? Əgər həmin planı müharibəyə dəxli olmayan siyasətçilər və ekspertlər az qala lupa ilə oxuyublarsa, necə ola bilər ki, Zelenski ölkəsinin və bəlkə də özünün siyasi taleyini həll edə biləcək planı oxumasın? Trampın digər iddiasına görə, guya Zelenkisinin komandası sülh planından məmnun qalıb, Ukrayna Prezidenti isə məmnun qalmayıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, bu cümlədə də iki ziddiyyətli məqam var:

"Birincisi, Tramp bir tərəfdən deyir ki, Zelenski planı oxumayıb, o biri tərəfdən də vurğlayır ki, Ukrayna Prezidenti plandan məmnun qalmayıb. Demək, Zelenski planı oxuyub ki, sənəddən məmnun qalmayıb. İkincisi, Zelenski ilə yanaşı onun komanda üzvləri də Vaşinqtonun planından məmnun deyillər. Təsadüfi deyil ki, Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Aleksandr Sırski "Sky News" kanalına müsahibəsində Ukraynanın hər hansı ərazi güzəştini qəti şəkildə rədd edib. Sırski bildirib ki, Ukrayna üçün ədalətli sülh yalnız heç bir ilkin şərt olmadan və heç bir ərazi itirilmədən mümkündür. Onun sözlərinə görə, döyüşlər yalnız mövcud təmas xəttində dayandırıla bilər. Bu Sırskinin hamıya, o cümlədən Prezidenti Volodimir Zelenskiyə də mesajıdır ki, işğalçı Rusiyaya güzəştə getməsin. Donald Trampın Zelenskini niyə hədəf seçməsi onun açıqlamasının sonrakı hissəsindən aydın olur. Ağ Ev sahibi Rusiyanın Vaşinqtonun planından razı qaldığını iddia edib. Halbuki, Rusiya Prezidenti Vladimir Putin Hindistan nəşrinə verdiyi müsahibədə Trampın Moskvaya göndərdiyi nümayəndələrlə 5 saatlıq görüşü mənasız və vaxt itkisi kimi qiymətləndirib".

## *"Kəndli həyatində tövlə tikmək üçün icazə almalıdır..."*

**"Kəndlinin heyvandarlıq təsərrüfatı üçün tikəcəyi tövləyə Şəhərsalma Arxitektura komitəsi icazə verəcək. Kəndli yerli icra hakimiyyətinə və sonra Şəhərsalma Arxitektura Komitəsinə müraciət etməsi rüşvət mexanizminin bir hissəsidir. Adın da qoyublar torpaqlardan səmərəli istifadə üçün. Bu qərar torpaqlardan səmərəli istifadə deyil, kəndlini öz təsərrüfatından imtinaya sürükləmək, ölkədə heyvandarlığın inkişafının qarşısını almağa hesablanıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, bu kəndlinin torpağını əlindən alaraq öz aqroparklarını yaratmağa hesablanıb:

"Bu, monopoliyanın tərkib hissəsidir. Şikayət olunur ki, əhali Bakı şəhərinə axın edir, rayonlarda iş yerləri açılmır. Üstəlik, kəndlinin son dolanmaq təsərrüfatı əlindən alınır. Bu nə qərardır?! Rayon icra hakimiyyətinin 99 faizi rüşvət yığmaqla məşğul olur.

İcra hakimiyyətləri kəndlinin üstünə düşəcək. Kim heyətində rüşvət vermədən tövlə tikərsə, gəlib sökəcəklər. Ölkədə kənd təsərrüfatını inkişaf etdirmək əvəzinə, qarşısı alınır. Yerli heyvandarlıq bir tərəfə qalsın. Kəndli öz dolanışığı üçün bir heyvanı üçün pəyə tikməyə görə Bakı şəhər Arxitektura idarəsindən icazə alacaqsa, bu kənd təsərrüfatının inkişafı deyil, qarşısının alınmasıdır. Təbii ki, Şəhərsalma Arxitektura komitəsi icazə verməyəcək".

M.Əsədullazadə deyib ki, ölkədə sosial ədalətsizliyi təbiq etmək olmaz:

Onsuz da kənd yerlərində dolanışıq çətinləşib. Rüşvətxor icra hakimiyyətləri üçün yeni rüşvət mexanizmi yaradılır. Ölkədə fundamental islahatlara ehtiyac var. Yalnız məmur və oliqarxların maraqlarına söykənən qərarlar vermək olmaz. Azərbaycan Cənubi Qafqazda geosiyasi reallıqlar yaradan bir ölkədir.

Ölkədə beynəlxalq siyasi - iqtisadi strateji layihələr həyata keçirilir. Qalib Azərbaycan dövlətinin vətəndaşları məmur-oliqarxlarin özbaşınalığı ilə üzləşib. Prezident İlham Əliyev yerli sahibkarlığın inkişafı üçün tapşırıqlar verir. Kənd təsərrüfatı üçün milyonlarla dollar vəsait ayırır. Görünür, hələ də Ramiz Mehdiyev xislətli adamlar, onun kadrları vəzifədə qalmaqdadır".

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Belləri əyilən uşaqlar...

**... Balaca, zəif və çəlimsiz uşaqlar görəndə ürəyim ağrıyır. Və üstəlik də bu uşaqlar çiyinlərinə keçirib bellərində apardıqları məktəbli çantaları onların vəziyyətini bir daha ağırlaşdırır. Onda görün bu zəif və çəlimsiz uşaqlar nə çəkirlər. Özü də o çantaların ağırlığı 7-8 kiloqramdan az olmur! O çantaların içərisində lazımsız dərs vəsaitləri az deyil. Və beləcə gözümüzün qabağında millətin gələcəyi olan bu şagirdlərin belləri əyilir.**

**Ən təəccüblüsü odur ki, çoxumuz bu anları görür və susuruq. Elə bilirik ki, susmaq qızıldı. Amma susmaq heç də həmişə qızıl deyil! Bəzi cəsarətli insanlar susmurlar və aidiyyəti dövlət orqanlarına öz iradlarını bildirirlər! Bəs bu məsələləri kim həll etməlidir? Əlbəttə, birmənalı olaraq Elm və Təhsil Nazirliyi! Çünki aidiyyəti qurum problemi hamıdan yaxşı bilir və çıxış yolu tapar. Ancaq sadəcə olaraq cəmiyyətin, ictimaiyyətin narahatlığına baxmayaraq, bu günə kimi bu məsələlər həll edilmir.**

**Müxtəlif səviyyələrdə söhbətlər aparılır, fikirlər səsləndirilir, mediada gündəmə gətirilir və bir müddətdən sonra hər şey yaddan çıxır. Və yenə ağır çantaları çiynində gəzdirən məktəbli şagirdlər olur! Belə olanda bu uşaqların gələcəyi necə olacaq?! Axı, bu uşaqlar böyüyüb əsgər olacaq, böyüyüb ailə quracaq. Onların gələcəyini görəsən, düşünən varmı?! Hər halda, düşünənlər olmamış deyil! Amma düşünmək azdır, problemi həll eləmək lazımdır! Adının çəkilməsini istəməyən məşhur travmatoloq - ortaped deyir ki, 20-30 il bundan əvvəl biz müayinə edərkən məktəbli uşaqların onurğa sütununda əyilmələr, disk yırtıqları yox idi. Ancaq indi o uşaqları müayinə edəndə çox sayda məktəblidə bu problemlər üzə çıxır.**

**Onlar zamanında müalicə edilməsə, gələcəkdə çox böyük fəsadları ola bilər, hətta əlillik dərəcələri yaranar. Bu isə o deməkdir ki, həmin gənclər hərbi xidmətə yararsız vəziyyətə düşür. Göründüyu kimi, artıq mütəxəssislər də həyəcan təbili çalır. Bu məsələləri isə həll etmək o qədər də çətin deyil. Sadəcə olaraq Elm və Təhsil Nazirliyi ibtidai sinif şagirdlərinin dərs yükünü yüngülləşdirməli, lazımsız vasitələri tədrisdən çıxarmalıdır. Yoxsa belə getsə, o uşaqların beli bundan sonra lap əyiləcək!!!**

## *Kanalizasiya suları zirzəmiyə axır...*



**Bu gün Bakıda bir çox binaların zirzəmisində ciddi problemlər yaranıb! Belə ki, kanalizasiya sularının zirzəmilərə axması nəticəsində həmin yerlərdə anti-sanitariya şəraiti yaranır, ağcaqanadlar və digər həşəratlar çoxalır, birinci mərtəbələrdə rütubətin qoxusundan insanlar olmazın əziyyətin çəkirlər.**

Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsi, " D" massivi , bina 13- də də uzun müddətdir ki, belə bir xoşagəlməz vəziyyət hökm sürür. Mövcud vəziyyətlə bağlı bina sakinləri və mənzil kooperativ təşkilatının sədri aidiyyəti qurumlara, cümlədən Suraxanı rayon Sukanal idarəsinə müraciət edib. Və onlar da , " həmişə gəlib düzəldərik" - deyilər. İnsaf naminə deyək ki, gəliblər də. Amma nə faydası .

Bir balaca zirzəmidə əl gəzdiriblər, kanalizasiya suyu axan xəttə nə isə baglayıblar və onlar gedəndən sonra yenə vəziyyət əvvəlki kimi olub. Yəni zirzəmiyə su axmaqda davam edib. Bir neçə gün bundan əvvəl yenə həmin qurumdan uzun müddət edilən şikayətdən sonra gəldilər. Zirzəmiyə düşdülər və beş- on dəqiqədən sonra çıxıb dedilər ki, nasazlığı aradan qaldırdıq, daha ora su axmayacaq .

Onların bu sözlərindən sonra bina sakinləri sevindilər və dedilər ki, şükür Allaha bu məsələ həll olundu. Ancaq bir gün keçmədi ki, yenə zirzəmidəki üfunət iyindən durmaq mümkün olmadı.Deməli, yenə Su- kanal İdarəsinin qəza xidmətinin əməkdaşları işə məsuliyyətsiz yanaşıblar.Onlar düşünmürlər ki, zirzəmiyə kanalizasiya sularının uzun müddət axması bir neçə ildən sonra o binanın çökməsinə səbəb ola bilər.

**Bina sakinlərindən bir neçə nəfər zirzəmiyə girib, ora baxış keçirdi və məlum oldu kı, yenə zirzəmiyə kanalizasiya suları axır. Onlar oradakı görüntünü çəkib sakinlərə payladılar. Və biz də bu görüntü, şəkilləri bir daha aidiyyəti qurumun, eləcə də oxucuların diqqətinə çatdırırıq. Ki, görsünlər 13 nömrəli binanın zirzəmisinə su axır, yoxsa, axmır?!**

**EMİL FAİQOĞLU**

## *Səssiz ölüm...*



**Məncə , onu elə belə adlandırmaq lazımdır; səssiz ölüm! Hər il payızqış mövsümündə dəm qazından yüzlərlə ölən insan var. Heç hələ qış gəlməyib,Bakıda və bölgələrdə dəm qazından ona yaxın insan var!**

Bəs, faciəli hadisələr nədən baş verir! Təbii ki, bir çox insanların məsuliyyətsizliyindən və laqeydliyindən! Hansı ki, hər mövsüm başlayanda " Azəriqaz" ın əməkdaşları evlərə baxış keçirir, mövcud nöqsanları abonentlərin diqqətinə çatdırır və onlara bildirir ki, hamamdakı qazla işləyən qızdırıcı qurğuları oradan çıxarıb ya mətbəxdə, ya da eyvanda yerləşdirsinlər .

Bu daha təhlükəsizdir.Yeni " Azəriqaz" əməkdaşları öncə əhali arasında maarifləndirmə işləri aparır, buna əməl etməyənləri inzibati məsuliyyətə cəlb edirlər. Amma görünür bundan nəticə çıxarmayanlar da var! Ona görə də, dəm qazından boğulma halları artır.

Bir neçə gün bundan əvvəl Bakıda 25 yaşlı oğlan dəm qazında hamam otağında boğulub ölüb! Bax bütün bunlar əhalinin daha diqqətli olmağı tələb edir. Buradan belə bir məntiqi nəticə çıxır ki, kimliyindən asılı olmayaraq hamı təhlükəsizlik qaydalarına əməl etməlidir!

## *Yenə partapartdı...*



**Hələ Yeni ilə bir aya yaxın vaxt var binaların yaxınlığında, küçələrdə bir partapart var ki, gəl,görəsən! Hansı ki, pirotexniki vasitələrin satışı qadağandır. Məsələn, Yeni Günəşlidə " D" massivində hər gün bu partlayıcı vasitələrin səsini eşitmək olar!**

Piyada gedirsən bir də görürsən ki, ayaqlarının altına nəsə düşdü və vahiməli səs çıxdı. Belə anlarda uşaqlar, qocalar, xüsusilə də hamilə qadınlar çox qorxu keçirirlər. Ürəyi zəif olanlar,xəstə adamlar qəfil partlayışdan və stressdən,həyəcandan ölə də bilər! Hətta qəfil partlayışın səsindən həyəcanlanıb xəstəxanaya düşəndə var. Belə getsə,bu partlayıcı oyuncaqlardan çox istifadə olunacaq!

Ona görə də artıq Daxili İşlər Nazirliyinin aidiyyəti qurumları qanunsuz satışı keçirilən pirotexniki vasitələri satışdan çıxarilması üçün artıq fəaliyyətə keçib. Bu məqsədlə Bakıda onun satışını təşkil edən ticarət şəbəkələrində profilaktik tədbirlər həyata keçirilir.

Bir çox satıçılar maarifləndirilir, tövsiyələrə əməl etməyənlər inzibati məsuliyyətə cəlb edirlər! Belə ki, bəzi ticarət obyektlərindən pirotexniki vasitələr yığışdırılıb və götürülüb! Hər halda, bu qanunsuz işlərlə məşğul olanlar məsuliyyət daşıyırlar. Çünki qanun hamı üçün qanundur!

## *Birazca da dözün...*



**Havalar get-gedə soyuyur və birazdan bir qədər soyuq olacaq! "Azəristiliktəchizat" sa əhaliyə noyabrın 15- dən istilik verməlidir.Bu gün əksər insanlardan soruşuruq ki, mənzilinizdə istilik varmı? Onları çoxu deyir ki, xeyr yoxdur. Məsələn, Yeni Yasamal 2, bina 2- də yaşayan sakinlər bildirirlər ki, evlərimizə normal istilik verilmir, 4 otaqdan birində istilik var, o da çox zəif. Sahə rəisinə deyirik ki, bəs filan qədər istiliyə pul ödəyirik, niyə bizə normal istilik vermirsiniz? Sahə rəisi isə laqeyd halda bildirirk ki, biz havanın temperaturuna uyğun istilik veririk! Qəribə cavabdır ey! İstiliyi elə verin ki, ən azından evimiz qızsın! Amma bu istiliklə , vallah, evlər qızmaz!**

Görünür" Azəristiliktəchizat" qışa tam hazır deyilmiş. İstiliyi verirlər bir də görürsən ki, kəsdilər! Nə baş verib? Məlum olub ki, istilik xəttində qəza yaranıb.Bir neçə gündə təmir işləri ilə məşğul olurlar. Və beləcə günü- günə satırlar. Elə bu sətirlərin müəllifi də mənzilinə istilik verilmədiyinə görə, çətinlik yaşayır. Mənzilimizdə bir otaqda istilik var, qalan otaqlar bumbuzdir.

Yəni istilik yoxdur. Bu barədə " Azəristiliktəchizat" ın Yeni Günəşli , " D" yaşayış massivindəki qazanxanan sahə rəisi Məhəmməd müəllimə iradlarımızı bildirəndə xeyir ki, 15 binanın istiliyi yoxdur, indi onu təmir edirik, başımız açılanda sizin də məsələnizə baxarıq! Ay hörmətli Məhəmməd müəllim, təmir işlərini payızda və qışda deyil, yayda aparmalısınız, indi isə evlərə istilik verməlisiniz, çox təəssüf ki, onu da vermirsiniz.Depabrın 2-si olsa belə , hələ də bəzi binalara və o cümlədən bizim mənzilin hamısına istilik verilmir. O deyir ki, bir səbr edin! Biz də artıq 17-i gündür ki, səbr edirik! Axı səbr etməyinən evlər qızmır! Yaxşı, biraz da gözləyərik!!!

## *Saralmış yarpaqlar...*



**Hər fəslin öz gözəlliyi, öz rəngi, öz nəfəsi var... Və həmişə yay olsa, həmişə qış olsa, onun da ləzzəti olmaz...**

Yaradan çox gözəl yaradıb bu dünyanı:yaz, yay, payı, qış... Amma bu payız əvvəlki illərə nisbətən çox mülayim,ılıq keçir.Bir az payıza, bir az da yaza oxşayır... Həmşə dekabrın ilk günlərində ağaclarda bir yarpaq belə qalmazdı. Lakin dekabrın biri olsa da, hələ çox ağacda yarpaqlar az saralıb. Elə bil ki, payız bizə deyir ki, siz bu il mənim sərt üzümü görməyəcəksiniz... Və hələ ki, görmürük. Hərçənd ki, dekabr ayı da qış ayı hesab edilir və bu ay soyuq keçir, hətta qar da yağır. Amma deyilənlərə görə, daha doğrusu, hidirometeroloqların verdiyi məlumata inansaq Bakıya qar Yeni ilin yanvarın 21-23 arasında yağacaq! Hər halda , payız qaş- qabağın yığmayıb və isti nəfəsi ilə bizi sevindirir...

## *Normadan artıq yük...*



**Bu gün bir çox yük maşınları normadan artıq yük aparır. Bu isə avtomobil yollarında müyyən problemlər yaratmaqla yanaşı, həm də qəza vəziyyəti yaradır.**

Təəssüflə qeyd etməliyik ki, yol polisinin apardığı maarifləndirmə işlərinə baxmayaraq, yenə bir çox sürücülərə yük maşınlarına normadan artıq yük yığdırırlar. Əlbəttə deməliyik ki, yol polisi davamlı olaraq bu sahədə profilaktik tədbirlər həyata keçirir, onlarla söhbətlər edilir və lazım gələndə qanununu pozan və normadan artıq yük daşıyan sürücülər inzibati məsuliyyətə cəlb olunurlar.

Bir neçə gün bundan əvvəl respublikanın avtomobil yollarında yük maşının aşması nəticəsində mişar daşları yola səpələnib.

Digər bir yük maşınından isə taxtalar yola aşıb. Xoşbəxtlikdən ölüm və xəsarətalma hadisəsi baş verməyib. Operativ olaraq Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları qabaqlayıcı tədbirlər görülüb və avtomobil yolunda yaranmıs mövcud problemlər qısa zaman kəsiyində aradan qaldırılıb. Və bir müddətdən sonra yolda nəqliyyat vasitələrinin hərəkəti tam bərpa edilib.

**Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı , polis baş leytenantı Elvin Hacıyev deyir ki, biz mütəmadi olaraq yük daşıyan sürücüləri maarifləndiritik ki, onlar normadan artıq yük daşımasınlar və sürət həddinə əməl etsinlər,bir sözlə, qanunu pozmasnlar. Amma əfsuslar olsun ki, aparılan təbliğat və izahat işlərinə baxmayaraq, yenə normadan artıq yük aparan sürücülərə rast gəlirik. Bir daha onlara müraciət edərək deyirik ki, respublikanın avtomobil yollarında yük daşıyarkən mövcud qanuna əməl etsinlər və normadan artıq yük daşımasınlar. Qanunun pozulması isə birmənalı olaraq avtomobil yolunda qəzaların baş verməsinə səbəb olur və digər nəqliyyat vasitələri üçün təhlükə yaradır!!!**

**EMİL FAİQOĞLU**



# "O, mənə zəng vurub dedi ki, Moskvada Azərbaycanda dövlət çevrilişi etmək üçün..."

*Milli Dirçəliş Partiyasının sədri Fərəc Quliyevin "Ramiz Mehdiyev işi" ilə bağlı Adalet.az-a müsahibəsini təqdim edirik:*

**- Fərəc müəllim, Ramiz Mehdiyev və Əli Kərimlinin gizli əlaqələrinin ortaya çıxması cəmiyyətdə birmənalı qarşılanmadı.**

- Bugünkü hadisə Əli Kərimli və yandaşlarının ilk "əl işi" deyil. 2013-cü ildə prezident seçkiləri ərəfəsində Əli Kərimli və yandaşları Milli Şurada toplaşaraq artıq açıq şəkildə dövlətə xəyanətə cəhd etdilər. Onların iradəsindən asılı olmayaraq bu çevriliş və Qarabağda ikinci erməni dövləti qurma baş tutmadı. 2013-cü ildə prezident seçkiləri ərəfəsində Milli Şurada ilk vaxtlar təmsil olunan və sonra bu qurumun missiyasının nədən ibarət olduğunu bilib oranı tərk edən Rauf Arifoğlunun müsahibəsindən bir hissəni nəzərə çatdırmaqla prosesə işıq salmaq olur:

"Milli şura , xarici ölkə paytaxtında qurulub, Azərbaycana ixrac olunan bir layihə idi. Prezident seçkisi vəsiləsi ilə çevriliş edib, hakimiyyəti ələ alıb, iki illik keçici və koalisyon bir hökumət qurulacaqdı. Daha sonra isə plana görə, Azərbaycanın keçmiş 1-ci vitse-premyeri Abbas Abbasov prezident seçdiriləcəkdi. Bununla da Azərbaycanda tam Rusiya yönümlü oyuncaq bir hakimiyyət qurulacaqdı. Onun vasitəsi ilə də Dağlıq Qarabağda ikinci erməni dövlətinin reallaşması nəzərdə tutulurdu. Əlbəttə, Milli Şura layihəsinin mahiyyətindəki bu planı hamımız kimi, Əli Kərimli və başqa liderlər də bilir və etiraf edirdilər".

**- Dövlət çevrilişinə cəhd etmək üçün bu adamların arxasında hansı qüvvələr dayanmışdı?**

- Mən bu haqda 20 oktyabrda "Müsavat TV"də canlı yayımda ilk dəfə bəzi məsələlərə toxunmuşam. - 2013-cü ildə Azərbaycanda ilk dəfə dövlət çevrilişinə cəhd haqda biz məlumatlı olduq və hakimiyyətin ən yüksək səlahiyyətlilərini məlumatlandırdıq. 2013-cü ildə partiyamızın Şamaxı təşkilatının səlahiyyətli nümayəndəsi Əmirxan bəy Moskvadan zəng edib bildirdi ki, Moskvada cərrahiyyə institunun akt zalında Volodinin rəhbərliyi ilə Azərbaycanda dövlət çevrilişi etmək üçün xüsusi hazırlıqlara həsr olunmuş toplantı keçirilib. Bakıda yerli xəyanatkarlardan ibarət Milli Şura və

Moskvada isə onları maliyyələşdirəcək Milyarderlər ittifaqı yaradılacaq. Mən Əmirxan müəllimin dərhal Bakıya gəlməsini və müvafiq strukturlara bildiyi və müşahidə etdiklərini rəsmi çatdırmasını xahiş etdim. O Bakıya gəldi və mən Baş prokurorun müavini Rüstəm Usubovla danışdıqdan sonra, Əmirxan müəllimdən bir neçə dəfə izahat alsalar da, bu iş yarımçıq qaldı və heç kim cəzalandırılmadı. Əmirxan müəllim ürək tutmasından dünyasını dəyişdi. Mən Milli Məclisdə bir neçə dəfə də bu dövlət çevrilişi cəhdinə biganəliyi tənqid etsəm də heç kimə "gözün üstə qaşın var" deyən tapılmadı. İndi aydın olur ki, hakimiyyətdə olan Rusiyanın "beşinci kolon"u bütün gücü ilə bu prosesə mane olub.



**- Bu fəaliyyətinizə görə, sizə təzyiqlər oldumu?**

- O zamankı MTN -nin (Millii Təhlükəsizlik Nazirliyi) durumu və rəhbərliyinin nə vəziyyətdə olması hamıya məlumdu. Sonralar Parlanent seçkilərində mənə qarşı qurulan oyunlar və Jirinovskinin "biz millətçilərin parlamentə düşməsinin qarşısını aldıq" ifadəsi də bizim Azərbaycanda mütəmadi qarışıqlıq salmağa çalışan Rusiya və onun həm hakimiyyət, həm müxalifətdəki 5-ci kolonuna qarşı barışmaz mübarizəmizin nəticəsi idi. Əli Kərimli Rusiyanın qarşısında duran, Rusiyanın planlarını pozan və onu qorxuzan xalq hərəkatına mütəmadi ağır zərbələr vurub. AXC-ni parçalayan əsas icraçılardan biri kimi onu dağıtmağa, bitirməyə nail oldu. Bu layihənin icraçıları yerli bölücülər, o cümlədən AXCP adı altında çıxış edən "Yurd" təşkilatı və hakimiyyətdəki "Rusiya uşaqları" olsa da, əmr və sifariş verən Rusiya idi. Azərbaycan xalqı yəqin ki, unutmayıb, 20 Yanvar qırğını zamanı Rusiya imperiya ordusunun baş cəlladı marşal Yazov deyirdi : "Biz Azərbaycana AXC strukturlarını dağıtmaq üçün gəlmişik". Rusiyanın ordusunun edə bilmədiyini bu şəbəkə etdi. Əli Kərimli gerçək milli demokratik müxalifəti "zərərsizləşdirib " meydanda özü tək qalmaq üçün ötən illərdə hakimiyyətdəki şəriklərinin, Rusiyanın hakimiyyətdəki 5-ci kolon nümayəndələrinin vasitəsi ilə AXC-dən nə qədər adamı şərlədi, satdı. Bir qismini ya təkrar əsgərliyə, ya həbsxanaya göndərtdi, ya da qorxudaraq mübarizədən uzaqlaşdırdı, yaxud 30 il küçələrdə razılaşdırılmış məğlubiyyətlərlə oyalayaraq bezdirdi, qocaldıb öldürdü.

**-İndi AXC -ni bölənlərin yanında, AXCP adı ilə çıxış edən "Yurd" təşkilatında AXC-ni təsis edən 63 nəfərdən bir nəfər belə yoxdu.**

- Mən bir dəfə 2010-cu ildə parlament seçkisində debatda bir məsələyə toxundum.Əli ilə o vaxt Suraxanı rayonunda rəqib idik. Ora dağılmış bir dairə idi. Bir seçki əvvəl ora dağılmışdı. İcra başçısı çıxarılmışdı. Bütün hamının da diqqəti orada idi. Mən o vaxt da orada dedim. Dedim ki, necə olur, biz eyni işi, eyni təşkilatda görürük mən türməyə, sən parlamentə gedirsən? O vaxtları qarışıq seçki sistemi idi. XC-dən proporsional seçki sisteminə siyahı verilirdi. Mən o vaxt, XC-də, faktiki olaraq Elçibəydən sonra, ikinci adam idim. Mən tutulmuşam.

Amma haqqımda məhkumluq yox idi. Məni o siyahıda, altıncı adam yazıblar. O vaxtları, mənim və Arif Paşayevin azad olunması üçün imza toplanırdı. Bu, Azərbaycanda analoqu olmayan bir hadisədir. Bir milyon imza toplanmışdır. Bu da bizim təşkilatın da özümüzün də nüfuzumuza bağlı olan məsələ idi. İndi bax, niyə bura altıncı adaa yazıblar? Çünki 4-5 adamın alverini ediblər, bunlar keçməlidir və bunlar da türməyə getməlidir. İndi Fazil Mustafa yazı vermişdi ki, məni əsgərliyə göndərdilər, düşdülər. Düz deyir adamı ikinci dəfə əsgərliyə göndərdilər. Aparıcı adamları həbsə, əsgərliyə, mühacirətə "göndərməklə" məşğul idilər. Yəni, meydan boş olsun deyə. Bir Əfqan misalı var deyir düz yerdə təpələr dağ görünər. Hakimiyyətlə alver eləmişdilər.

Biz azad, hüquqi, demokratik cəmiyyət qururuq. Bu cəmiyyətdə hökuməti tənqid etmək, aparılan siyasətlə razılaşmamaq və bunu açıq şəkildə ifadə etmək hər bir vətəndaşın haqqıdır. Lakin kənardan idarə olunan, gizli maliyyələşən, düşmən dairələrlə əməkdaşlıq edən, ölkəni xaosa sürükləmək üçün təxribatlar hazırlayan şəbəkələrə bəraət yoxdur və ola da bilməz. Hesab edirəm ki, xəyanət şəbəkəsinin kökündən qazılıb çıxarılması, cəmiyyətin gözü qarşısında, qanunun aliliyi çərçivəsində zərərsizləşdirilməsi dövlətçiliyimizin, milli birliyimizin tələbidir".

**Vasif**

# "İqtisadiyyat elə lobya kimidir, onu zorla dartıb uzatmaq olmur..."

**"Rayonda anam lobya əkərdi. Lobya torpaqdan boy atanda dayaq olmadan təkbaşına hündürlüyə qalxa bilmirdi. Buna görə də atam, ya da mən onun yanında insan biləyi qalınlığında, 3-4 metr uzunluğunda ağac basdırardıq. Lobya da həmin dayağa sarılıb böyüyərdi. Məqsəd bitkinin inkişafına dəstək vermək idi. Lakin onun böyüməsi üçün tutub zorla dartanda, o qırılırdı. Dayaq basdırmayanda isə yüksələ bilməyib inkişafı zəifləyir və torpaqda çürüyürdü".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. "Bəzən küləkdə hansısa dayaq yıxılanda onu yenidən bərkidirdik ki, bitki yolunu davam etdirə bilsin. Bəzən də kənarda olan ağacların budaqları lobyaların üstünə uzanıb ora kölgə salanda, onların böyüməsinə mane olurdu.



Buna görə də lobyaya mane olan budağı kəsirdik. Nəticədə bütün lobyalar öz dirəyi ilə inkişaf edirdi. Heç bir agaca imkan vermirdik ki, lobyaya kölgə salsın. Ən əsası lobyanı zorla yönləndirilməyə çalışmırdıq. Onları sərbəst buraxmışdıq.

Bütün lobyalar üçün yaradılmış bərabər imkanlar şəraitində onlar günəş uğrunda öz gücünə rəqabət aparır, daha sağlam böyüyür və payızda bizə bol məhsul verirdilər.

Metafora bir az qəribə görünsə də, amma iqtisadiyyat elə bu lobya kimidir. Onu zorla dartıb uzatmaq olmur. Buna cəhd edəndə o qırılır.

Hamısı üçün bərabər imkanlar yaradılmayanda birinin kölgəsi digərini günəşsiz qoyub məhv edir. Ya da onların üzərinə əyilən kənar ağacların budaqlarını vaxtında kəsməyəndə budaqlar onu böyüməyə qoymur.

Onlara nə qədər su və gübrə verilsə də heç nəyin faydası olmur", - deyə iqtisadçı bildirib.

**Sübhan**

Murad Köhnəqala



# Qeyri-müsəlman türklər: Çuvaşlar

**(I yazı)**

***Bu silsilə yazımda dünyanın hər tərəfinə yayılmış qeyri-müsəlman türklərdən söz açacam. Birinci yazımı pravoslav xristian olan Çuvaş xalqı haqda başlayıram. Çuvaşlar Orta Volqa bölgəsində, muxtar Çuvaş Respublikasında yaşayan, əhalisinin sayı təxminən 2 milyona çatan türkdilli xalqıdır. Çuvaşlar pravoslav xristianlığa aid olan iki türk xalqından biridir. Digər pravoslav xristian türklər isə qaqauzlardı.***

***Çuvaş xalqının qədim tarixi haqqında yetərincə məlumat yoxdur. Yazılı mənbələrdə çuvaşların tarixi barədə faktların azlığı onların mənşəyi ilə bağlı müxtəlif fikirlərin irəli sürülməsinə səbəb olmuşdu. Tarix boyu yurddan-yurda köç etmiş çuvaşlar öz tarixi haqda yazılı mənbələrin it-bata düşməsini yumorla qarşılayaraq belə bir məsəl yaratmışlar: "Ç?vaş k?nekine ?ne sine"- yəni, "Çuvaşın kitabını inək yedi".***

***"Çuvaş" etnoniminin mənşəyi və mənası ilə bağlı yekdil fikir yoxdur. Bir ehtimala görə, "çuvaş" suvar sözünün Şaz türkcəsindən çevrilmiş formasıdır. Digər ehtimala görə "çuvaş" türk dillərində işlənən "yavaş" sözündən törəyib "ləngərli" mənasını daşıyır. Türkoloq Gerard Klausona görə, "çuvaş" etnonimi "tabğaç" sözünün deformasiyaya uğramış forması da ola bilər. Orhun yazılarında adı keçən Tabğaç dövləti bir zamanlar Çinin şimalında, təxminən 386-cı ildə bərqərar olmuşdu.***



***Çuvaşlar haqqında məlum olan əsas tarixi fakt budur ki, onlar bir türk etnosu olaraq eramızdan əvvəl Orta Asiyadan Şərqi Avropaya köçən hunların, xəzərlərin, peçeneqlərin və bolqarların arasında yaşayıblar. Bu gün proto-bolqarların danışdıqları Oğur türkcəsində (Qərbi Hunca) danışan yeganə xalq olan çuvaşların mənşəyinin bugünkü İtil bölgəsində məskunlaşan Volqa bolqarlarından gəldiyi düşünülür. Eyni zamanda XIV əsrdən başlayaraq bölgədə məskunlaşmış bir çox türk tayfaları ilə yanaşı bəzi yerli fin-uqor xalqlarının da türkləşərək çuvaşların etnik kimliyində iştirak etdiyi güman edilir.***

***1237-ci ildə Volqa-Bulqar dövləti türk-monqol ordusu tərəfindən darmadağın edildi. Sonralar həmin ərazilərdə yaradılmış Qızıl Orda dövlətinin sərhədləri indiki Çuvaşiya ərazisini də əhatə edirdi. XIV əsrdə Qızıl Orda dövləti parçalanmağa başladı və XV əsrdə yaranan Qazan xanlığının tərkibinə indiki Çuvaşiya ərazisi də daxil olur. Daha sonra Qazan xanlığı 1552-ci ildə Moskva knyazı İvan Qroznı tərəfindən ələ keçirilir. Çuvaş adına rus mənbələrində ilk dəfə XV əsrin birinci rübündə rast gəlinir. Bu işğaldan sonra bütün torpaqlarını itirən və ruslara xərac verməyə məcbur olan çuvaş kəndliləri artıq əkinçilik məşğuliyyətinə ara verirlər. Əhalinin bir qismi iş və dolanacaq dalınca Türkiyəyə köçür.***

***1650-ci ildə Moskva ərazisi Çuvaşiya ilə birləşdirilir, XVII əsrin sonlarında isə Çuvaşiya torpaqları Simbirsk və Kazan quberniyaları arasında bölüşdürülür.***

***Qızıl Orda dövlətində yaşayan, əsasən müsəlman dinində olan çuvaşlar Rusiyaya birləşdirildikdən sonra tədricən xristianlığı qəbul edirlər. Tatarlardan fərqli olaraq, çuvaşların əksəriyyəti xaç suyuna salınaraq vəftiz olunurlar. Həmin dönəmlərdə ruslar yerli türk xalqları arasında xristianlığın təbliğində xüsusilə maraqlı idilər. Rus hökuməti "İncil"i çuvaş dilinə tərcümə etdirmişdi. Xristianlığı yerli xalqın arasında rahat yaymaq üçün missionerlərə çuvaş dilində səlist danışmaq lazım gəlirdi. Bunun üçün rus hökuməti çuvaş dilinin qrammatikası kitabını (1769-cu il) hazırlatdırdı. Bu zaman Kazan Universitetinin "Şərq dilləri fakültəsi" ümumən türk dilləri sahəsində tədqiqatların aparılmasında fəal rol oynayırdı. 1836-cı ildə Çuvaş dili ilə bağlı yeni bir kitab - V. P. Vişnevskinin hazırladığı "Çuvaş dili qrammatikası və lüğəti" nəşr olunur. 20-ci əsrin əvvəllərində Rusiyada baş verən sosialist inqilabı nəticəsində Çuvaşıstanda da çar hökumətinə qarşı üsyan başladı. 1917-ci ilin martında Şupaşkarda çarizmi yıxmaq və müstəqillik əldə etmək məqsədi ilə ilk silahlı dəstələr yaradıldı. 1918-ci ilin mayında milli azadlıq hərəkatı bütün Çuvaşıstana yayıldı. Lakin Rusiya imperiyasının əsarətində olan türk xalqları çar devrildikdən sonra da öz azadlıqlarına qovuşa bilmədilər. Bolşeviklər hər yerdə nəzarəti ələ keçirdilər. Çuvaşıstanın milli azadlıq mübarizəsi yenildi. 24 iyun 1920-ci ildə Sovet İttifaqının tərkibində Çuvaş Muxtar Vilayəti yaradıldı. 1925-ci ildə isə vilayətin adı dəyişdirilərək Çuvaş Muxtar Sovet Sosialist Respublikası (Çuvaş MSSR) adlandırıldı. 1990-cı ildə Sovet İttifaqının dağılmasından sonra Rusiya Federasiyasının tərkibində qalan ölkə Çuvaşıstan Respublikası adlandırıldı. Paytaxtı Şupaşkar (Çeboksarı) olan, əcdadlarını unutmayan Çuvaşıstanın ən iri rayonlarından birinin adı isə Şumerliyadır. Respublikanın rəsmi dili çuvaş və rus dilidir.***



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# "Unudulmaq qorxusu" hamımızda var

Xeyli vaxtdır ki, yazı masamın üzərində bir kitab var. Qalın və nəfis şəkildə çap olunmuş bir kitab. Kənardan baxanda elə bilirsən ki, yəqin çəkisi bir xeyli ağır olar. Amma əlinə götürəndə o qədər yüngül gəlir ki, onun səhifələrinin sayı ilə heç uyğunluq yaratmır. Bunu ona görə xüsusi önə çəkirəm ki, öncədən ağlıma gələn bir fikrin yanlış olduğunu sonradan o çəkisi yüngül olan kitab məni inandırdı. Başa düşdüm ki, bu kitabın içərisindəki duyğular, hisslər, fikirlər, hadisələr - bir sözlə, bir yazar dostumun yaradıcılığının bəhrəsi həqiqətən sanballı imiş. Özü də mənə müəyyən yaşamı, müəyyən zamanı xatırladan yenidən o illərə çəkib aparan bir güc var idi bu kitabda...

”Unudulmaq qorxusu” romanı təqribən bir ay bundan öncə işıq üzü görüb. Müəllifi tanınmış yazar, həm də mənim könül dostum Fazil Sənandır. Onun özəl həyatı mənə bəlli olduğundan hər kitabının, hər yeni əsərinin bir xatirəsinin bədii forması kimi qəbul edirəm. Nədənsə içimdə bir inam var ona. Özüm-özümdə birmənalı şəkildə qəbul etmişəm ki, Fazil Sənan həyatını, ömür yolunu, bu həyata baxışını sakit bir şəkildə heç hara, heç nə üçün tələsmədən hekayəyə, povestə romana çevirir.

Özü də burada ən maraqlı olanı odur ki, onun qələmində pafos yoxdur. Sadəcə bir elat şirinliyi var. Elə bilirsən ki, Mil düzünün bir guşəsində, bir söyüd ağacının altında, lap elə Xan qızı arxının üstündə üz-üzə, göz- gözə oturub söhbət edirsən. Yazıçı Fazil Sənan özünün soyundan, kökündən pedaqoji fəaliyyətindən, ilk qələm təcrübələrindən, övladlarından, dostlarından sənə danışır. Kənd-kəsəyindən söhbət açır. Söhbət o qədər şirin, o qədər rahatlıq verici olur ki, siqaret yandırmaq da, əlini soyuyan çayına uzatmaq da yadından çıxır. Axı danışan Fazil Sənandır. Dinləyən də mən.Romanın əsas mövzusu Qarışıq və Qarşılıqlı SEVGİDİR! Bütövlükdə sosial həyat, yəni məişətdi...

Deməli, biz ikimiz eyni anda həmin o yaşamın içində oluruq. Sağollaşıb ayrılanda yenidən qayıdırıq bu günə. Bu günə gələndə isə mən özümlə Fazil Sənanın qəhrəmanlarını da gətirirəm. Onun qələmə aldığı povestin, hekayənin romanın bütünlüyünü də elə son görüşümüzdə də hələ mətbəə qoxusu canından çıxmağa imkan tapmamış kitabını da mənə bağışlayanda mən bütün bu yazdıqlarımı onunla birlikdə, necə deyərlər, bölüşdüm, yaşadım. O, Gəncəyə getdi, mən isə onun ”Unudulmaq qorxusu” romanı ilə əl-ələ tutub Masazıra

İndi tam səmimiyyətlə, necə deyərlər, əlimi ürəyimin üstə qoyub demək istəyirəm ki, bu romanı tələsmədən, yorulanda, işdən, həyatdan, çevrəmdən incik düşəndə oxudum. Çünki o roman məni ötən əsrin 80-ci illərinə, yəni gəncliyimə aparırdı. Ona görə də birnəfəsə oxumaq istəmirdim. Hər 10-15 vərəqdən sonra kitabı qatlayıb, yazı masamın sağ küncünə - öz yerinə qoyurdum. Bilirdim, hətta buna əmin idim ki, Fazil Sənan məndən romanla bağlı fikir gözləyir. Mən də arada bir dəfə ona telefonla fikir bildirirmiş kimi bir ”həmlə” etdim:

Qağa, sən Sovet hökumətinə nə vermisən, ala bilmirsən? Sovet müəllimini niyə ”Don Juan” etmisən, niyə əxlaqını, məişətini qılınclamısan?

Fazil Sənan da gülərək özünəməxsus təmkinlə:

-Qağa, bildim. Oxuyursan romanı. Gözləyəcəm...




Böyük həvəslə, zövq ala-ala oxuduğum roman bütövlükdə Asim müəllimin sevgi macəralarıdır. Özü də həyata özəl baxışı olan savadlı, məqsədli, məramlı, halal çörək qazanıb-yeməyi hər şeydən üstün tutan bir müəllimdir. Elə dilində desək, kiminsə toyuğuna daş atmayan, kiminsə haqqına girməyən bir ziyalıdır. Hətta respublikanın ən mötəbər mətbu orqanında barəsində geniş məqalə yazılmış bir müəllimdir.

Pambıq yığımında şagirdləri ilə səhərdən-axşama çiyin-çiyinə işləyən, onlarla birlikdə çörək yeyən, su içən, digər müəllimlər kimi özünü söyüd kölgəsinə verməyən bir ziyalıdır. Ona görə də şagirdlərinin də sevgisini qazanan bir müəllimdir.

Asim müəllim təkcə çalışdığı məktəbdə deyil, yaşadığı kənddə və rayonda da nüfuz sahibidir. O, komsomol fəalı kimi qurultayda çıxış etmək haqqı da qazanıb. Qazandığı diqqət, sayğı onun ”Raykom”a partiya işinə aparılmasına, buradan isə Moskvada ali partiya məktəbinin tələbəsi olmasına yol açır. Təhsilini başa vurub Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində şöbə müdirinin müavini olur. Anası fəxrlə oğlunun boyunu sevir, bütün kənd, rayon onunla qürur duyur. Bütün bu yüksəlişlər onun əxlaqını dəyişmir. Sadəliyi, səmimiyyəti olduğu kimi qalır. Vəzifəsinə edilən hörmətə görə də burnunu dik tutmur. Çünki o, zəhmət hesabına, əliqabarlı bir ailədən həyat yoluna başlayıb.

Amma Asim müəllim bir gənc kimi, bir kişi kimi gözəlliyə, çevrəsindəki qadınlara laqeyd qalmırdı. O, ştrixləri, baxışları, nazqəmzəni, hətta səsdəki incə nüansları da tuta bilirdi. Telefonla danışanda kənd sovetinin sədri olan, adı hər yerdə hallanan Şəhla xanımın niyə, nə üçün zəng etdiyini dərhal anlayırdı. Onun bütün istəklərinə qucaq açır. Bilə-bilə ki, adı kənddə bədnam olan Şəhla ilə onun ailə qurmasına valideynləri izn verməyəcək. Əks halda özü də bu cür qadınlarla evlənən kişilərin siyahısına düşə bilər. Amma həvəs, maraq, özünün də dediyi kimi, solmayan çiçəyin ətrini qoxlamaqdan uzaq tuta bilmir. Dəfələrlə bu xanımın qonağı olur. Hətta İsa bulağına yayın istisindən qorunmaq bəhanəsi ilə gedirlər. Kirayədə qaldıqları evdə Şəhla onu nişanlısı kimi təqdim edir. Asim isə ürəyində ”darıxma, mənim kimin nişanlısı olduğumu görəcəksən”.

Asim Şəhla ilə münasibəti olduğu halda Şəhlanın məsləhətçisi, onun ən yaxın rəfiqəsi olan Könüllə də sevgi həyatı yaşayır. Lakin Könül daha tədbirli, daha ağıllı Asimin gələcəyini görən və sevən xanımdır. O, Asimlə rayon dairəsində yalnız rəsmi bir şəkildə davranır. İş otağının qapısını bağlayıb onun boynuna sarılanda da bildirir ki, səni necə sevdiyimi anama da demişəm, o da səni bəyənib. Özün bilirsən ki, mənimlə bağlı rayonda kimsə bir kəlmə də deməyib və deyə də bilməz. Adım, namusum hər şeydən üstündür.

Bəli, əslində bu etiraflar və romandakı bütün mənzərə özü ilə həmyaşıd olan Könülü dəlicəsinə sevdiyini bir daha göstərir. Çünki Asim Könülün adı gələndə, səsi gələndə ona doğru bir dəli sevgi ilə, bir coşqu ilə can atırdı. Yazıçı Fazil Sənan onların sevgisinin qarşılıqlı və halal olduğunu bədii ştrixlərlə oxucuya elə çatdırır ki, şübhəyə yer qalmır. Digər tərəfdən Könül bir Azərbaycan xanımı kimi müdrik qərar qəbul etməyə də qadirdir. O, yalnız iş yerini Bakıya dəyişəndən sonra Asimlə kəbin kəsdirir, özü də Məsciddə.

Vurğulayır ki, mən ona görə səninlə ”zaks” idarəsinə getmirəm ki, sən partiya işçisisən. Adın ”qara siyahı”ya düşməsin. Vəzifəni, hörmətini itirməyəsən. Sənin təmiz adın ailən üçün, qanuni nikahın üçün həmişə nümunə olmalıdır.

Asim ailəsinin istəyi ilə Ağdamın kəndində yaşayan və dayısıgillə qonşu olan, ali təhsilli Zərifə ilə nişanlanır. Onların toyu bütün bölgəyə səs salır. Hər kəs ”Raykom” katibi olan Asimin yetim bir qızla ailə qurmasından ağız dolusu danışır.

Bəli, Asim Könüllə və Zərifə ilə paralel ailə həyatı yaşayır. Fazil Sənan da bu paraleli o qədər diqqətlə oxucuya təqdim edir ki, şübhə yeri qalmır. İnanırsan ki, bu, reallıqdır və bu cür yaşam mümkündür. Romanın sonunda isə Zərifənin vəfatı imkan verir ki, Könüldən və Zərifədən doğulan övladlar bir-birilə qardaş-bacı olduqlarını öyrənsinlər. Onların bir-birini tanımasını zəruri edən fakt və hadisələr isə zamanın diqtəsi idi. Və onlar da bununla barışırlar.

Hətta Azadlıq meydanında başlayan hərəkatda da çiyin-çiyinə dayanırlar.

Qarabağ uğrunda savaşda da canlarından keçirlər. Bu, Könülün, Zərifənin və Asim müəllimin onlara verdiyi tərbiyənin onlara aşıladığı vətən sevgisinin bəhrəsidir, nəticəsidir.

Mən bu roman barəsində təəssüratımı kağıza köçürəndə yazıçının peşəkarlığını, sözlə, ədəbi qəhrəmanlarla işləmək məharətini və qəhrəmanları təqdim etmək bacarığını qəbul etdim. Razılaşdım. Yəni Fazil Sənan məndə bu məqamda şübhə yeri qoymadı. Lakin onun Sovet dönəminin müəyyən nüanslarını, xüsusilə, vəzifədə olan xanımlarla bağlı ifadə etdiyi fikirlər müəyyən etiraza, hətta razılaşmamaya ipucu verdi.

Çünki birlikdə yaşadığımız dövrün bütün mənzərəsi təkcə qara ləkələrdən ibarət deyil. Bunu müəllif özü də əsərində təqdim etdiyi ”Raykom”un əvvəlki 1-ci katibi və sonraki 1-ci katibinin obrazında göstərib. Biri rüşvətxor, qadın düşkünü, talançı, digəri isə rayon üçün can yandıran, layiqli kadrları irəli çəkən, hətta suyu da üfürə-üfürə içən əsl layiqli rəhbər olubdur. Deməli, yazıçı dostum Fazil Sənan hardasa, təbii ki, mənə görə biraz ədalətsizliyə yol verib. Həm də romanın müəyyən məqamlarında bədii düşüncədən uzaqlaşaraq gerçək publisist düşüncəyə meyillənib. Yəni romanın bir-iki yerində əsərdə oçerk ruhu özünü göstərir.

Mən bu maraqlı romanı, ilk oxucu təəssüratını bir cümlə ilə belə ifadə edə bilərəm:

Çəkisi və tutumu olan, oxucunu cəlb edən, dünənin yaşam havasını bu günə gətirən romandır. Oxuyan yorulmaz, əksinə, ləzzət alıb, düşünər və dincələr.

## İstanbul və Antalya dünyanın ilk 10-luğunda - ”Top 100 City Destinations Index 2025”



**Euromonitor International tərəfindən dərc edilən ”Top 100 City Destinations 2025” hesabatına əsasən, İstanbul və Antalya, dünyanın ən çox xarici turist cəlb edən ilk 10 şəhəri sırasında yer alıb.**

Adalet.az xəbər verir ki, hesabatda, Türkiyənin həm ziyarətçi sayına, həm də turizm cəlbediciliyinə görə qlobal liqada üst sıralarda mövqeyini qoruduğu bildirilir.

İstanbul, 19,7 milyon xarici turist ilə dünyanın 5-ci ən çox ziyarət edilən şəhəri, Antalya isə 18,6 milyon turist ilə 8-ci sırada qərarlaşıb. Beləliklə, Türkiyə dünyada iki şəhəri ilə ilk 10-luqda yer alaraq turizm sahəsindəki təsirini daha da gücləndirib.

Hesabatda, Banqkok 30,3 milyon turist ilə siyahıya başçılıq edərkən, ilk dördlükdə Honq Konq, London və Makao da yer alır. Ancaq Türkiyənin əldə etdiyi nəticələr, xüsusilə Avropa və Aralıq dənizi regionlarında turizm həcminin sürətlə artması ilə diqqət çəkir.

İstanbulun qastronomiyadan mədəniyyət və incəsənət tədbirlərinə, beynəlxalq təşkilatların fəaliyyətindən rəqəmsal tanıtım effektlərinə qədər geniş bir sahədəki dinamizmi, Antalyanın isə mövsüm boyu yüksək tələbat görən turizm infrastrukturu, idman turizmi və dünya səviyyəli obyektləri bu yüksəlişi dəstəkləyib.

Euromonitor International-ın yayımladığı indekse əsasən, Türkiyə, 2025-ci ildə turizm sahəsində ən sürətli böyüyən ölkələr arasında yer alacaq. İstanbul və Antalyanın ilk 10-luqda yer alması, Türkiyənin mədəniyyət, tədbir və destinasiya idarəetmə siyasətlərinin beynəlxalq miqyasda yüksək reaksiya aldığını göstərir.

2025-ci ilin nəticələri ilə Türkiyə yalnız turist sayını artırmaqla qalmayıb, həm də qlobal turizm rəqabətində sabit bir marka gücü yaratmağa müvəffəq olub. Bu, ölkənin turizm sahəsindəki nüfuzunun artması və dünya səviyyəsindəki mövqeyini möhkəmləndirməsi ilə nəticələnib.



**Ramiz Göyüş**
**Yazıçı-publisist**

# Bəxtiyar Vahabzadə yaradıcılığında Səməd Vurğun obrazı

**Xalq şairi Bəxtiyar Vahabzadənin zəngin yaradıcılığı, elmi və ictimai fəaliyyəti ilə tanış olduqca , onun zəngin ədəbi irsini varaqlıdıqca yazı-pozu adamı kimi istər- istəməz ürəyindən nəsə demək, nəsə yazmaq keçir. Heç şübhəsiz O, öz təkrarsız poeziyası və fəlsəfi dramaturgiyası ilə ədəbiyyat xəzinəmizə misilsiz töhfələr verən, fundamental ədəbi tədqiqatları ilə ədəbiyyatşünaslıq elmimizi zənginləşdirən, pedaqoji fəaliyyətilə gənc nəslin milli ruhda tərbiyyə olunmasında, milli mənəvi dəyərlərin onlara aşılanmasında və milli təfəkürün formalaşmasında müstəsna xidmətləri olan nadir söz adamı və görkəmli tədqiqatçı kimi ədəbiyyat tariximizə daxil olmuşdur.**

Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin keçirilməsi haqqında Prezident Sərəncamında deyildiyi kimi: "Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir".

Hələ sağlığında simvollaşmış B. Vahabzadə keçən əsrin 60-cı illərində, əsasən ədəbiyyatımızda özünü təzahür edən milli azadlıq ideyalarınının və hərəkatının əsas aparıcı şəxslərindən biri kimi, müxtəlif ədəbi üsullardan və obrazlardan ustalıqla istifadə edərək, "Sovet rejimində milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan millətin dərdlərini, irihəcmli poemaları və pyeslərində hadisələri ya tarixə, ya da başqa ölkələrə keçirərək öz millətinin dərdlərini dilə gətirmişdir". Nə qədər təkrar olsa də bu səpkili əsərləri sırasında onun bir vaxtlar qadağan edilmiş, lakin xüsusi ilə gənclər arasında əl-əl gəzən və əzbər oxunan, Azərbaycanımızı ikiyə bölən tarixi ədalətsizliyə həsr olunmuş "Gülüstan" poemasının adını xüsusi ilə qeyd etmək istərdim.

Fikrimcə, Xalq şairi Bəxtuiyar Vahabzadənin 100 illik yubileyi ilində və Səməd Vurğunun 120 illiyi ərəfəsində Bəxtiyar Vahabzadənin elmi-bədii yaradıcılığının ana xəttini təşkil edən Səməd Vurğun obrazı oxucular üçün maraqlı araşdırma mövzusu ola bilər.

Hər iki sənətkar həm yaradıcılıq, həm də şəxsiyyət baxımından öz dövrlərinin ən mükəmməl və nüfuzlu simaları olmuş və onların həyatının və yaradıcılığının əsas dövrü Sovet hakimiyyəti illərinə düşür. Bu baxımdan düşünürəm ki, mənim bu yazıda "Sovet" ifadəsindən istifadə etməyimi oxucular obyektiv qəbul edəcəklər. Qeyd etməyi zəruri hesab edirəm ki, Sovet dövründə yaradılmış ədəbiyyat nümunələri, ədəbiyyat xəzinəmizin ayrılmaz bir hissəsini təşkil edir. Azərbaycan ədəbiyyatının yaradıcı nəslinin nəhəngləri hesab etdiyimiz nümayəndələri nə qədər repressiya terroru, ideoloji təsir və basqı altında yaşamalarına və işləmələrinə baxmayaraq, onların yaratdığı əsərlər, ədəbiyyat xəzinəmizin bir çox inciləri həmin dövrdə yaranmışdır. İdeoloji quruluşun və insan münasibətlərinin bütünlüklə dəyişməsinə rəğmən onların böyük əksəriyyəti öz bədii və mənəvi dəyərini bu gün də qoruyub saxlaya bilmişdir.

XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Səməd Vurğun milli köklərinə, adət və ənənlərinə, möhkəm bağlı olan, öz xalqını, Vətənini, dilini ilahi bir məhəbbətlə sevən, fitri istedadı və güclü mütaliəsi sayəsində klassik Azərbaycan və şifahi xalq ədəbiyyatına, eləcə də SSRİ və dünya ədəbiyyatına dərindən bələd olan, yaşadığı dövrdə dünyada baş verən olayları, prosesləri, hadisələri yaxşı bilən, onladan baş çıxaran, öz əsərləri və fəaliyyəti ilə mənsub olduğu xalqın və dövlətin mənafeyi naminə hadisələrin gedişinə təsir etməyə çalışan, son dərəcə milli və milli olduğu qədər də beynəlmiləlçi olan misilisiz bir şəxsiyyət olmuşdur. O, təkcə Azərbaycan Sovet ədəbiyyatının deyil, bütünlüklə Sovet ədəbiyyatının görkəmli nümayəndələrindən biri olmuş, həyat və yaradıcılığı haqqında bu günədək minlərlə məqalə, xatirə, oçerk yazılmışdır. Təkcə böyük şairin 50 illik yubiley günlərində ünvanına dünyanın müxtəlif guşələrindən mindən çox təbrik məktubu daxil olmuşdur. Onun qartal vüsətli poeziyası, ayrı-ayrı əsərləri haqqında sovet ədəbiyyatının və ədəbiyyatşünaslığının Aleksandr Fadeyev, Nikolay Tixonov, Konstantin Simonov, Mehdi Hüseyn, Mirzə İbrahimov, Kamal Talıbzadə, Maksim Rılski, Georgi Leonidze, Semyon Trequb, Vladimir Oqnev, Aeksandr Deyev, Məsud Əlioğlu, Məmməd Arif, Mir Cəlal, Cəfər Cəfərov, Heydər Hüseynov, Məmməd Cəfər Cəfərov, Əziz Mirəhmədov, Yaşar Qarayev, Cəlal Abdullayev kimi görkəmli nümayəndələri yüksək qiymət vermişlər. Azərbaycanın Osman Sarıvəlli, Süleyman Rəhimov, Hüseyn Arif, Məmməd Araz kimi söz ustadları və digərlərinin baş qəhrəmanı Səməd Vurğun olan dəyərli və maraqlı bədii əsərlər yazmış, şairlərimiz Səməd Vurğuna həsr olunmuş minlərlə şeir nümunələri yaratmışlar. Şairin böyük qardaşı görkəmli maarifçi və ictimai-siyasi xadim Mehdixan Vəkilov, məşhur tədqiqatçı Şəmistan Nəzirli, şairin həyat və yaradıçılığının ayrı-ayrı məqamları haqqında maraqlı xatirələrdən ibarət kitablar nəşr etdirmişlər.

Maraqlı faktdır ki, Səməd Vurğun yaradıcılığına ilk monoqafik araşdırma həsr edən məhz Bəxtiyar Vahabzadə olmuşdur. O, hələ böyük şairin sağlığında, 1951-ci ildə, 26 yaşında olarkən "Səməd Vurğunun poeziyası" mövzusuna müraciət etmiş və 1954-cü ildə disertasiyanı müdafiə edərək, bu disertasiya əsasında "Səməd Vurğun" monoqrfiyasını nəşr etdirmişdir. Bu tədqiqat işi ilə Bəxtiyar müəllim ədəbiyyatşünaslıq elmimizi zənginləşdirərək, bu xəzinəyə yeni bir mövüz- Vurğunşünaslıq mövzusu gətirmişdir. Bəxtiyar Vahabzadədən sonra həmin mövzuya daha 19 nəfər müraciət etmiş, ümumilikdə bu mözuda 19 namizədlik, 3 doktorluq disertasiyası müdafiə edilmişdir. Sözsüz ki, Bəxtiyar Vahabzadə də digər ədəbi nəsildaşları kimi ( Nəbi Xəzri, İslam Səfərli, Əliağa Kürçaylı, Adil Babayev, Hüseyn Arif, Məmməd Araz, Nəriman Həsənzadə, Xəlil Rza Ulutürk və b.) özünü Səməd Vurğun məktəbinin nümayəndəsi hesab edirdi. Ustadın yaradıcılığına müraciətin bir səbəbi də Səməd Vurğun şəxsiyyətinə dərin sevgidən, heyranlıqdan və hörmətdən irəli gəlirdi. Səməd Vurğunun poeziyasının sehrinə düşən və onu oxuduqca, araşdırdıqca bu sehrdən, bu hikmətdən vəcdə gələn Bəxtiyar Vahabzadə yazırdı: "Mən bu ustad şairi hər dəfə oxuyanda elə bir tilsimə düşürəm ki, bu tilsimin nə adını, nə ünvanını, nə ilkini, nə də sonunu tapa bilirəm. Öz qaynağını xalq yaradıcılığı çeşməsindən götürmüş bu sənət xalqın dühası kimi zəngin və zənginliyi qədər də sadədir. Bizi çaşdıran da bu sehrli sadəlikdir. Bu sənət bizi sadəliyi, büllurluğu və bu sadəliyin içindəki müdrikliyi ilə sehrləyir. Əsl və böyük sənətin də sirri izaha çətin gələn bu sadəlikdə və bu sadəlik içindəki qeyri-adilikdədir".

Bəxtiyar müəllimin "Səməd Vurğun poeziyası" monoqrafiyasında Səməd Vurğunun təkcə poeziyası təhlil edilmir, həm də onun onun poemaları da, dramaturgiyası nəzərdən keçirilir. Güman etmək olardı ki, Bəxtiyar Vahabzadə elə Səməd Vurğun yaradıcılığı haqqında ədəbiyyatşünaslıq elmində bir cığır açmaqla kifayətələnəcək və estafeti özündən sonra gələnlərə ötürəcək. Ancaq belə olmadı. O, Səməd Vurğunun ömür və yaradıcılıq yolu haqqında tədqiqatlarını davam etdirərərk, dövrü mətbuatda məqalələrlə, xatirə-yazılarla, o cümlədən elmi məqalələrlə çıxış edir. Görünən odur ki, Bəxtiyar Vahabzadə nə tədqiq etdiyi Səməd Vurğun poeziyası ilə, nə də ondan sonrakı dövrlərdə yazdığı məqalələri ilə kifayətlənmir, doktorluq disertasiyasını da Səməd Vurğuna həsr edir. Xalq şairi Bəxtiyar Vahabzadə "Xalq şairi Səməd Vurğun " kitabında həm də öz yaradıcılıq məqamını ortaya qoyur: "Əlimə qələm aldığım gündən S.Vurğun yaradıcılığı həmişə məni düşündürmüş, onun əsəsrləri, əsərlərindən ayri-ayrı parçalar yaddaşımda, qəbimdə həmişə yaşamış, bu böyük irsə yaşımın müxtəlif çağlarında dönə-dönə qayıtmışam". Fikirlərini davam etdirərək Bəxtiyar Vahabzadə deyir: "Vəfatından 30 ilə yaxın bir müddət keçən, cismani həyatı ilə bizdən uzaqlaşan, uzaqlaşdıqca bizə mənan daha da yaxınlaşan şairin sənətindəki ecazı, bizə ildən-ilə daha da doğmlaşmasının sirri barədə həmişə düşünürəm. Bunun səbəbini tapmaq, sənətin sirrini və təsirindəki möcüzəni tapmaq deməkdir. Bir şair kimi yaradıcılığının 35 illik yolunu keçəndən, bu yolun ağrı-acılarını, əzab və sevinclərini dadandan sonra, sənətindən həmişə öyrəndiyim bu şairin ildən-ilə yeiləşməsinin sirrini ömrümün bu çağında bir daha dərk etmək,



xalqımız və çoxəsirli ədəbiyyatımız qarşısında bir növ hesabatımdır... Füzuli şeirindəki obrazlar silsiləsinin ecazına heyrət etdiyimiz qədər, Səməd şeirindəki sadəliiyə, səmimiyyətə, axıcılığa və ürəyəyatımlılığa məftun oluruq. "

Bu qədər səmimi və sadə. Qüdrətli söz ustadı Bəxtiyar Vahabzadənin Səməd Vurğun haqqında yazdığı monoqrafiyaları oxuduqca mütəfəkir və vətənpərvər şairin nəhəng obrazı bütün möhtəşəmliyi ilə gözlərin qarşısında canlanır. Əsərlə tanış olduqca Bəxtiyar Vahabzadəyə bir tədqiqatçı-şair kimi , həm də Səməd Vurğun şəxsiyyətinə obyektiv və yüksək dəyər verən bir ədəbiyyat fədaisi kimi böyük rəğbət və minnnətdarlıq hissləri yaranır. Bunula belə çox maraqlıdır ki, ömrünün və elmi fəaliyyətinin əhəmiyyətli bir hissəsini bu müqəddəs işə həsr etmiş müəllif mütəvaze bir şəkildə bu böyük tədqiqatı sadəcə bir təşəbbüs kimi dəyərləndirərək yazır: "Əlbətdə belə bir şairin mürəkkəb, çoxcəhətli yaradıcılığını, bu yaradıcılığın ən mühüm xüsusiyyətlərini təhlil etmək üçün...şairin özü kimi düşünmək, özü kimi duymaq, onun özü kimi dünya hadisələri ilə qaynayıb qarışmaq, xalqların taleyi ilə yaşamaq, onların dərdləri ilə alışmaq, yanmaq lazımdır. Bu mənada oxucularımıza təqdim etdiyimiz kitabla biz bu böyük işin öhdəsindən layiqincə gələ bilmək iddiasında deyilik. Biz bu əsəri şairin böyük irsinin küll halında öyrənmək işində bir təşəbbüs hesab edirik." Bəxtiyar müəllim Səməd Vurğunu tədqiq etdikcə, onun həyat və yaradıcılığını öyrəndikcə bu qeyri-adi şəxsiyyətə heyranlığını universitet auditriyalarında özünəməxsus ifadə tərzi ilə oxucuya təqdim edir: "...Böyük şairin yaradıcılığı xalqımızın keçmişini, bu gün və gələcəyini əks etdirən nəhəg güzgüyə bənzəyir. Bu güzgüdə xalqın sevinci də , kədəri də, xəyalı da, arzusu da, hissi də, düşüncəsi də , həyatı da, folkloru da müəyyən ölçüdə öz əksini tapmışdır...S,Vurğun yaradıcılığı küll halında dünyagörmüş, sinəsi xəzinə, ağsaçlı müdrik bir qocaya bənzəyir...Bu qoca Azərbaycan xalqının simvoludur, bəlkə də şairin qəhrəmanı Azər babanın özüdür. Azərbaycan xalqının "Avesta" dövründən bu günə qədərki tarixi-Nizami qüruru, Füzuli kədəri, Xaqani mubarizliyi, Nəsimi hikməti, Vaqif səmimiyyəti, Koroğlu qəhrəmanlığı, Sabir gülüşü bu böyük yaradıcılıqda öz əksini tapmışdır. Bu böyük yaradıcılığın epiqrafı şairin "Azərbaycan" şeiridir".

Bəxtiyar Vahabzadənin Səməd Vurğun haqqında yazdığı məqalələri və monoqrafiyaları Səməd Vurğunun şəxsiyyətini və yaradıcılığını, onun xalq və Vətən qarşısında xidmətlərini, Azərbaycan ədəbiyyatında və ictimai fikir tarixində və eləcədə ictimai-siyasi həyatında yerini müəyyənləşdirməyə və onu istər müasirlərinə, istərsə də gələcək nəsillərə təqdim etməkdən ibarət olmuşdur və əminliklə qeyd edirəm ki, müəllif öz məqsədinə yüksək səviyyədə nail olmuşdur. Və Bəxtiyar müəlliim qüdrətli bir sənətkar və tədqiqatçı ustalığı ilə Səməd Vurğunun fəlaiyyətinin elə incə məqamlarını və elə bir sadə, axıcı, ürəyəyatan və səmii dillə oxucaya təqdim edir ki, oxucu həm müəllifin, həm də Səməd Vurğunun möhtəşəmliyinə heyran qalmaya bilmir.O yazır: "Səməd Vurğun böyük sənətkar olmaqla yanaşı, böyük təbiətə malik alicənab bir insan idi. Xalq arasında mövcud olan saysız hesabsız xatirələr, topladığımız çoxlu yazılı məlumatlar şairə olan intıhasız xalq ehtiramını təsdiq edir". Dediklərinin təsdiqi üçün müəllif Səməd Vurğunla bağlı çox maraqlı, kökvrək və kövrək olduğu qədər də son dərəcə həssas məqamları özündə əks etdirən çoxsaylı nümunələr gətirir və mən, bu kitaba daxil edilən iki xatirəni nümunə gətirmək istəyirəm. Birinci xatirə vaxtilə "Sovetskoe İskustvo" qəzetinin və "Teatr" jurnalının baş redaktoru olmuş, müharibə illərində "Za rodinu" adlı cəbhə qəzetinin əməkdaşı olan İohan Altmanla şairin məktublaşmasından danışılır. İ. Altmanın məktubunda yazılmışdı: "Əziz dostum Səməd! Sənin hədiyyəni və məktubunu aldım...Çox sağ ol! Deyirəm ki, hədiyyə vaxtında çatmışdır. Həmin gün mənə "Qızıl Ulduz" ordeni vermişdilər. Təsəvvür edirsənmi, cəbhəçi komandir öz azərbaycanlı dostundan gözəl bir şeir kitabı, səmimi məktub və birdə iki il həsrətlə gözlədiyi, arzusunda olduğu konyak almışdır...Biz ilk badələrimizi qələbəmizin sağlığına, ikinci badəni sənin sağlığına, sənin istedadının sağlığına və Sovet Azərbaycanının sağlığına içdik".

Sözsüz ki, İstiqlal şairimiz, görkəmli ədəbiyyatşünas alim Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığı tarixində Vurğunşünaslıq elmimizin banisi, onun ilk və nüfuzlu kimi qalacaqdır. Bununla belə, Səməd Vurğunun şəxsiyyəti və yaradıcılığı o qədər zəngin, o qədər intəhasız, sirli və sehrlidir ki, düşünürəm, zaman keçəcək, yeni tədqiqatçılar nəsli bu mövzuya dönə-dönə müraciət edəcək, bu böyük şəxsiyyətin və şairin fəaliyyətində yeni rənglər, yeni çalarlar və yeni mənalar tapacaqdır. Və hər dəfə də qiymətli bir mənbə kimi hökmən Bəxtiyar Vahabzadənin "Vurğunnamə"sinə müraciət edəcəklər.

Xalq şairi Bəxtiyar Vahabzadə yaradıcılığı boyu Səməd Vurğunu təkcə tədqiq etməmiş, həm də zaman-zaman onu bədii yaradıcılığında tərənnüm etmişdir. Onun, ustadına həsr etdiyi ilk şeir 1956-cı il may ayının 28-də yazılmışdır və "Ayrılıq" adlanır. Cəmi dörd bənddən ibarət olan şeirin birinci üç bəndi məzmun etibarı ilə şairin vəfatə ilə əlaqədar müəllifin yaşadığı böyük kədəri ifadə etsə də , şeirin son bəndi nikbin sonluqla bitir və müəllif, ustadın yalnız cismani ayrılığını ifadə edərək, uzaqgörənliklə onun sənətinin və xatirələrinin min-min əsrlər yaşayacağını əminliklə vurğulayır:

***Şirin nəğməkarı elin, obanın,***
***Obadan ayrılır, eldən ayrılır.***
***Tərlan asimandan, qartal qayadan,***
***Aşığın mizrabı teldən ayrılır.***

Şairin oxuculara təqdim olunan ikncі şeiri isə Səməd Vurğunun 70 illiyi münasibətilə qələmə alınmışdır və "Unutmaz səni" adlanır. Müəllifin ustada həsr etdiyi birinci şeirindən 20 il keçməsinə baxmayaraq, şeiri oxuduqca belə bir təəssürat yaranır ki, sanki bu şeir də həmin şeirin davamıdır və ümumilikdə xalq şairi Bəxtiyar Vahabzadənin Səməd Vurğuna həsr etdiyi disertsiyalar, monoqrafiyalar, məqalələr, xatirələr və şeirlər dahi şairin şəxsiyyətinə və yaradıcılığına bitib, tükənməyən məhəbbətindən yaranmışdır.

***Şerinə can verdi el məhəbbəti,***
***Sən eli, obanı duydun dərindən.***
***Bizim şeirimizin böyük şöhrəti,***
***Yaranmış yuxusuz gecələrindən.***

## *Anar: "Əsrlər boyu dilimizin mühafizəsində Şah İsmayılın rolu böyük olub"*

**Prezidentimiz orta və ali təhsilini rus dilində almasına baxmayaraq, Azərbaycan dilində yüksək səviyyədə danışır.**

Adalet.az xəbər verir ki, bu sözləri "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: Mövcud vəziyyət və perpsektivlər" mövzusunda konfransda Azərbaycan Yazıçılar Birliyinin sədri, yazıçı Anar çıxışı zamanı deyib.

Onun sözlərinə görə, dili qorumaq rolunda yazıçıların təsiri çoxdur:

"Əsrlər boyu dilimizin mühafizəsində Şah İsmayılın əhəmiyyəti böyük olub. 19-cu əsrdə Mirzə Fətəli Axundzadə 6 komediyasını ana dilimizdə yazıb, 20-ci əsrdə Cəlil Məmmədquluzadə "Anamın kitabı"nı yazmaqla xalqımızın öz dilində oxumasına dəstək olub".

Yazıçı diqqətə çatdırıb ki, sovet dövründə Səməd Vurğun və Mirzə İbrahimov Azərbaycan dilinin təşviqi üçün çalışıblar.

## *"Bu ədəbiyyatdan bixəbərlər mədəniyyətsiz və nankordurlar..."*

**""Kitab mükafatı" adı, məncə, uğurlu deyil. Əgər bu, dövlət qurumunun təşkilatçılığı və maliyyəsi ilə başa gəlirsə, nəyə görə keçmişdə uzun müddət ali ədəbi təltif kimi mövcud olmuş "Azərbaycan Respublikasının Dövlət Mükafatı" adını daşımasın? Pul dövlət büdcəsindən çıxmırmı? Qələm əhlinə qarşı belə qısqanclığı başa düşmək olmur".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Səfər Alışarlı deyib.

Onun sözlərinə görə, halbuki, bu dövlətin azadlığı və müstəqilliyi uğrunda mübarizənin ən qanlı yerində bütün dövrlərdə məhz qələm adamları - yazıçılar və şairlər duraraq can qurban veriblər:

"İkinci, nəyə görə Mədəniyyət nazirinin müavini "gənc yazarlarla" görüşdə ədəbi mühitimiz üçün vacib olan bu məsələni gündəmə gətirib qərarlaşdırır? Məncə, o vəzifələrə göydən düşmüş çinovniklərin Azərbaycan istiqlalı uğrunda uzun illər boyu həm ideoloji, həm fiziki, həm də mənəvi mübarizə aparmış yaşlı nəsil yazıçı və şairlərlə görüşməyə, yumşaq desək, nəfəsi çatmaz. Ona görə gedib "gənc" axtarırlar. Mən rəhbəri olduğum QHT adından Mədəniyyət Nazirliyinə iki il dalbadal ədəbi layihə təqdim etmişəm. Layihəni maliyyələşdirməməkləri bir yana dursun, bunlar - bu harın, konyunkturçu və ədəbiyyatdan bixəbərlər, öz qərarları haqda layihə müəlliflərinə xəbər verməmək qədərində mədəniyyətsiz və nankordurlar. Ona görə bu qurumun təşkilatçılığı ilə keçirilən müsabiqələrdə həqiqi ədəbi dəyərlərin axtarılıb tapılacağına və mükafatlandırılacağına şübhə edirəm".

**Vasif ƏLİHÜSEYN**



Zəka Vilayətoğlu,
yazıçı, şair,
Prezident mükafatçısı

## GƏDƏBƏY RAYONUNUN ADININ "QIZILTORPAQ" OLARAQ DƏYİŞDİRİLMƏSİ TƏKLİFİ

**Son illərdə Azərbaycanın bir sıra bölgələrində toponimlərin yenilənməsi, tarixi və mədəni dəyərlərə daha uyğun adların seçilməsi ilə bağlı müzakirələr kontekstindən çıxış edərək, bir vətəndaş və Gədəbəyə ürəkdən, candan bağlı, həm də bu gözəl diyarın bir övladı olaraq TƏKLİF EDİRƏM Kİ, Gədəbəy adı "Qızıltorpaq" ilə əvəz edilsin. Təklif etdiyim bu İSTƏK həm tarixi köklərə, həm də bölgənin iqtisadi və simvolik mahiyyətinə əsaslanır.**

**Tarixən Gədəbəy Azərbaycanın ən qədim mədənçilik mərkəzlərindən biri kimi tanınmışdır. Buradakı mis və qızıl yataqları hələ XIX əsrdə dünya sənayesinin diqqətini cəlb etmiş, Nobel qardaşları və Siemens kimi şirkətlərin bölgədə fəaliyyət göstərməsi tarixə düşmüşdür. "Qızıltorpaq" adı məhz bu tarixi mirası yada salır və bölgənin köklü sənaye ənənəsini məntiqli şəkildə simvolizə edir. Rayon ərazisi təbii sərvətlərlə zəngindir. Qızıl, mis yataqları həm tarixi, həm də müasir dövrdə Gədəbəyi iqtisadi cəhətdən strateji bölgəyə çevirib.**

**"Qızıltorpaq" adının seçilməsi rayonun iqtisadi potensialını daha aydın ifadə edə, brend dəyərini yüksəldə bilər. "Qızıltorpaq" ifadəsi təkcə mədənçiliyi xatırlatmır. Bu ad həm də torpağın dəyərini, müqəddəsliyini və bərəkətini vurğulayan poetik məna daşıyır. Azərbaycan ədəbiyyatında "qızıl torpaq" obrazı tez-tez vətən anlayışı ilə yanaşı işlədilir. Bu baxımdan bu yeni ad həm milli-mədəni simvolika ilə uyğundur, həm də bölgənin obrazını gücləndirir. Son illərdə ölkədə turizmin inkişafı fonunda bölgələrin adları onların tanıdılmasında mühüm rol oynayır. Dünyada bir çox regionun uğurla tanınması məhz adın yaddaqalan olmasından başlayır.**

**Zənnimcə "Qızıltorpaq" adı turistlər üçün həm ekzotik, həm maraq doğurucu, həm də cəlbedici səslənər və bölgənin təqdimatını gücləndirə bilər. Niyə məhz "Qızıltorpaq"?**

**1. Tarixi mədənçilik ənənəsini əks etdirir**
**2. Rayon qızıl-mis yataqları ilə tanınır**
**3. Poetik və milli çalarda səmimi bir ifadədir**
**4. Bölgənin tanıtım dəyərini yüksəldə bilər**
**5. Yaddaqalan və özünəməxsus bir addır**

**Düşünürəm ki, Gədəbəy rayonunun adının "Qızıltorpaq" olaraq dəyişdirilməsi ideyası sadəcə toponim dəyişikliyi deyil, həm tarixi, həm iqtisadi, həm də mədəni əsaslara söykənən konseptual bir yanaşmadır.**

## *Rza Rzayev: "Elə şərtlərlə fəaliyyət göstərəcəklər ki..."*



**Rejissor, aktyor Rza Rzayev kinostudiyanın fəaliyyətə başlamasını sənət adamları üçün avantaj hesab edib.**

Adalet.az bildirir ki, o, kinostudiya ancaq yeni şərtlər altında fəaliyyət göstərsə, uğurlu filmlər çəkmək mümkün olduğunu qeyd edib:

"Kinostudiyanın fəaliyyətə başlaması sənət insanları üçün bir avanta ola bilər. Ancaq ora yeni baxışların gəlməsi mühim amildir. Orda da yeni gələn müdiriyyət keçmiş qaydalarla çalışacaqsa, öz qohum-əqrəbasını, tanışını ora yığacaqsa, özü üçün bir qayda yaradacaqsa, burda heç bir dəyişiklik olmayacaq.

Ancaq biz ümid edə bilmirik ki, bu dediklərimiz olmayacaq. Çünki təcrübə var. Bunlar yenə həmin siyasəti yerinə yetirəcəklər. Həmin fəaliyyətlə məşğul olacaqlar. Orda da yenə istedadlı adamların üzə çıxmasında imkanlar tanınmayacaq. Elə şərtlərlə fəaliyyət göstərəcəklər ki, Azərbaycanda əsl kino ilə yaşayan sənətlə yaşayan insanlar öz yerlərini tuta bilməyəcəklər".

Əntiqə

# "BİR GECƏLİK YUXU"NUN MÜƏLLİFİNƏ

## Yaradıcılıq uğurları diləyi ilə

**Hər dəfə bilgisayara yaxınlaşanda öz-özümə düşünürəm ki, barəsində yazacağım kitab, mətn, ümumiyyətlə, istənilən bədii nümunə və eləcə də onun müəllifinin özü və sözü Azərbaycan oxucusuna tanışdırmı? Oxucu bu imzanı izləyirmi? Əgər əksəriyyətin tanıdığı, hətta gündəm olan müəllifdirsə, onda içində nisbətən rahatlıq olur. Amma oxucu dünyasına bütünlüklə bəlli olmayan, yalnız sırf ədəbiyyat adamlarının tanıdığı imza barəsində, tam dəqiqliyi ilə desəm, bu imzanın özü və sözü barəsində fikirlərimi kağıza köçürmək istəyirəmsə, onda ikiqat məsuliyyətli oluram.**

Çünki ədəbiyyat məkanında tanınan imzanı təqdim etmək o qədər də asan deyil. Elə son günlər imzası ilə tez-tez qarşılaşdığım, müəllif avtoqrafı ilə oxuduğum kitabın sahibinin poeziya dünyasına daxil olanda özümü doğma dərdin, doğma həsrətin, doğma ağrı-acının və bir də ruhun yanında gördüm. Hiss etdim ki, bu söz dünyası öz rəngarəngliyi ilə yanaşı, həm də öz qapalılığı ilə mənə çox doğmadır. Axı, dərdi dərd çəkənlər daha yaxşı duyur, daha yaxşı anlayırlar. Mən də ağrı-acının içindən çıxdığımdan bu notlar həmişə könlümün kövrək simləri, nöqtələri olub. Hətta şeirlərimin birində vurğulamışdım ki:

*Külək də incidir məni, meh də,*
*Yağış da incidir məni, şeh də.*

Bax bu mənada "Bir gecəlik yuxu" kitabı mənim əlimdən tutub həmin o ağrılı nöqtələrin düz qapısına qədər apardı. Başımı qaldıranda gördüm ki, həzin bir pıçıltı mənə sanki "xoş gəldin" - deyir. Əslində isə bu, dərdin pıçıltısı idi:

***Dərd peşəm, dərd işim olub,***
***Əyləncəm, vərdişim olub.***
***Çəkdikcə şipşirin olub,***
***Nə gözəl yar imiş bu dərd.***

Bəli, bu dərd doğrudan da çəkildikcə şirinləşir, kök atdıqca dağa dönür. Həm məcazi mənada, həm də təbiət fonunda. Bu pıçıltının bir cizgisi də xüsusilə önəmlidir. Onun önəmli olması da dərdin tək sənə aid olmasıdır. Onu sən özün bacardığın kimi, gücün çatan şəkildə çəkirsən, yaşayırsan. Və bu doğmalıq hətta sənə ilham verir. Elə bir ilham ki, sən hamının eşidəcəyi bir şəkildə bəyan edirsən:

***Qəlbimə süzülən meydə gəzirəm,***
***Kamanda arayır, neydə gəzirəm.***
***İllərdi mən səni göydə gəzirəm,***
***Nə olardı, gəzərdin yerdə sən məni.***

Poetik etiraf təkcə sevdiyinə, həsrətini çəkdiyinə deyil, bütövlükdə sənin həm də öz ürəyinə müraciətindir, öz duyğularına üz tutmağındır. Axı, səni axtarmağa məcbur edən ürəkdir, duyğulardır, hisslərdir, xəyallardır. Onlar isə bəzən şıltaq uşaqlar kimi sözə baxmırlar, əksinə, adamı, biraz da adi şəkildə ifadə etsəm, "cinləndirirlər", özündən çıxarırlar. Daha çox sevməyə, daha çox axtarmağa, daha çox yuxusuz qalmağa və bir də daha çox dərdi sinənə sıxmağa səni vadar edir. Məhz belə məqamda da birmənalı olaraq özün öz içində, özün öz ürəyində söhbətləşir və ürəyinin gözlərinin içinə deyirsən ki:

***Səndən sonra sən bilmədin,***
***Nə qədər söhbətin varmış...***

***İnsanların ürəyində,***
***Sönməyən ülfətin varmış.***
***...........................................***
***Nə gözəl həsrətin varmış.***

Bu yerdə intizarda qalan oxucuya təmtəraqsız, sadə bir şəkildə xatırlatma edirəm. Deyirəm ki, əslində isə yazıram ki, bu şeirlərin müəllifi Arzu Nehrəmlidir. Sadə, səmimi, kiminsə haqqında gözü olmayan, amma deməyə kifayət qədər sözü olan Arzu Nehrəmli. Onu da xatırladım ki, Arzu xanımın "Bir gecəlik yuxu" kitabının redaktoru Azərbaycanın çox böyük söz adamlarından biri, hamımızın "axı, sən ordasan, sən sıxılarsan" misralarının müəllifi yazıçı Seyran Səxavətdir.

Kitabdakı bütün şeirlər əslində bir obraza ünvanlanıb. Həmin obraz vətəndir. O vətən sevdiyindi, şəhidindi, dostundu və bir də sığındığın Allahındı. Bax, bu bütövlüyün içərisində öz ədəbi yaşamını misralara köçürən Arzu Nehrəmli oxucusunu sözünün, fikrinin işığına çəkə bilir. Və oxucu da şairlə razılaşır. Çünki şairin təqdim etdiyi duyğular oxucunun da ürəyindəndir:

***Hərdən bu taleyin üstünə əl çək,***
***Nə olsun həsrətin açmadı çiçək...***
***Ruhunun başına pərvanələrtək,***
***Hər gecə dolanan qadın var hələ.***

Və yaxud,

***Gecə-gündüz deyinən mən,***
***Ayrılığı geyinən mən...***
***Hamı kimi deyiləm mən,***
***Vurasız başımdan məni.***

Təqdim etdiyim bu iki nümunənin hər biri haqqında ayrı-ayrılıqda fikir bildirmək, şərh vermək mümkündür. Sadəcə mən o hüququ oxucuma verirəm. Özü düşünsün və özü də qərarını versin.

Çünki mən hələ də Arzu Nehrəmlinin poeziya dünyasında fərqli gülləri, çiçəkləri gözdən keçirirəm. Müəllifin çox sadə, amma fikir yüklü misraları həmin çiçəklərin özüdür. Və mən də oxşadığım o çiçəklərin hənirini duyuram:






Arzu Kazımqızı Nehrəmli tarix üzrə fəlsəfə doktoru, 2000-ci ildən Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Prezident təqaüdçüsüdür. "Əbədi sevgi" adlı ilk şeirlər kitabı 1997-ci ildə nəşr edilib. A.Nehrəmlinin sonra nəşr edilmiş "Tənha Qu nəğməsi" (2001-ci il), "Unutmağı öyrənirəm" (2017-ci il) kitablarında şeirləri, "Vətən sevdalı qəhrəman" (2024-cü il) kitabında Milli Qəhrəman Mübariz İbrahimova həsr etdiyi lirik poeması oxuculara təqdim olunub. A.Nehrəmli "Yaddaşımda yaşatdıqlarım" adlı publisisik məqalələr kitabının (2024-cü il), eləcə də bir monoqrafiyanın (2008-ci il), onlarla elmi və publisistik məqalənin müəllifidir. Yüzə yaxın şeirinə musiqi bəstələnib. Mahnılarından ibarət dörd musiqi albomu işıq üzü görüb.

***Gözümü zilləmişəm yanmayan çıraq üstə,***
***Arzu sənsiz günləri qoyubdu varaq üstə.***
***Düşüb üzüqoyulu yatdığın torpaq üstə,***
***Sən gələn günə qədər yatmağı düşünürəm.***

Arzu Nehrəmlinin "Bir gecəlik yuxu" kitabı barəsində könlümün istəyi ilə isti-isti bilgisayara diqtə etdiyim fikirlərimi elə onun misraları ilə yekunlaşdırmaq istəyirəm.

Çünki müəllifin özü yaşadığı dərddən, çəkdiyi həsrətdən, qarşılaşdığı haqsızlıq və biganəlikdən həm incikdi, həm də gileylidi. Baxmayaraq ki, o dərdi də, həsrəti də sevinc qədər uca tutur, dəyərləndirir. Arzu Nehrəmli yazır ki:

***Taleyə nə verdin, üzünə gülə,***
***Yüz fikir bir borcu ödəyə bilə,***
***Arzu getməyib ki, qayıda, gələ,***
***Niyə dizlərini qucaqlamısan.***

**Zənnimcə, mənim bir oxucu kimi etdiyim bu qeydlər həm də onu, özünü və sözünü oxuculara daha yaxından tanıtmaq üçün edilən növbəti bir təşəbbüsdür. Uğurlar, Arzu Nehrəmli!**

**Əbülfət MƏDƏTOĞLU**

## Damarları tıxananlar bu qidalardan imtina etsin!

**Aterosklerozun müalicəsi pəhrizə ciddi yanaşma tələb edir. Ateroskleroz diaqnozu qoyulmuş xəstələr doymuş yağlar, trans yağlar, şəkər və duzla zəngin qidaları pəhrizlərindən çıxarmalıdırlar. Kardioloq İrina Polyayeva gündəlik ən azı 30 dəqiqəlik kardio məşqləri etməyi, siqaretdən tamamilə imtina etməyi və spirtli içki qəbulunu azaltmağı tövsiyə edib. Ürək-damar hadisələri riski yüksək olduqda, statinlər təyin olunur.**

Pəhriz tərəvəz, meyvə, tam taxıl, yağsız protein mənbələri, eləcə də omeqa-3 yağ turşuları ilə zəngin qoz-fındıq və toxumlarla zənginləşdirilməlidir.



## “Bu oyunlardan uzaq durmaq üçün uşaq özünü güvənli hiss etməlidir...”

**”Son zamanlar ”Mavi Balina” və buna bənzər təhlükəli oyunlarla bağlı narahatlıqlar artıb. Bu cür oyunlar yalnız bir əyləncə kimi görünmür; uşağın psixologiyasını manipulyasiya edən, onu emosional zəiflik nöqtələrindən tutaraq təhlükəli davranışlara yönləndirən ciddi risklər yaradır. Təəssüf ki, bəzən bu oyunların sonu özünəqəsd cəhdləri ilə nəticələnir və bu, heç bir ailənin yaşamaq istəmədiyi bir ağrıdır”.**

Bunu Adalet.az-a psixoloq Zeynəb Əyyubova deyib.

Psixoloqun sözlərinə görə, uşaqları bu cür təhlükələrdən qorumaq təkcə telefonu qadağan etməklə mümkün deyil:

”Əslində, təhlükəsizliyin əsası ailə ilə uşaq arasındakı münasibətdə qurulur. Uşaq evdə eşidildiyini, başa düşüldüyünü, dəyərli hiss olunduğunu yaşayırsa, internetdə onu manipulyasiya edən heç bir şəxs, heç bir oyun ona təsir edə bilmir. Telefon və sosial media istifadəsinə nəzarət isə təbii ki, olmalıdır. Amma gizli şəkildə, uşağın xəbəri olmadan aparılan nəzarət adətən əks effekt verir. Uşaq özünü izlənmiş hiss edir, güvən pozulur və o, daha gizli davranmağa başlayır. Bunun əvəzinə qaydalar açıq, anlaşılır şəkildə qoyulmalıdır. Uşaq bilməlidir ki, qoyulan məhdudiyyətlər cəza üçün deyil, onu təhlükədən qorumaq üçündür”.

Z.Əyyubova uşaqların bu oyunlara maraq göstərməsinin səbəbini də açıqlayıb:

”Çox vaxt səbəb onların psixoloji ehtiyaclarında gizlidir. Özünü tənha hiss edən, ailəsi ilə emosional əlaqə qurmaqda çətinlik yaşayan, məktəb stressi yaşayan və ya özünü ifadə etməyə imkan tapmayan uşaqlar bu cür manipulyativ qrupların hədəfinə daha tez düşür. Buna görə də, valideyn ilk növbədə uşağın emosional vəziyyətinə diqqət etməli, onunla gündəlik ünsiyyətdə olmalı, onu yalnız dinləyən deyil, anlayan tərəf olmalıdır. Uşağın davranışında kəskin dəyişikliklər - qapanma, əsəbilik, yuxu problemləri, gizli telefon istifadəsi, izaholunmaz qorxu və ya qaranlıq mövzulara maraq - hər biri diqqət tələb edən siqnallardır. Bu dəyişikliklər təsadüfi deyil və valideyn vaxtında hiss etdikdə problem böyümədən qarşısı alına bilir. Bütün bunlarla yanaşı, uşağın həyatını mənalı fəaliyyətlərlə zənginləşdirmək çox böyük təsir göstərir. Sosial mühit, idman, incəsənət, xobbilər, ailə ilə zaman keçirmək - bunlar uşağın özünə dəyər hissini möhkəmləndirir və onu təhlükəli onlayn məzmunlardan avtomatik uzaqlaşdırır. Bu gün uşaqları qorumağın ən güclü yolu nəzarət deyil, emosional yaxınlıqdır. Uşaq valideynin yanında özünü güvəndə hiss edirsə, heç bir oyun, heç bir virtual çağırış onun düşüncəsinə hakim ola bilməz”.

**Sübhan**

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# Arif Buzovnalının əziz xatirəsinə

**Arif Rauf oğlu Buzovnalı 1972-ci ildə Bakının Buzovna qəsəbəsində ziyalı ailəsində dünyaya cəlib. Orta məktəbi bitirəndən sonra hərbi xidmətə yollanıb. 1993-cü ildə Azərbaycan Pedoqoji institutuna daxil olsa da, təhsilinə başlamadan könüllü olaraq qarabağ cəbhəsinə gedib, döyüşlərdə iştirak edib.**

Arif Buzovnalı ədəbi fəaliyyətə erkən yaşlarında başlayıb, 1991-ci ildç ilk şeiri ”Azərbaycan gəncləri” qəzetində dərc olunub. Bundan sonra mütəmadi olaraq dövri mətbuatda bədii əsərləri və müxtəlif mövzulu məqalələri ilə çıxış edib.. O, Bakıda və Abşeronda fəaliyyət göstərən müxtəlif ədəbi məclislərin üzvü olub. 2003-cü ildə Təbrizdə keçirilən ”Şeiri-tənz” Beynəlxalq şeir müsabiqəsinin qalibi elan edilib. Azərbaycan, Türkiyə, İran, Ukrayna və Rusiyada keçirilmiş bir çox elmi və ədəbi konfranslarda Azərbaycanı təmisil edib. 2011-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2022-ci ildən AYB ”Füzuli” komissiyasının sədri idi. Onun şeir və məqaləlıərdən ibarət 9 kitabı işıq üzü görüb.

Arif Buzovnalı 2025-ci ildə -noyabr ayında 53 yaşında vəfat edib.

*Qəzəldir səfabəxşi-əhli nəzər,*
*Qəzəldir güli-bustani-hünər.*
*Qəzəl bildirir şairin qüdrətin,*
*Qəzəl artırar nazimin şöhrətin*
*Qəzəl de ki, məşhuri-dövran ola,*
*Oxumaq da, yazmaq da asan ola*

Neçə əsrdir ki, biz Azərbaycan şeirinin Qəzəl deyilən bir gözəli, bir əfsunçusu var ki, onun tilsimindən, sehrindən qurtula bilmirik və qurtulmaq istəmirik. Qəzəl sözünün lüğəti mənası ərəbcədir, ”eşqbazlıq”, ”müaşiqə” mənalarına uyğun gəlir. Orta əsrlərin ədəbiyyat nəzəriyyəsinə dair kitablar içərisində ilk dəfə qəzəlin tərifinə 9-10-cu yüzillikdə yaşayıb-yaratmış Qüdamə ibn - Cəfərin ”Nəqd-əş-şeir” əsərində təsadüf edirik. Onun yazdığına görə qəzəl məhəbbət deməkdir və qadınlara olan çılğın sevgi haqqında hekayətdir. Amma sonralar qəzəl öz məna dairəsini genişləndirmiş, təkcə məhəbbət haqqında deyil, dünya-cəmiyyət-zaman-dövran- həyat barədə fikirləri də öz tematikasına daxil etmiş və ustad şairlərin qələmində fəlsəfi məzmun daşımışdır.

Qəzəlin missiyası nədir? Öncə biz dahi Füzulinin qəzəl haqqında məşhur misralarını misal gətirdik. Buna heç bir əlavə, qüvvətləndirici fikir artırmaq mümkün deyil.

Qəzəl bu gün də könüllər oxşayır, xanəndələrin dilindən düşmür. Amma onu yazmaq, bu sahədə hünər göstərmək hər şairin işi deyil. Qəzəl deyəndə Nəsimi, Füzuli, Xətai, Seyid Əzim Şirvani, Əliağa Vahid, Südeyman Rüstəm, Mir Mehdi Seyidzadə yada düşür və bu gün də o ustadlarıün yolu ilə gedən şairlər az deyil. Elə Bakı-Abşeron ədəbi mühitində Hacı Mail, Hacı Əlfəmdar, Seyidağa, Bakir, Şahid, Gülarə Munis, Mahcamal, İlqar Fəhmi kimi istedadlı qəzəlxanlar yetişib.

Bu sırada Hacı Arif Buzovnalını xüsusi qeyd etmək lazımdır. Onun ”Ömrün ötən anları” (1999), ”Mərifətdən həqiqətə” (2005), ”Səhərimə nə qalıb ki” (2007), ”Xəzərim” (2009), ”Sarı güllər” (2010) , ”Seçilmiş əsərləri” (2014), ”Qəzəllər” (2023),”Vadi” (2023) kitablarında toplanan şeirlərin əksəriyyəti qəzəllərdir. Qətiyyətdə deyə bilərik ki, Arif Buzovnalının qəzəlləri bu şeir formasının yeni inkişaf mərhələsində özünəməxsusluğu ilə seçilir. Nədir bu özünəməxsusluq? Gəlin, onun bir qəzəlinə müraciət edək:

*Hər dəştə düşən aşiqə şeyda demək olmaz,*
*Hər naz eləyən dilbərə Leyla demək olmaz.*

*Hər cövrə dözən kimsə rəvamı ola Yusif,*
*Hər zülm eləyən yarə Züleyxa demək olmaz.*

*Hər eşqə düşən Şirini Leylaya deyil tay,*
*Hər bir sevənə Vamiqü Əzra demək olmaz.*

Göründüyü kimi Arif Buzovnalı qəzəlin klassik tematikasından kənara çıxır və XX-XXI əsrlərin aşiq və məşuqlarını tamam başqa bir baxış bucağından qiymətləndirir. Burada o, qəzəl ustadı Ə.Vahidə yaxınlaşır.

Vahid deyirdi ki: ”Sevirəm mən o nəzakətli gözəl dilbəri ki, Musiqi elmini, rəssamı, qəzəlxanı sevir”. Artıq klassik qəzəllərdə tərənnüm edilən aşiqlərin-məşuqların dövrü keçib, indi Məcnun, Yusif, Vamiq, Leyli müasir dövrün insanlarıdır. Hacı Arif bu fikrini başqa bir qəzəlində belə ifadə edir:

*Ey dil, mənə çox halı pərişan kimi baxma*
*Bir qətrə gözüm yaşına ümman kimi baxma.*

*Ey dil, ola dərdin gedib anlatma təbibə*
*Hər ”can” deyənə Həzrəti-Loğman kimi baxma.*

*Söz xətrinə söz yazmaram, Arif,*
*Baxsan da mənə, sadə qəzəlxan kimi baxma.*

Arif Buzovnalının qəzəllərində eşq və aşiqlik məfhumları mənaca zənginliyilə seçilir. Onun təsvir etdiyi Aşiq öncə qeyd etdiyimiz kimi, real həyatla bağlıdır. Deyir ki:

*Ey fəna aşiq, mənim eşq içrə halım özgədir,*
*Tutma Məcnuna bərabər ki, misalım özgədir.*

*Məskənim səhra deyil, divanəlikdə yox işim,*
*Sakinəm viranədə, cahü cəlalım özgədir.*



Arif Buzovnalının qəzəlləri təkcə məzmununa görə deyil, həm də dili və ifadə vasitələri ilə də yenilikləri ilə seçilir. Keçən əsrin sonlarından başlayaraq qəzəl yazan şairlərimiz mümkün qədər ərəğ-fars sözlərindən ifadə vasitələrindən imtina etməyə can atdılar.Onların qəzəllərində sırf Azərbaycan sözləri üstünlük təşkil edirdi və sanki sübut etməyə çalışırdılar ki. ”düşvarı asan eyləmək” müasir ədəbi dilimizin incəliklərinə yaxşı bələd olan hər bir şair üçün heç də çətin deyil. Bu fikri biz Şahin Fazilin, Ziyafət Yəhyanın, Gülarə Munisin, İlqar Fəhminin, Səxavət Talıblının, Yasin Xəlilin, Mahcamalın, Xatirə Xatunun, Ağamir Cavadın və əlbəttə, Arif Buzovnalının qəzəlləri haqqında söyləyə bilərik. Lakin bu sırada İlqar Fəhmi və Arif Buzovnalı xüsusilə fərqlənmişlər, çünki ərəb və fars sözlərini Azərbaycan sözlərilə əvəz etməklə iş bitmir, əsas məsələ qəzəldə obrazlı fikir söyləmək, Füzuli ruhunu ehya eləməkdir.

*Könlündə vüsal nəğməsi vardırsa, sevirmən,*
*Sevda dolu qəlbin vardırsa, sevirsən.*

*Yox qorxusu yaş ötsə, xəzan tutsa vücudun,*
*Ruhunda bahar müjdəsi vardırsa, sevirsən.*

*Eşq içrə təlatümlə coşan qəlbinə hər dəm,*
*Sevdalıların qibtəsi vardırsa, sevirsən.*

*Cəhd eylə məramındakı könlün deyən olsun,*
*Nitqində vəfa kəlməsi vardırsa, sevirsən.*

*Həsrətlə baxan gözlərinin səcdə zamanı,*
*Yarın qaşı tək qibləsi vardırsa, sevirsən.*

*Eşq içrə sevinc umma səadət günəşindən,*
*Üstündə qəmin kölgəsi vardırsa, sevirsən.*

*Arif, əsil aşiqdə , deyirlər, ağıl olmaz,*
*Səndə dəlilik rütbəsi vardırsa, sevirsən.*

Əsl sevginin məramını ifadə edən (”Sən niyə sevirsən?) bu qəzəldə bir sıra ərəb və fars sözləri olmasına baxmayaraq kəmiyyət etibarilə azərbaycanlaşmış ərəb və fars sözləri və dilimizin öz sözləri və tərkibləri ilə rastlaşırıq.Klassik qəzəllərdə ”bahar müjdəsi”, ”dəlilik rütbəsi”, ”səadət günəşi”, ”həsrətlə baxan gözlər”, ”qəmin kölgəsi” kimi təyini söz birləşmələrinə heç rast gəlməmişik, bunlar Arif Buzovnalının qəzəllərində işlənib.

Əlbəttə, qəızəli yalnız ehqdən, məhəbbətdən söz açan şeir nümunəsi kimi məhdudlaşdırmaq olmaz. Real həyatdakı, aləmdəki təzadlar, dəyişmələr, insan dünyasında baş verən ziddiyyətli hadisələr, iman və din məısələləri bbütün bunlar Arifin yalnız eşq tematikasına qapılmadığını göstərir. Deyir ki: ”İnsanda artmış iştəha, dünya malı candan baha, Məcnun və Leyla yox daha, səhra həmin səhra deyil. Nəfys ilə göz ğolmuş taraz, dürr axtaran çozh. Dürr az, dəırinləri olmuş dayaz, dərya həmin dərya deyil”. Deməli, dünydan eşq dolu zərrələr əksilmiş, həyatın, gözəlliyin məna və mahiyyətinə xələllər gəlsişdir. Və deyəndə ki: ”Gənc yaşımda dərdgir oldum, cavanlıq gxörmədim. Qan deyib meydanda gərdiş eyləyən çox Kimsədə pəhlivanlıq gördüm, amma qəhrəmanlıq görmədim”. Bunlar, bu şikayətlər sızılştı təsiri bağışlasa da, qəlbin zəmanəyə, dövranın gərdişinə etirazlardır. Yenə bu dünyada eşqə tapınmaq, könlün diləklərini e6şqdə aramaq Arifin həyat yanğısını reallaşdırır. mTəkrar edirik, Arifin təsvir etdiyi Aşiq XXI əsrdə yaşayır. XXI əsrdə yaşayan Aşiq bütün ikökləri ilə öz vətəninə bağlıdır. Qeyd etdik ki, Arif Buzovnalı Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. İnstituta daxil olsa da, elə birinci kursdan cəbhəyə yollanıb.

*Dərdlərdən, bəlalardan bizə mirasdı Vətən*
*Qoyma yurdunda sənin at çapa həfr yoldan ötən.*

*Yazacaq torpağa qanilə gedən hər qurban,*
*Yaşa Azərbayxan, çox yaşa, Azərbaycan!*

Arif Buzovnalının qəzəllərində onun özünəməxsus şeir mədəniyyəti, bədii təsvir vasitələri, rədif və qafiyə ustalığı ilə rastlaşırsan. Deyək ki, öyrənmək, hansı şairdənsə təsirlənmək olar, amma burada yenə öz şairlik məharətini göstərməlisən. Arifi Vahid ədəbi məktəbinin bir istedadlı nümayəndəsi hesab edirik,o da öz böyük ustadı kimi qəzəldə öz hünərini gbstərmək istəmişdir. Onun qəzəllərində Vahidin müraciət etdiyi rədiflərə də təsadüf edirik. Amma baxır o rədifi yeni məna ilə süsləmək bacarıüğına. Arifin əksər qəzəlləri ən çox özünün müraciət etdiyi təzə rədiflərdir.

*Sinəfmdəki al lalədmi yar dərdi məqnimçün,*
*Eşqin çəmənindən onu yar dərdi mənimçün.*

*Zövqümdü mənim yar qəmi, dərdimdi desəm də,*
*Xaliq onu zövq adına göndərdi mənimçün.*

*Nə bəhr gərəkdi mənə, nə çöllü biyaban,*
*Yarın saçı həm müşk, həm ənbərddi mənimçün.*

*Hicran günü can telləri kökləndi qəfm üstə,*
*Ondan bəri eşq aləmi əzbərdi mənimçün.*

Bu qəzəldə ”mənimçün” rədifi təzədir, başqa bir şairin qəzəlində təsadüf olunmayıb. Həm də qəzəlin özü bədii təsvir vasitələrinin orijinallığı ilə diqqəti çəkir.

Arif Buzovnalının bir qisim qəzəlləri var ki, Tanrı eşqinə yazılıb. Allaha xitablar klassik ənənələrlə bağlı olsa da, müasir dövrdə yeni mənalar kəsb edir ”Məhəmməd )s) mövludu münasibətilə”, ”Həzrət əli mövludu münasibətilə”, ”İbrəftnvamfə”, ”Kərbəla” və s. şeirlər buna misal ola bilər.

Hacı Arif Buzovnalının yaradıcılığı bir sıra alimlərin, onun qələm yoldaşlarının nəzərindən uzaq düşməmişdir. Bunu ğiz Arif Buzovnalının 50 illiyi münasibətilə çap edilmiş ”Arif” toplusunda izləyə bilərik Akademik Vasim Məmmədəliyevin, klassik ədəbiyyatın tədqiqvtçısı Firudin Qurbansoyun, şair-qəzəlxan Hacı Soltan Əlizadəqnin, Yazıçılar Birliyinin kkatibi Səlim Babullaoğlunun, mərhum ədəbiyyatşünas Bəxtiyar Məmmədzadənin və ən yaxın dostu, şair-dramkaturq İlqar Fəhminin yazılarında görürük. (Bakı, ”Ecoprint” nəşriyyatı, 2022). İlqar Fəhmi yazır k i: ”Arif Buzovnalının bütün yaradıcılığı əruz poeziyasına həsr olunub Ona görə də onun həyatı qəzələ bənzəyir, hər beytinin sonunda bir rədif var, o rədif də poeziyadı, əruzdur”. Arif Buzovnalı həm də tədqiqatçı idi, onun əruza, klassik poeziyaya həsr etdiyi sıra məqalələri var, bu məqalələr Arifi sufizmə, ürfan elminə, Füzuli, Nəsimi, Xətai, Vahid poeziyasına dərindən bələd olan bir araşdırıcı kimi bizə tanıdır.

**Hacı Arif Buzovnalı 53 il yaşadı. Ədəbiyyat üçün nə gərəkdi biliyini, sevgisini əsirgəmədi. Vaxt tapmadı yazmaq istəfdiklərini yaza bilsin, amma yazdıqları da bir şair-araşdırıcı ömrünü bu fani dünyada ölümsüzlüyə çevirdi.**



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

**İlyas müəllim oğlunun həbs olunmasını çox ağrılı qəbul etdi. Bu dağ vüqarlı, qranit qürurlu insan çox çalışsa da, oğlunu məhbəs həyatından qurtara bilmirdi. Rusiyada geniş imkanları olan bir nəfərə ağız açmaq lazım idi. İlyas müəllim qüruru ilə övladının arasında seçim qarşısında qalmışdı. Sonda O, qürurunu seçdi və oğlunu azad edə biləcək şəxsə ağız açmadı. Etimad atasının hərəkətini anlayışla qarşıladı.**

2011-ci ildə məhbəs həyatı sona yetən kimi Bakıya qayıdan Etimad on iki illik məhəbbət hicranına son qoyaraq, tanınmış telejurnalist Sevil Nuriyeva ilə ailə həyatı qurub, İstanbul şəhərində yaşamağa başladı. Uca Tanrı 2014-cü ildə onlara İlyas adında oğlan övladı qismət etdi.

Etimad Türkiyədə olanda da atasının siyasi fəaliyyətinə nüfuz edir, barəsində yazılanları diqqətlə izləyirdi. Yadımdadır, 2018-ci ildə "Qvqat.com" saytında İlyas müəllim haqqında qələmə aldığım "Ədaləti həyat kredosuna çevirən insan" başlıqlı yazım dərc olunan gün gecəyarısı mənə İstanbuldan telefon gəldi - Etimad İsmayılov idi. Xeyli söhbət etdik. Yazıya görə minnətdarlığını bildirdi. Görüşmək ümidi ilə sağollaşdıq. Lakin görüşmək qismət olmadı...

Etimad qardaş Türkiyənin də ictimai-siyasi həyatında imkanı daxilində yaxından iştirak edirdi.

15 İyul dövlət çevrilişinə cəhd zamanı çoxları qaçıb gizləndiyi bir vaxtda Etimad xanımı və məsləkdaşı Sevil Nuriyeva ilə birlikdə ən qaynar nöqtələrdə oldu. Evdən çıxmamışdan əvvəl iki rikət namaz qılmağı, Allaha dua etməyi də unutmamışdı bu fədakar cütlük. Etimad Sevil xanımı əvvəlcə telestudiyaya, oradan da Ərdoğanı qarşılamaq üçün hava limanına apardı. Onların bu fədakarlığı izsiz qalmadı. Sevil xanım mediya nümayəndəsi kimi Ərdoğanı Fransaya səfəri zamanı müşahidə edənlər arasında idi. Təsadüfi deyil ki, Etimad dəfn olunan günü Türkiyənin Birinci xanımı Əminə Ərdoğan telefon açaraq Sevil xanım və Etimadın anası Zəkiyyə xanıma başsağlığı vermişdi.

Etimadın və Sevil xanımın qardaş ölkədə müxtəlif təbəqələrdən çoxsaylı dostları var idi. Onlar da Etimadın vaxtsız ölümünə kədərlənmişdilər.

Azərbaycan Respublikasının Xalq artisti Azərin xanım Etimadın ölümü münasibətilə öz kədərini belə ifadə etdi: "Çox sadiq bir vətəndaş idi Etimad. Mən Etimadı bir neçə illər bundan əvvəl çox yaxın rəfiqəm Sevilin həyat yoldaşı olaraq tanıdım. Etimad sadəcə öz sahəsində - hüquq, ya da siyasət sahəsində düşünmür, Etimad hərtərəfli düşünür və bunun içində təbii ki, Azərbaycanın bugünkü sənətinin vəziyyəti də var idi. Həqiqətən də çox sadiq bir vətəndaş idi Etimad. Biz bu gün işimizlə, peşəmizlə məşğul ola bilərik, qazancımız da ola bilər, amma bununla yanaşı, Vətəni-mizi və onun 20 faiz işğal altında olan torpaqlarını, qaçqınını, köçkününü də unutmamalıyıq ki, Etimad belə insanlardan biri idi.

Düşünürəm ki, inşallah, əbədi dünyada Etimadın yeri çox gözəldir, çünki Etimad həm də çox xeyirsevər insan idi. Darda olan, çətin vəziyyətdə yaşayan insanlara əl uzadırdı. İnşallah ki, Allahın sevdiyi qullarından biridir və inşallah ki, Allah ona Cənnətində bir məkan ayırar. Mənə çox çətindir, amma düşünürəm ki, onun oğlu İlyas gələcəkdə onunla fəxr edəcək. Atası ona çox yaxşı bir ad qoyub getdi. Bu da bir oğul, eyni zamanda bir ata üçün çox vacib və önəmli bir məsələdir.

Allah rəhmət eləsin!"

Etimad İsmayılovun dostu və silahdaşı Mustafa Cankat Aytek "Onu heç vaxt unutmayacağıq"- deyərək, Etimad yoxluğunun ağrısından danışdı: "Allaha və bütün müqəddəslərimizə and olsun ki, Onu əsla və əsla unutmayacağıq!

Mən mərhum mücahid Etimad İsmayılovun mənəvi qardaşı, iki dünyada da Dostu, silahdaşıyam.

O acı xəbəri aldığım gün, 19 sentyabr 2018-ci il, əsrlərdir heç cür ibrət almadığımız, tarixin ən qara və acı günü olan Kərbəla faciəsinin ildönümü və mənim doğum günüm idi.

O gün yuxudan oyananda, ömrüm boyu bir daha əsla unuda bilməyəcəyim bu tarixin, acı bir gün olaraq məndə çox dərin bir yara qoyacağını haradan və necə bilə bilərdim ki?

O gün rəhmətliyin sonuncu dəfə səsini eşitdiyim gün idi.

Allaha və bütün müqəddəslərimizə and olsun ki; Onu əsla və əsla unutmayacağıq.

Ədalətli və əsil bir atanın qiymətli övladı olan Etimad özünə yaraşan bir həyat anlayışına sahib idi, gözü halaldan başqa heç bir şeyi görməyən, qəlbi Allah eşqi və ümmət sevgisiylə dolu, Türkiyə və Azərbaycan üçün gözünü qırpmadan can verməyə hazır, malını, canını və bütün varlığını Güclü Türk Milləti, Turan Ülküsü və bir-birinə dayaqlanmış, birləşmiş, qucaqlaşmış, çiyin-çiyinə verərək texnologiya və elmdə bütün dünyanın önünə keçmiş bir ümmət anlayışı və bu məqsəd üçün həsr et-




miş Allahın Aslanı Türk millətinin bağrından qopan abidə kimi bir əsgərdi mərhum Etimad".

Etimad İsmayılovun Türkiyədə yaşayan dostu, azərbaycanlı musiqiçi Cavid Abidov ona məktub yazaraq təsəlli tapmağa çalışdı:

"Nə yaxşı ki, həyatımda varsan!

Salam, Etimad. Son zamanlar ürəyim yaman sıxılır. Vaqif Mustafazadəyə qulaq asıram. Kim bilir, bəlkə də bu gün yaşasaydı, mən heç onu dinləməzdim. Bəzi insanlar öz ilahi bacarıqları sayəsində bu dünyadakı missiyalarını tez bitirib arzuladıqları zirvəyə tez yola düşürlər. Biz isə təəssüflə itirdiyimizin həyəcanını yaşayırıq. Yeganə təsəllimiz qəlbimizdə, yaddaşlarımızda qalır. Səninlə tanış olanda mən sənə musiqiçi olduğumu deməmişdim. Çünki hiss elədim ki, sən ətrafında özün kimi işini mükəmməl bilən və dərin düşünən insanlara dəyər verirsən. Mən isə özümü bu normalarda görmədiyim üçün sənə sevdiyim işi söyləmədim. Amma sonradan təsadüfən mənim TRT-də Azərini royalda müşayiət etdiyim zaman izləmisən. Onda mənə zəng edib təəccüblə və bir az da fəxrlə çox yaxşı musiqiçi olduğumu dedin. Bunu səndən eşitmək mənim üçün böyük stimul idi. Çox sağ ol, qardaş. Nə yaxşı ki, həyatımda varsan. İstədim səninlə bir az düşüncələrimi paylaşım. Cavab verməsən də olar. İnşallah, qismət olarsa görüşərik...

Polis Akademiyasının müəllimi, "Yeni Şəfəq" qəzetinin iqtisadiyyat yazarı, Prezident yanında İqtisadiyyat üzrə müşavirlər qrupunun üzvü Levent Yılmaz belə yazdı: "Mən Etimad abimə baxarkən tərtəmiz bir müsəlman gördüm. Rəhmətlik Etimad abimin deyimi ilə qardaşıyam. Bəzi şeylər çətin anladılar, çətin ifadə edilər, onları yaşamaq lazımdır. Bəzi yaşananlar da onu anladan üçün dinləyənə daha çətindir. Belə bir çətinlik içində bu yazını yazıram. Çox qısa müddət tanıdım Etimad abini, kaş ki, daha əvvəldən tanısaydım. O qısa müddət ərzində belə, ondan o qədər çox şey öyrəndim ki

Dünyaya necə baxılacağını, dünyanın necə analiz edilə biləcəyini, necə düzgün və dürüst insan olunacağını, bu ölkə, bu millət, bu ümmət, bu dövlət üçün necə faydalı olunacağını, bunun üçün nələr edilməli olduğunu canlı bir nümunə olaraq rəhmətlik Etimad abimdən gördüm.

Mən Etimad abimə baxarkən tərtəmiz bir müsəlman gördüm. Namazında-niyazında, haramı-halalı bilən, haqqı, Qurani-Kərimi bilən və ona görə yaşayan tərtəmiz bir insan gördüm.

Amma bu dünyadan köçüb getməsi, onun arxasınca qoyduğu düşüncələri, fikirləri, dünyagörüşünü də alıb götürmədi. Onlar burada qaldı. Mən əminəm ki, onun dünyagörüşü, onun inancı, duyğuları, imanı nəticəsində ortaya qoyduğu vizyonu, xəyalları bir gün həyata keçəcək, həqiqət olacaq. Bəzi şeylərdən bəhs etmək istəmirəm. Onun xəyalları bir gün gerçək olacaq. Biz görə bilməsək də, bizə əmanət qoyub getdiyi İlyas görəcək, buna əminəm.

Mən ondan razı oldum, Allah da ondan razı olsun! Məkanı cənnət olsun!"

İHH - insan hüquqları və azadlıqları dərnəyinin başqanı Bülent İldırım. "Mavi Mərmərə" gəmisini Qəzzaya aparan adam. Bu təşkilat Misirin keçmiş prezidenti Məhəmməd Mursinin müdafiəsini təşkil etmişdi. Etimad İsmayılov İHH-nın başlatdığı "Mursiyə azadlıq!" kampaniyasına keçmiş SSRİ məkanından könüllü qoşulan yeganə vəkil idi.

"Mən onu ədalətli, vəfalı, sevgi dolu, mərhəmətli, lazım gələndə dəliqanlı gördüm. Etimaddan necə bəhs edə bilərəm deyə düşündüm. Əvvəla onu deyim ki, çox inanılmış adam idi. Verdiyi sözün üstündə duran, insanlara hörmət edən, cəsur, hər zaman müsəlmanların problemləri haqqında düşünən, hansı məzhəbdən olur-olsun zalımın qarşısında dayanan bir insan idi. Məzhəb ayırımı etməzdi. Sünni, şiə, ya da sələfi, sufi təriqətlərinə də fikir verməzdi.

Kimin yardıma ehtiyacı varsa, hansı müsəlmanın başı bəlada isə, kim haqsızlığa məruz qalmışsa, onun yanında idi. Çünki o bilirdi ki, Allah zalımların qarşısında dayanmağı, məzlumların yanında olmağı əmr edir. Hansısa futbol komandasına azarkeşlik edər kimi haqlı-haqsız fərqi qoymadan öz məzhəbini, öz dinini dəstəkləməyi əmr etmir Allah. Mən onu ədalətli, vəfalı, sevgi dolu, mərhəmətli, lazım gələndə dəliqanlı gördüm. Böyük itkidir. Hamımızı kədərə boğdu. Həqiqətən də ümmət üçün böyük layihələri olan və ümmətin qurtuluşu üçün düşünən, bunun üçün yaşayan bir adam idi. Allah önu sevənlərə, həyat yoldaşına, yaxınlarına səbir versin!

Allah rəhmət eləsin!"

Azərbaycanlı jurnalist, köşə yazarı Şahvələd Çobanoğlu kədərini bu cümlələrlə ifadə etdi: "İlyas müəllimə doğru-dürüst bassağlığı verə bilmədim. Bilmədim nə deyim. Bir neçə söz dilimdə qayıtdı.

Etimad bəyi baş prokuror oğlu olub, özünü baş prokuror oğlu kimi aparmayan bir adam kimi tanımışam. Müstəntiq oğlunun da atasının rütbəsindən aldığı dəyişməz havaya girdiyi bir ölkədə onun bu xarakteri diqqət çəkməyə bilməzdi.

Atasını çox sevən, onunla qürur duyan, lakin özünə güvənməyi bacaran, özü olmağı bacaran biri idi.

Xarakterli bir adam idi.

Etimadı bir insan kimi ən düzgün xarakterizə edən də həyat yoldaşı Sevil xanımdır.

Həyat yoldaşını ad günü münasibətilə təbrik edərək ona olan hisslərini sosial şəbəkədə bölüşmüşdü.

**"Bir az çətin biridir. Amma bir o qədər də qəlbi yumşaq və sevgi dolu. Sonsuza qədər inanılacaq dost, yol yoldaşı və ərdir. O sosial şəbəkədən istifadə etmir. Bu şəbəkələrə də əsəbiləşir. Şəkil çəkdirməyi də xoşlamır. Hansısa önəmli adamlarla şəkil çəkdirib və onu paylaşıb hava atanları da qeyri-səmimi adlandırır. Belə bir adamdır. Mübarizəsi olan, mübarizənin nə demək olduğunu anlayan adamdır. Ad günün mübarək. Allah səni hər iki dünyada bəxtiyar etsin".**

**(ardı var)**

### *"Bakcell" bonuslarla zəngin yeni "GO" tariflərini təqdim edir*

**İnnovasiya lideri "Bakcell" danışıq dəqiqələri, internet, SMS paketləri, rouminq və digər üstünlüklərlə bol yeni "GO" tariflərini təqdim edir. 0.99 AZN-dən başlayan "Go" tariflərindən birinə qoşulmaqla abunəçilər, həmçinin "WhatsApp", "Facebook", "Instagram", "TikTok" və "YouTube" platformalarında istifadə üçün əlavə internet bonusları əldə edəcəklər.**




Məsələn, "GO 11.99" tarifi çərçivəsində "Bakcell" abunəçiləri 5 GB internet, 300 ölkə daxili danışıq dəqiqəsi, bütün istiqamətlər üzrə 150 SMS və "WhatsApp"da limitsiz yazışmaq imkanı qazanacaqlar. Sözügedən tarifə qoşulmaq üçün sadəcə *905#YES kodunu yığmaq kifayətdir. Qeyd edək ki, cari tariflərdən yeni "GO" tariflərinə keçid tamamilə ödənişsizdir. "GO" tarifləri barədə ətraflı məlumatı rəsmi sayt, həmçinin "Bakcell" mobil tətbiqindən əldə edə bilərsiniz.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

### *Ayıq saxlayan, diqqəti toplayan - 5 çay*

**Harvard diyetoloqları beyin fəaliyyətini və yaddaşı gücləndirən içkiləri açıqlayıblar.**

Elmi məlumatlara əsasən, bu içkilər həm sizi ayıq saxlayır, həm də diqqətinizi cəmləşdirməyə kömək edir:

Çuğundur şirəsi

Kombuça (fermentləşdirilmiş çay)

Yaşıl çay

Qara bibərli zərdəçal çayı

Qəhvə.



Elmir Həsən

# Salam Sarvan poeziyasında sözün rəqsi və zamanın palitrası

**Fransız tənqidçisi və semiotiki Rolan Bart yazırdı ki, müasir şeirdə mənanı müəllif yox, oxucu yaradır. Şeir artıq tək bir məna daşımır - hər oxunuşda yeni anlamlar doğur. Biz Rolan Bartın nəzərdə tutduğu oxucunu iki fərqli şəxsiyyət kimi təsəvvür edə bilərik: biri yüksək ədəbi-intellektual hazırlığa malik oxucu, digəri isə tənqidçidir. Çünki yalnız simvolizmlə zənginləşmiş və düşünməyə təşviq edən şeirlərin mənasını dərk etmək, onları sorğu-suala çəkmək bacarığı məhz bu iki oxucu tipinə xasdır. Bu baxımdan müasir poeziya ilə klassik poeziya arasında nəzərəçarpacaq fərqlər mövcuddur. Müasir poeziyanın başlıca xüsusiyyəti onun insan xarakteri ilə sıx bağlı olmasıdır. Postmodern və metamodern insan azadlığa və sərbəst həyata meyillidir. Bu meyil poetik janrların sərhədlərinə də təsir göstərir - ənənəvi forma və qaydalardan uzaqlaşma müşahidə olunur, qafiyənin hökmü isə yeni mənalar axtarışına yol verir. Fəlsəfə, psixologiya və tarix yenidən ədəbiyyatla qovuşur; məhəbbət mövzusu isə əvvəlki mərkəzi yerini nisbətən itirir. Bunun səbəbi meta-insanın yeni həyat forması axtarışına çıxması, sevgidən yorulması, təkliyə alışması və duyğularını məntiqin hökmünə tabe etdirməsidir.**

Qeyd etdiyimiz bu cəhətləri Salam Sarvanın yaradıcılığında aydın şəkildə müşahidə etmək mümkündür. O, ədəbiyyatımızda spesifik üsluba malik şairlərdən biridir. Əksər şeirləri intertekstuallıq üzərində qurulmuşdur; bəzi şeirlərində isə müəllif sanki sözlə rəqs edir: ən incə çalarlı sözləri tədrici qradientlə seçir və onları misralara çevirir. Bu zaman əvvəlki misraları sonrakılarla həm zidd, həm də oxşar palimpsest yaradır.

***Saatın əqrəbləri***
***Biri-birinin üstə:***
***Qıfılnan bağlanıblar,***
***Üçü də "bir"in üstə.***

Bu şeirdə saatın əqrəbləri bir nöqtəyə toplanaraq həm fiziki, həm də məcazi mənada bağlılıq və məhdudiyyət ifadə edir. Başqa bir şeirində isə realizmin üzərinə yüngülcə "proletariat" sığalı çəkir, şaquli formada mənalar arasında ziddiyyət yaradır:

***Daha nələr?..***
***Kötük postamentlər üzərində***
***Həmişəyaşıl abidələr.***
***Daha kimlər?..***
***Pəncərəsi kamera divarından***
***Təqvim kimi asılmış məhkumlar.***

"Təqvim kimi asılmış məhkumlar" bənzətməsi yaradıcı təsəvvürün metamodern dünyaya istiqamətlənmiş ən kulminativ və intellektual mərhələsidir.

"Daha nələr?.." və "Daha kimlər?.." sualları poetik nitqin ritorik üsullarındandır. Şair burada cavabdan çox təəssüf, heyrət və narahatlıq hisslərini ifadə edir.

"Kötük postamentlər üzərində həmişəyaşıl abidələr" bənzətməsi ilə şair ölüm və ölümsüzlük dualizmini ədəbi mərkəzə gətirir. "Kötük" (kəsilmiş ağac) bitmiş həyatın anlamını əxz edirsə, "həmişəyaşıl abidə" daimi yaddaş, əbədi hörmət mənasındadır.

Şeir azadlıq və məhkumluq, yaddaş və unudulmaq, varlıq və yoxluq mövzularını əhatə edir. Eyni zamanda şəhidlik, müqavimət, tarixi travmalar (məsələn, repressiyalar, müharibə, işgəncə dövrləri) kimi mətnaltı məzmunlar verir.

Lakin "həmişəyaşıl" ifadəsi eyni zamanda qıclığın da əlamətidir. Yerində sayan, iflic düşüncə, manqurt mənasında da bu ifadə omonim məna daşıyır. Şeirdə isə kötük postamentin üzərində həmişəyaşıl abidə zamanın kütləşdiyini, iflic olduğunu göstərir.

"Pəncərəsi kamera divarından təqvim kimi asılmış məhkumlar" - burada məkan və zaman anlayışları çarpazlaşır. Məhkumun həyatında "pəncərə" artıq azadlığa yox, təqvimə baxış nöqtəsidir - zamanın axışı və gözləmə rəmzidir. Məhkumun pəncərəsi artıq fiziki çıxış yox, təqvimdə dəyişən günlərin rəmzidir - bu da ekzistensial tənha qalma halının göstəricisidir. "Daha kimlər?.." sualı həm faciənin davam etdiyini, həm də gələcəkdə də bu qurbanların ola biləcəyini göstərir. Bu sual həm fərdi kimlik, həm də kollektiv yaddaş üzərində düşünməyə çağırır. Bu mənada, şair üçün zamanın hərəkəti də tükürpədicidir - eynilə qatar relsinin döngələrə tuş gəldiyi zaman sürtünmədən çıxardığı ət ürpədici səs kimi...(!)

Başqa bir şeirində də zaman dirənib, yerində sayır:

***Söndür ekranları, ta bundan belə***
***Nə filmə, nə də ki həyata baxaq.***
***Deyirlər, saatda yaxşı vaxt gedir -***
***Gəl, gedək oturub saata baxaq.***

Amma xüsusilə qeyd etməliyik ki, Salam Sarvanın düşüncəsindəki zaman daha çox yetişkin insanın təsəvvüründəki zamandır. İnsan ömrünə görə zamanın leksikası da nisbidir. Bu cəhətdən Salam Sarvanın zaman anlayışı moldovalı şair Qriqore Vyerunun zamanından fərqlənir.

Zamanın ilk körpə tərifi ağlımda süpürgə səsi kimi qalıb. Bahar günəşinin atmosferində kəndin qu quşunun, qaranquş səsinin şəfəqlə rənglənmiş mavi səmasının tərkibində assosiasiya olunmuş halı ilə yaddaşıma hopub zaman.

Böyük rumın şairi, Moldovanın görkəmli ədəbiyyat nümayəndəsi Qriqore Vyerunun da şüurundakı zamanın qeyri-xəyali tərifi onun poeziyasını öz səmtinə salıb. Bunu aşağıdakı misrada rəngə doymuş koloritlə duymaq çətin deyil:

***Yetişmiş moruq kimi***
***Üfüq alışıb-yanır.***
***Bir qoca sübh səhərdən***
***Süpürür xiyabanı.***
***Vaxt başlanğıcdır -***
***körpə uşaq beyni,***
***ağappaq vicdan kimi(!)***

Zaman tərifi yalnız mənim Qafqazlı zehnimdə səhərin şehə bulaşmış, uzaqdan günəş parıltısına boyanmış şəkilində qalmayıb, eyni zamanda qədim qitənin poeziya insanının da zehninə sübh qızartısı - səma mavisi rəngində həkk olunub. Qitənin tarixi qədimliyini kölgəsinə alıb.

***Ay oğul, vaxtı***
***Soruşmursan?***
***Al qırmızıdı!***
***Al qırmızıdı!***
***...***
***Avar çəkir dayanmadan,***
***Yorulmayır da bircə an:***
***Söylə, sən vaxtı***
***Soruşmursan?***
***Mavidi, mavi!***
***Mavidi, mavi!***

Salam Sarvan əksərən bizim yaşadığımız, sevdiyimiz, gördüyümüz, amma fərqində olmadığımız gözəlliklərə və ya reallıqlara pıçıltı ilə işıq tutur, ömrün bəri başından o biri başına prolepsis edir:

***Bax ha...***
***Uşaq vaxtı yıxılarkən ağlamadığın ağrılara***
***Əlli yaşdan sonra başlarsan ağlamağa.***

Uşaq vaxtı yaşanan fiziki ağrıların acısı candan saniyələr, uzağı dəqiqələr içində çəkilir, amma insan yaşa doldaqca ömrü mənəvi ağrıların çəkilməyən giziltisi ilə çırpınır. Yaş artdıqca insan həyatın mənəvi və psixoloji ağırlığını daha dərindən dərk edir. Uşaqlıqda bədənə dəyən zərbələr unudulur, amma yaşlandıqca həmin anların mənəvi yükü ortaya çıxır. İnsanın yaşadığı günlərin sayı çoxaldıqca səsi batır, dünyasının sonunda isə təkrar uşaqlaşır, əvvəlki saf, kövrək qəlbinə geri dönür.

Və yaxud:

***Guya tənhalığa çəkilmisən -***
***Gizlətmisən dünyanı***
***dörd divarın o üzündə...***
***Ətrafa baxmırsan -***
***Dülgərin satmaqçün***
***düzəltdiyi pəncərədən***
***Heç yerə baxmadığı kimi.***

Lirik qəhrəman özünü dörd divarın arxasında gizlədib, ətraf aləmdən təcrid olunmuşdur. Şeirin başlanğıcındakı "Guya tənhalığa çəkilmisən" ifadəsində bir ittiham, ya da kinayə var. "Guya" sözü bu tənhalığın səmimi və həqiqi olmadığını, bəlkə də özünü təcrid etməkdə qeyri-səmimi bir istək olduğunu göstərir - bəlkə də monax həyat tərzi. "Dörd divarın o üzündə dünyanı gizlətmək" - burada ev və divar yalnız fiziki məkan deyil, həm də psixoloji çəpər kimi çıxış edir. Şair demək istəyir ki, sən guya özünü dünyadan ayırmısan, amma əslində özünü dünyadan gizlətməyə çalışırsan; bu da tənhalıq deyil, qorxu və ya laqeydlikdir. "Dülgərin satmaqçün düzəltdiyi pəncərədən heç yerə baxmadığı kimi" ifadəsi möhtəşəm bir metaforadır, hətta ədəbiyyatımız üçün əsrarəngiz bədii tapıntıdır. Dülgər pəncərəni praktik məqsədlə, satmaq üçün düzəldir - o, onun funksiyasına baxmır, içindən nə görünür, vecinə deyil. Şair bu bənzətmə ilə demək istəyir ki, sən də baxmaq üçün deyil, sadəcə divarı bəzəmək üçün pəncərə saxlayırsan, yəni həyata gözlərini qapamısan. Burada həqiqi tənhalıq ilə süni tənhalıq arasında fərq qoyulur. Həqiqi tənhalıq insanın daxili düşüncə, özünüdərk üçün çəkildiyi səssizlikdir. Ancaq şair burada bu halı tənqid edir: guya tənhasansa, niyə dünya ilə rabitəni tamam kəsirsən? Pəncərə burada həm həyatla rabitə, həm də daxili baxış rəmzidir. Görmək istəyən pəncərədən istifadə edir, amma görmək istəməyən üçün pəncərə mənasız çərçivədir - dülgər kimi, sadəcə funksional baxır. Bu baxımdan şeir ekzistensialist fəlsəfəyə yaxınlaşır: insanın öz seçimləri, özünü qapaması, dünyanı məntiq və ağılla görməkdən imtinası onun varlığının mahiyyətini müəyyən edir. Beləliklə, insanın daxili dünyası və reallıq arasındakı ziddiyyət ön plana çıxır. Şeirin əsas ideyası tənhalığın zahirən könüllü görünsə də, əslində insanı içindən məhv etməsi fikridir. Lirik qəhrəman təkliyə çəkildiyini düşünür, amma bu, ətraf mühitlə əlaqənin tam kəsilməsi demək deyil - o, dünya ilə münasibətini dörd divarın arxasında saxlamağa çalışır, amma çarəsiz durumda...

Məşhur rus filosofu və ədəbiyyatşünası Mixail Baxtin müasir şeir haqqında yazırdı ki, şeirdə səs və mənaların çoxsəsliliyi (polifoniya) ilə yeni məna qatları formalaşır. Bu mənada Salam Sarvanın şeirlərində polifonik xüsusiyyətləri müşahidə etmək mümkündür:

Məsələn:

***Qazılan quyulardan***
***Çıxarılmış torpaq zibildi daha.***
***Təxminən, sən də yaşamırsan.***
***Yalnız saçlarının və dişlərinin***
***Yavaş-yavaş tökülməsidi***
***həyat əlamətləri.***

Bir tərəfdə dünya və dəyərsizləşmə haqqında metafora (torpaq - zibil), digər tərəfdə insanın tənəzzülü, yaşamın formalara çevrilməsi (saç və dişlərin tökülməsi), üstəlik "Təxminən, sən də yaşamırsan" - bu, həm müraciətdir, həm yarımfikirdir, həm də mövqedir.

Salam Sarvanın poetik təfəkkürü fərdi xarakter ölçüləri ilə yaxından-yaxına kəsişir. Şairin şeirlərini nəzəri cəhətdən təhlil edərkən onun mövzusu, ideyası, poetik xüsusiyyətləri və bədii ifadə vasitələri üzərində xüsusi həssaslıqla dayanmaq lazımdır. Ümumiyyətlə, Salam Sarvanın bu şeiri üslub və janr xüsusiyyətləri baxımından lirik-fəlsəfi stilistikada yazılmışdır və oxucunu öz-özü ilə tək qalaraq (introspeksiya) ortaya çıxmış suallara cavab axtarmağa vadar edir.

**İstifadə olunmuş ədəbiyyat:**

**1. Salam Sarvan, Heykəl tənhalığı. Bakı: Qanun, 2017, 155 s.**
**2. Salam Sarvan, Şeirlər. Qanun, 2001.**
**3. Qriqore Vyeru, İynənin nəğməsi. Şirvannəşr, 2025.**
**4. Q. S. Nils Gilye, Fəlsəfə tarixi. Zəkioğlu, 2008.**
**5. Zeynəddin Hacıyev, Fəlsəfə. Ali məktəblər üçün dərslik.**
**"Turan evi" nəşriyyatı, 2018, 463 s.**
**6. Mixail Baxtin, Dostoyevski poetikasının problemləri.**
**7. Rolan Bart, Müəllifin ölümü. 1967.**

# Bakıda çəkilmiş xarici filmlər

**Bakı hər zaman Qafqazın, eləcə də dünyanın ən gözəl şəhərlərindən biri sayılıb. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində neft sənayesinin sürətli inkişafı Bakıda "Art Nouveau" üslubunda çoxlu gözəl binaların tikilməsinə səbəb oldu. Nəticədə paytaxtımız özündə həm Şərq, həm də Qərb sivilizasiyalarını birləşdirən unikal mədəniyyət mərkəzinə çevrildi. Bakının hər iki məkanı: həm köhnə Bakı-İçərişəhər, həm də müasir, yeni Bakı sivilizasiyaların sintezi baxımından hər zaman dünyanın diqqət mərkəzində olub.**

Hələ SSRİ dövründə məşhur sovet kinorejissorları Bakının bu qiymətli özəlliyindən yararlanır, filmlərində əsasən, Şərq koloritini canlandırmaq üçün Bakıya üz tuturdular.

### *Qədim, müasir və sirli Bakı*

Qədim Bakı bir vaxtlar sovet və Qərb istehsalı olan bir çox populyar filmlərin çəkiliş meydançasına çevrilmişdi. Bu filmlərdən biri də Aleksandr Belyayevin elmi fantastika janrında qələmə aldığı dünyaca məşhur "Amfibiya



adam" əsərinin motivləri üzərində çəkilmiş filmdir. Həmin əsərin film ssenarisi kimi işlənməsi ideyası həm sovet, həm də Hollivud rejissorları tərəfindən dəfələrlə təklif edilmişdi. Lakin o zaman heç bir tərəf bu məsuliyyəti boynuna götürməyə cəsarət etmədi. Çünki həmin illərdə nə Qərbin, nə də SSRİ-nin sualtı çəkiliş təcrübəsi yox idi. Nəhayət, sovet mütəxəssisləri sırf Hollivudu qabaqlamaq məqsədilə "Amfibiya adam"ın ssenarisi üzərində işləməyə başladılar.

Rejissorların qarşısında duran ən çətin məsələ xaricə getmədən xarici liman şəhərini canlandırmaq idi. Çoxlu götür-qoydan sonra seçim Bakının, daha dəqiqi, tarixən, Şirvanşahlar dövlətinin paytaxtı olan İçərişəhərin orta əsrlərə aid bir məhəlləsinin üzərinə düşdü. Filmdə Buenos-Ayres kimi qələmə verilən qədim liman şəhərinə aid epizodlar məhz, İçərişəhərin küçələrində çəkilib. Eləcə də filmdə yer alan bir sıra kütləvi səhnələr də Bakı sakinlərinin iştirakı ilə canlandırılıb.

Çəkilişlərinin mühüm bir hissəsinin Bakıda baş tutduğu digər məşhur sovet filmi "Brilyant əl" kriminal komediyasıdır. Əfsanəvi filmin rejissoru Leonid Qayday filmdə İstanbul şəhərini canlandırmaq üçün ən uğurlu tapıntı kimi Bakıya, İçərişəhərə üz tutmuşdu. İçərişəhərdə aparılan çəkilişlər zamanı İstanbula aid səhnələrin daha təbii alınması üçün əlavə olaraq məscid və minarə maketlərindən də istifadə olunmuşdu.

Bakıda filmə çevrilən daha bir məşhur əsər Korney Çukovskinin klassik əsəri əsasında çəkilmiş "Aybolit-66" nağıl filmidir. Film ən populyar sovet ulduzlarını bir araya toplayıb. Aybolit roluna Oleq Yefremov, Barmaley roluna filmin rejissoru Rolan Bıkov, epizodik rollara isə Radner Muratov, Aleksey Smirnov kimi tanınmış aktyorlar həyat verib. Obrazlı desək, bu filmdə sevimli Bakımız qızmar Afrika rolunu oynayıb. Filmdəki bəzi epizodlar isə Azərbaycanın İranla sərhədində - Astarada çəkilib.

### *Sivilizasiyaların qovuşduğu yer*

Bakıda "dünyaya gələn" məşhur ekran əsərlərindən biri də "Tehran-43" casus-detektiv filmidir. Sözügedən filmi diqqətəlayiq edən ən önəmli məqamlardan biri bu əsərdə sovet aktyorlarından başqa, Alen Delon kimi dünya şöhrətli ulduzların yer alması idi. SSRİ, İsveçrə və Fransa üçlüyünün birgə istehsalı olan filmin çəkilişlərinin İranda aparılması planlaşdırılmışdı. Lakin 1980-ci ildə Tehranda baş verən islam inqilabı layihənin həyata keçirilməsinə maneə oldu. Rejissorlar isə müdrik davranaraq, çəkiliş üçün İranla çoxəsrlik ortaq mədəniyyətə malik olan Azərbaycanı seçdilər. Bu seçim isə SSRİ-nin ən uğurlu filmlərindən daha birinin işıq üzü görməsinə səbəb oldu.

Haqqında danışacağımız növbəti filmin Bakıda çəkildiyini bəlkə də çox az adam bilir. Bu, hansı film olsa yaxşıdır? Söhbət 1850-ci illərin vəhşi Amerika həyatını təsvir edən "Başsız atlı" qorxu-macəra filmindən gedir. Mayn Ridin eyniadlı romanı əsasında ekranlaşdırılan filmdəki geniş çöllər, meşə yanğını, torpaq yollarda hərəkət edən at arabaları, pambıq tarlaları kimi epizodlar Azərbaycanda lentə alınıb. Doğrudur, zəngin Azərbaycan təbiətində Şimali Amerikaya məxsus kaktuslar olmasa da filmin yaradıcıları onların plastik formalarını hazırlamışdılar. Ümumilikdə isə tam Azərbaycanda çəkilən ilk xarici film 1912-ci ildə gürcü rejissoru Vasili Amaşukelinin "Akaki Tseretelinin Raça-Leçxumiya səyahəti" filmidir. Bundan başqa ilk xarici filmlərdən olan gürcü rejissor İvan Peristianinin 1926-cı ildə çəkdiyi "Knyajna Şirvanskayanın cinayəti" filminin də çəkilişləri Azərbaycanda aparılıb. Rejissorlar Boris Barnet və Səməd Mərdanovun "Mejrabpomfilm" və "Azərfilm"in birgə istehsalı olan "Ən mavi dənizin sahilində" filmi də 1935-ci ildə Bakıda ekranlaşdırılıb.

Ceyms Bond Bakı haqqında: "Qeyri-adi şəhər, gözəl insanlar..."

1999-cu ildə rejissor Maykl Eptedin "Ceyms Bond - Agent 007" silsiləsinin on doqquzuncu detektiv-macəra filmi "Dünya kifayət deyil" filminin bir çox səhnələri də Bakıda - Bibiheybət qəsəbəsində çəkilib. Xatırladaq ki, bu yaxınlarda "Agent 007" rolunun ifaçısı Pirs Brosnanın Bibiheybət qəsəbəsində çəkilmiş fotosu yayılmışdı. Ceyms Bond kimi tanınan İrlandiya əsilli aktyorun fotosu 1,9 milyon izləyicisi olan "007" adlı rəsmi "İnstagram" səhifələrində paylaşılmışdı. Qeyd edək ki, P. Brosnan müsahibələrinin birində Azərbaycanda güllələnmə səhnəsinin çəkilişlərini xatırlayaraq:

"Azərbaycanda bizi olduqca səmimi qarşıladılar. Bu təcrübə, düzünü desəm, çox qeyri-adi idi. Biz yollarda çılğıncasına, sürətlə maşın sürür və hər yerdə neft buruqlarını, neft emalı zavodlarını görürdük. Bu, qeyri-adi mənzərə idi, üstəlik, film üçün işimizə çox yaradı. Həmçinin, çox gözəl insanların əhatəsində xoş axşam yeməyini də xatırlayıram" - demişdi.

Bundan başqa 1986-cı ildə Çili rejissoru Sebastyan Alarkonun "Çili üzərində gecə" və Nobel mükafatçısı yazıçı Mario Varqas Lyosanın "Şəhər və itlər" romanı əsasında ekranlaşdırdığı "Yaquar" filmlərinin bəzi hissələri də Bakıda çəkilib.

Dünya şöhrətli Azərbaycan yazıçısı Çingiz Abdullayevin romanlarının motivləri əsasında 2002-ci ildə çəkilmiş 13 seriyalı "Dronqo" filmi də ölkəmizdə çəkilmiş filmlər sırasındadır. Rejissor Zinovi Royzmanın rejissorluğu ilə ekranlaşdırılmış filmdə gürcü və rus aktyorları ilə yanaşı, azərbaycanlı aktyorlar - Pərviz Məmmədrzayev, Həmidə Ömərova, Ötkəm İsgəndərli, Sadıq Əhmədov, Firdovsi Atakişiyev, Kamran Yunis, Məbud Məhərrəmov və Anar Heybətov da rol alıb.

**Beləliklə, deyə bilərik ki, xarici rejissorları Bakıya gətirən əsas səbəblər Azərbaycanın çoxəsrlik qədim tarixinin bu günümüzdə də maddi sənət nümunələri kimi qorunub saxlanılması, ölkəmizin çoğrafi və mədəni baxımdan Şərqlə Qərbin vəhdəti kimi tanınmasıdır.**

**Murad Köhnəqala**

# ETİBAR BABAYEV – 75

Aqil ABBAS

## ONUN ƏN BÖYÜK VƏZİFƏSİ ETİBAR BABAYEV OLMAQDIR

*Məndən cəmi üççə yaş böyükdü. Dekabrın 15-də 75 yaşı tamam olacaq. Amma ilk tanıdığım gündən - 50 il bundan qabaqdan danışıram, yəni cavan oğlan idi, ona ağsaqqal kimi baxırdım. Təbii ki, ağsaqqallıq yaşa baxmır, o, öz mədəniyyəti ilə, səmimiyyəti ilə, geniş dünyagörüşü ilə, ədəbi ilə qazanmışdı hələ gənc yaşlarından ağsaqqallığı.*

*Bir komsomol təşkilatı vardı, təbii ki, bu təşkilatda işləyənlər gənclər idi. Çox təmiz təşkilat idi, bu təmiz təşkilatda da təmiz oğlanlar işləyirdi və komsomol çörəyi yeyirdilər, yəni təmiz çörək. Rüşvətdən uzaq, intriqalardan uzaq, yalnız mehribançılığı və səmimiyyəti özündə ehtiva edən bir çörək. Və bu komsomol dostluğu əsgər dostluğu kimi bir şeydi. İnsan heç vaxt əsgərlik dostlarını ömrünün sonunadək unutmadığı kimi, bu komsomol dostluğu da ömrünün sonunadək davam edir. Çünki təmənnasız dostluqdur.*



*Bu təşkilatın dağılmasından təxminən 35-36 il keçsə də, amma həmin dostluq bu gün də unudulmur.*

*Çox təəssüf ki, indi Azərbaycan gənclərini birləşdirən belə bir təşkilat yoxdur. Məsələn, Gənclər Nazirliyi var, amma bütün Azərbaycan gənclərini öz ətrafında birləşdirə bilməyib. Burda siyasi partiyaların da günahı var, çünki hər partiya özü üçün bir gənclər təşkilatı yaradıb.*

*Etibar Babayevlə komsomol dostluğum yoxdur, çünki onda Etibar müəllimi görəndə kənara çəkilib yol verirdim, bəlkə də heç məni tanımırdı. Onda mən Komsomol Mərkəzi Komitəsinin xətti ilə bir jurnalist kimi Baykal-Amur Magistralına bir aylıq ezamiyyətə göndərilmişdim. Yəni ömrümün təxminən altı ayını Komsomolun Mərkəzi Komitəsində ştatdankənar çalışdım.*

*Onda Etibar Babayevə həsədlə baxırdım. Çünki o, Azərbaycanın görkəmli şairi Adil Babayevin oğlu idi.*

*Sonralar onu Bakı şəhər Partiya Komitəsinə apardılar, orda çalışanda da qapısı həmişə ədəbiyyat, mədəniyyət və incəsənət işçilərinin üzünə açıq idi. Hamısına kömək etməyə çalışırdı.*

*Tale elə gətirdi ki, müəyyən vaxt keçdi biz Etibar Babayevlə ailəvi dost olduq. Bir-birimizin evini öz evimiz saydıq, Etibar Babayevin anasını da anamız. Novxanıdakı bağ evində anası Gülnar xanımın hazırladığı gözəl təamların dadı adamın damağından getmir. Mənim anam da belə gözəl, dadlı yeməklər bişirərdi.*

*SSRİ dağıldı, həmin illərdə Türkiyə ilə münasibətimiz indiki kimi qardaşlıq səviyyəsində deyildi. Süleyman Dəmirəl Allahın bir vertolyotunu da bizə qıymadı. Həmin illərdə Etibar Babayev Azərbaycanla Türkiyə arasında mədəni əlaqələrin yaranmasında böyük bir rol oynadı. Sanki Türkiyənin Azərbaycandakı, Azərbaycanın isə Türkiyədəki səfiri idi. Türkiyənin sənət adamlarının, mədəniyyət xadimlərinin Azərbaycana, Azərbaycanın sənət və mədəniyyət şəxsiyyətlərinin Türkiyəyə ayaq açmasında Etibar Babayevin çox mühüm rolu oldu.*

*Xalqımızın çox sevdiyi Barış Manço tez-tez Etibar müəllimin dəvəti ilə Bakıya gəlirdi və xalqımıza böyük məhəbbətini izhar edirdi.*

*Ulu Öndər Heydər Əliyev Etibar Babayevin Türkiyə və Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsində göstərdiyi əməyi çox yüksək qiymətləndirirdi. Bəlkə də Etibar Babayev yeganə adam idi ki, ürəyi istəyəndə Heydər Əliyevin evinə gedib-gələ bilirdi.*

*Azərbaycanda "Space" radiosunun təsisçisi oldu və yaratdı. Sonra isə gərək ki, 2001-ci ildə "Space" televiziyasına sədr təyin edildi. Bu kanal başqa kanallardan fərqləndi. Əsl bir ziyalı kanalına çevrildi, səhər proqramından tutmuş gecə kanalına qədər. "Space" dövlətçilik, mədəniyyət, incəsənət və bir ziyalı kanalı idi. Onun zamanında Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında bir çox sənədli filmlər çəkildi. Çox təəssüf ki, indi o filmlər göstərilmir. Mənim üçün çox xoşdur ki, daha doğrusu, fəxr edirəm ki, o tarixi sənədli filmlərin altısı mənim xanımım İradə Tuncayın yaratdığı filmlər idi.*

*Çox təəssüf ki, ömrünün ən müdrik çağlarında, təxminən 55 yaşında televiziyadan ayrıldı, daha doğrusu, ayırdılar. Və iyirmi ildir ki, belə bir ziyalı, belə bir işıqlı adam heç harda işləmir.*

*Amma təəssüf etməyə dəymaz, onun ən böyük vəzifəsi elə Etibar Babayev olmaqdır ki, bu vəzifəni də ləyaqətlə daşıyır.*



Adil BABAYEV

### Dünyaya yadigar

Qara gözlərinin seyrinə dalmaq,
Mənim ən səfalı səyahətimdir.
Eşqinlə döyünən yanar bir ürək,
Sənə gəncliyimdən əmanətimdir.

Ömür kitabımda qızıl sətirsən,
Günümə, ayıma çökən ətirsən.
Mənə kədər deyil, sevinc gətir sən,
Adi bəxşişin də şan-şöhrətimdir.

Könlüm mələr düşər az görüşəndə,
Nərmin əllərimdən iraq düşəndə.
Sənsiz göy çəməndə, dağlar döşündə,
Gözlərin yaşlıdır, qəlbim yetimdir.

Bilmirəm dövranda bu gərdiş nədir?
Adilə gah sevinc, gah qəm bəxş edir,
Günlərim, aylarım köç edib gedir,
Dünyaya yadigar məhəbbətimdir.

### Sözlərin kökü

Bəzən iş otağıma çəkilib bütün günü,
Axtarıram sözlərin, kəlmələrin kökünü.
Öyrənmək istəyirəm diqqət ilə, səy ilə,
Sözlər necə yaranıb, hardan gəlibdir dilə.

Lüğətlər kömək etmir, qamuslar gəlmir kara,
Deyirəm öz-özümə: ürəkləri sən ara.
Talelər kitabında mənası var hər sözün,
Hər həsrətin, vüsalın, hər gecənin-gündüzün.

Düşünürəm: zindanda azadlıq boğulanda,
Körpələrlə gözəllik bir yerdə doğulanda,
Azadlıq həsrətiylə yanan zaman Vətənim,
Yəqin, "azadlıq" sözü dilimə gəlmiş mənim.

İnsanlar sürüləndə yurdundan diyar-diyar,
Yəqin, "Vətən" sözünü qürbətdə yaratdılar.
Vətən oldu onların arzusu, düşüncəsi,
Meyvələrin nübarı, çiçəklərin qönçəsi.
Ocaqların tüstüsü,
Təndirlərin istisi,
Çinarların vüqarı xəyala gələn zaman
Yarandı "Vətən" sözü qəriblərin ahından.

Bilirəm torpağımın sevinci var, yası var,
Onun gözünün dağı hicranlı Arazı var.
"Həsrət" sözü Arazın yaranıb sularından,
Axı, bu torpaqdakı daşın da, çinarın da
Kökü Arazdan keçib, o taya adlayıbdır.
Araz əvvəl çay idi
İndi həsrət olubdur, qəlbləri odlayıbdır.

Nə qədər yol getmişik Günəşin sorağında?
Bir vaxt oda sığınan yurdumun torpağında
İşığa həsrət qalıb illər boyu nəsillər,
Səmum nəfəsli aylar, ölüm nəfəsli illər.

Söndürüb evlərdəki neçə odu, ocağı,
İnsan olub cansıxan qaranlığın dustağı.
Kim bilir, bəlkə, onda
Ürəklər bir çırağın həsrətiylə yananda
"İşıq" sözünü ilkin dilə gətirmişik biz,
Arzunun işığıyla "işıq" gəzib nəslimiz?
Bəlkə, "ümid" sözü də uzaq bir çıraq kimi,
Elə o vaxtlar yanıb,
Ya zülmətdə doğulub, ya zindanda yaranıb?

Ayaqlar buxovlanıb, əllər zəncirlənəndə,
Fəlakət üstümüzdə bayquştək hərlənəndə,
Ölüm dayanan zaman qaşla-göz arasında,
Bəlkə, bir cəngavərin ümidsiz yarasında,
Bəlkə, ölüm anında ümid gözləyən gözdə
Ümid də yaranıbdır "ümid" ünvanlı sözdə?

Bəzən iş otağıma çəkilib bütün günü
Axtarıram sözlərin, kəlmələrin kökünü.
Məncə, hər söz yaranıb bir arzudan, diləkdən,
Sözlər də məcrasını alır yanan ürəkdən!

***

Bizi ölüm ilə qorxudur zaman,
Şeirim tab edərmi bu ağır dərdə?
Nə üçün ömrünü qorumayırsan,
Daha etibarlı, möhkəm bir yerdə?

Görürsən, nə qədər bakirə gül var,
Gəncliyin bahardır, qoru ruhunu.
Qəlbini, hüsnünü sevgi yaşadar,
Nə fırça, nə qələm bacarmaz bunu.

Hər şeyi yenidən yaradır həyat,
Gəl öz gəncliyini ver məhəbbətə.
Sevgiylə, sevdayla aç ki qol-qanad,
Səni qovuşdursun əbədiyyətə.

Versən öz ömrünü övladına sən,
Onun varlığında ömür sürərsən.

### Ayrılıq olmasaydı

Heç zaman solmazdı o tər çiçəklər,
Ümmana dönərdi sevən ürəklər,
Bir insan bilməzdi, nədir qəm-kədər,
Şəfəqli nəğməyə dönərdi aləm,
Ayrılıq olmasaydı, ayrılıq olmasaydı

Vaxtsız dən düşməzdi şəvə saçlara,
Analar ömründə geyməzdi qara,
Bir dildə olmazdı "həsrət" kəlməsi,
Bir evdən çıxmazdı hıçqırıq səsi,
Ayrılıq olmasaydı, ayrılıq olmasaydı

Görünməzdi bu yol yorucu, uzun,
Gülərdi çöhrəsi gəlinin-qızın,
Yaz fəsli açılan çiçəklər kimi
Əbədi saxlardım səadətimi,
Ayrılıq olmasaydı, ayrılıq olmasaydı

### Mən dünyada olmayanda

Qarlar, buzlar əriyəcək,
Çöllər yaşıl don geyəcək,
Bir şair də mənim kimi
Öz yurdunda söz deyəcək,
Mən dünyada olmayada.

Qəlbində bir xoş intizar,
Xəyalında - işıq, bahar,
Gələcəyin vüsalıyla
Çalışacaq bu insanlar,
Mən dünyada olmayanda.

Ömrüm Aya, Günə sirdaş,
Ağarır saç, çoxalır yaş,
Bircə kəlməm, bircə sözüm
Ürəklərdə qalaydı, kaş,
Mən dünyada olmayanda

***

Deyirsən əl götür bu inadından,
Çıxart birdəfəlik məni yadından.
Mən qüvvət alarkən sənin adından
Könlüm gözlərindən kənarmı olsun?

Tək sənsən ömrümün hüsnü, zinəti,
Qoyma xar olmağa ilk məhəbbəti,
Ey ana yurdumun zərif xilqəti -
De, eşqim baharmı, xəzanmı olsun?

### Gəncliklə görüş

Ata həsrəti,
ürəyin tükənməz məhəbbəti.
Ölüm, hicran,
yaralardan axan qan.
Dumanlı, işıqlı səhərlər,
verilən, alınan şəhərlər.
Çörək azlığı,
diqqət qıtlığı.
Rəftarın sərtliyi,
Ümidin bolluğu.
Bir dünya yorğunluq,
Bir qətrə dinclik ...
Salam, mənim gəncliyim,
Salam, cəfakeş gənclik!

# DÜNYA İLƏ ƏLAQƏLƏRİMİZ MÖHKƏMLƏNİR



**Hər bir ölkənin qarşısında duran əsas məsələlərdən biri onun dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, eləcə də beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirməkdir. Təbii ki, bu məsələləri həll edən hər hansı bir dövlət istər-istəməz beynəlxalq aləmdə nüfuz sahibi olur və həmin ölkələrlə normal münasibət yaradır. Heç kimə sirr deyil ki, Azərbaycan da müstəqillik dövrünə qədəm qoyandan sonra ilk növbədə bu vəzifələri prioritet vəzifələrdən hesab edib.**

Yəni Azərbaycan hesab edir ki, onun nüfuz və gücünün artırılması üçün ilk növbədə iqtisadi inkişaf lazımdır. Bu iqtisadi inkişafı isə əldə etmək bir o qədər də asan olmayıb. Ən azından ona görə ki, ölkəmiz müstəqillik dövrünə qədəm qoyanda çox böyük problemlər və çətinliklər içərisində olub. Bir tərəfdən ərazimizin 20 faizinin işğal olunması, digər tərəfdən də iqtisadiyyatdakı zəiflik heç şübhəsiz, bu məsələlərin həllində bir o qədər də asan iş deyildi.

Amma onu qeyd edək ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra sanki Azərbaycanda yeni bir günəş doğdu. Və zaman-zaman bu günəşin işığına xalqımız çox sevindi. Çünki xalqımız gördü ki, uzun müddət problemlər və çətinliklər içində yaşayan ölkəmiz Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində dirçəliş yoluna qədəm qoydu. Əlbəttə, ölkənin ərazi bütövlüyünün təmin olunması, iqtisadi inkişafının yüksəldilməsi və eləcə də dünyanın diqqətinin Azərbaycana cəlb edilməsi mühüm məsələlərdən biri idi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın dünya birliyinə inteqrasiya olunmasına böyük təkan verdi. Artıq xarici dövlətlər gördülər ki, uzun müddət davam edən müharibə Heydər Əliyevin hakimiyyəti dövründə atəşkəslə nəticələndi. Təbii ki, bu, sabitliyin və əmin-amanlığın yaranmasına əsas təkan verirdi. Ulu Öndərin də əsas məqsədi ondan ibarət idi ki, mövcud problemlər və o cümlədən Azərbaycanın digər ölkələrdən iqtisadi asılılığı aradan qaldırılsın.



Bax, "Əsrin müqaviləsi" demək olar ki, Azərbaycanı dünyaya tanıtdırdı və ən böyük güclü dövlətlərin ölkəmizə marağını daha da artırdı. Çünki dünyanın inkişaf etmiş ölkələri çox yaxşı bilirdilər ki, Azərbaycan zəngin neft və qaz yataqlarına, eləcə də digər təbii resurslara malikdir. İkincisi də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə birmənalı olaraq sabitlik və əmin-amanlıq mövcud olmuşdur. Belə durumda heç şübhəsiz, ölkəmizə investisiya qoymaq, sərmayə yatırmaq böyük dövlətlərin marağındaydı. Bu marağa görə də dünyanın nəhəng dövlətləri - ABŞ, İngiltərə, Rusiya, Türkiyə, İtaliya, Bolqarıstan, Macarıstan, Çex, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistan, eləcə də digər dövlətlər zaman-zaman Azərbaycanın neft-qaz sektoruna, eləcə də digər sahələrinə yatırımlar etdilər. Bu yatırımları edən hər bir ölkə öncə onu düşünürdü ki, maya dəyərlərini nə vaxt əldə edəcəklər? Çünki onlar bir çox ölkələrdə yatırımlar etsələr də bir müddətdən sonra gəlir əldə edə bilməmişdilər və qoyduqları investisiyalar da məhv olmuşdu. Əlbəttə, hər hansı bir sahəyə milyonlarla, milyardlarla dollar vəsait qoyan ölkə heç şübhəsiz, bir neçə ildən sonra onun bəhrəsini görmək istəyir. Bax, ölkəmizə yatırım edən adını çəkdiyimiz dövlətlər də çox yox, bir neçə ildən sonra qoyduqları investisiyanın bəhrəsini görməyə başladılar.

Azərbaycan həmişə qonşu dövlətlərlə isti münasibət yaratmağa can atıb. Düzdür, onlar bizə bir o qədər isti münasibət bəsləməsə də, amma müəyyən zaman kəsiyindən sonra görüblər ki, böyük layihələrdən geri qalmaq Azərbaycan iqtisadiyyatına yox, həmin ölkələrin iqtisadiyyatına ziyan gətirir. Buna görə qonşu İran da, Gürcüstan da, Rusiya da Azərbaycanda həyata keçirilən beynəlxalq səviyyəli böyük layihələrdə iştirak etməyə başladı. Azərbaycanın dünyaya sürətlə inteqrasiya olunması tək müsəlman dövlətlərinin deyil, digər böyük dövlətlərin də maraq dairəsində idi. Dünyanın nəhəng dövlətlərindən olan Çin Xalq Respublikası böyük layihələrdə iştirak etməyə başladı. Bakıda, Sumqayıtda, Gəncədə bir çox fabrik və zavodların tikintisinə həmin dövlət böyük vəsait ayırdı. Dediyimiz kimi həmin vəsaitin ayrılması da bir müddətdən sonra müsbət nəticələr verdi. Yəni Azərbaycan iqtisadiyyatına, yüngül və ağır sənayesinə xeyir gətirdiyi kimi, Çinin iqtisadiyyatına da mənfəət verdi.

Ölkəmizin ən böyük layihələrində qardaş Türkiyə və Səudiyyə Ərəbistanı çox yaxından iştirak ediblər və edirlər də. Çünki hər iki müsəlman dövləti bizimlə qardaşdır və ən ağır, çətin günümüzdə yanımızda olub. Heç şübhəsiz, ərazi bütövlüyümüzün təmin olunmasında və ölkəmizin beynəlxalq təşkilatlarda təmsil edilməsində bu iki ölkənin bizə həmişə böyük dəstəyi olub. Həm BMT-də, həm də digər mötəbər qurumlarda onlar ölkəmizə dayaq olaraq lazımi köməklikləri göstəriblər.

Bu gün çox böyük fərəhlə deyə bilərik ki, Azərbaycan prezidenti İlham Əliyev hakimiyyətdə olduğu 21 il ərzində dünya Azərbaycanı yenidən tanıdı.

Yəni dünya tanıdı ki, gənc olmasına baxmayaraq, Azərbaycan prezidenti İlham Əliyev çox müdrik və uzaqgörən siyasət həyata keçirir və bütün ölkələrlə, o cümlədən qonşu ölkələrlə mehriban münasibətlər qurmaq istəyir. Üstəlik də prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olundu və heç bir siyasi problem qalmadı. Yəni Azərbaycan dünyanın ən sabit və ən təhlükəsiz bir regionu olaraq inkişaf edir.

Son illər isə ölkəmizin Orta Asiya respublikaları ilə - Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Tacisktanla isti münasibətləri onu deməyə əsas verir ki, Azərbaycan özü də bu ölkələrə investisiya qoymaqla yanaşı, həmin dövlətlər də bizim ölkəyə sərmayələr yatırıb.

**Bir sözlə, Azərbaycanın dünyaya sürətlə inteqrasiya olması, ABŞ prezidenti Donald Trampın Azərbaycan-Ermənistan arasında sülh yaratması onu deməyə əsas verir ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Avropanı Asiyayla birləşdirən bu dəhliz bütün ölkələrə xeyir gətirəcək və eyni zamanda ölkəmizdə həmişə sülh və əmin-amanlıq bərqərar olub və olacaq.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

# Boz ömürlü aktyor

*Ümumiyyətlə, sənət adamlarının bir çoxunun taleyi həmişə fərqli eniş-yoxuşlarla dolu olur. Əlbəttə, həyat çətinliklərdən ibrətdir. Ancaq yaradıcı insanların çətinliyə baxışı da bir fərqlidir. Bəlkə də onların yaradıcılığında çəkdikləri acılar, həyatın iztirabı daha çox rol oynayır. Yəqin ondandır ki, yaradıcı adamlar daha çox kövrək, duyğusal olurlar.*

*Taleyi kədər dolu, ömrü keçməkeçli aktyorlardan biri də SSRİ xalq artisti Həsənağa Salayevdir. O, 1921-ci ildə Bakıda anadan olub. Aktyor 1937-ci ildə 9-cu sinfi əla qiymətlərlə bitirib, elə həmin Teatr Texnikomuna qəbul olub.Gənc istedadlı Həsənağanı tələbə ikən Akademik Milli Dram Teatrının aktyor heyyətinə qəbul ediblər. O, 1941-ci ildə XX əsrin ən böyük müharibəsi II Dünya Müharibəsinə yollanır. 1946-cı ildə yenidən doğma teatrına qayıdır.*

*O, teatrda fəaliyyətiilə yanaşı Azərbaycan film tarixində də yaddaqalan obrazları ilə sevilir. Aktyor həm də dublyaj sahəsində uğurlu səs hesab olunur.*



*Gələcək həyat yoldaşı Sərvət xanımla 1959-cu ildə tanış olur və onlar arasında sevgi yaranır. Cütlük 2 il sonra evlənir. O, həyat yoldaşını heç vaxt adıyla çağırmaz, həmişə ona "Xanım" deyə müraciət edərdi.*

*Həyat yoldaşını böyük məhəbbətlə sevən Həsənağa Salayev təəssüf ki, onunla xoş və rahat həyat yaşaya bilmir. O, bacısı və yeznəsi ilə münaqişədən sonra ata evini tərk edir. Həsənağa dostu, Xalq artisti Adil İsgəndərov teatrda yaşamaq üçün otaq istəyir. A.İsgəndərov da dostuna teatrda qucaq açır. Ona yaşamaq üçün teatrın binasında bir otaq ayırır. Həsənağa Salayev ailə qurduqdan sonra Adil İsgəndərovdan əlavə bir otaq da istəyir və Adil müəllim evsiz aktyora əlavə bir otaq da ayırır. Həsənağa Salayev uzun illər ailəsi ilə teatrın binasında yaşayır.*

*Evindən didərgin salınan aktyor üçün həyat heç də asan keçmir.*

*O, ailəsi ilə birlikdə teatrda yaşasa da, həyat onlar üçün olduqca çətin keçir.*

*Onun həyatının boz günləri ağ günlərindən qat- qat çox olur. Aktyor Fin müharibəsində 20 gün əsir olur. Ona dözülməz işgəncələr verirlər. Suyun içində saxlayırlar ki, "xalq düşməni" olduğunu boynuna alsın. Lakin o, heç nəyi boynuna almadığından sərbəst buraxılır.*

*Çox təəssüf ki, aktyorun özü kimi övladları Dəryanur və Rəşadnurinin də taleyi qərbə olub. Aktyorun böyük oğlu Dəryanura nişanlısı  xəyanət edir. Bu xəyanətdən sarsılan gənc cəbhəyə - Qarabağ döyüşlərinə gedir və şəhidlik zirvəsinə yüksəlir.*

*Amma kiçik oğlu Rəşadnuri isə  narkotikin qurbanı çevrilir. Beləliklə, onun ailəsindən heç kim qalmır.*

*Xalq artisti Həsənəağa Salayevin ömür-gün yoldaşı Sərvət xanım aktyordan 17 yaş kiçik olur. Onlar 20 il birlikdə çətin, ancaq sevgi dolu bir ömür yaşayırlar.*

*Amansız iflic xəstəliyi aktyoru yaradıcılığının ən parlaq çağında, 54 yaşında yaxalayır. O, 7 il yataq xəstəsi olur.*

*Ruhən çılğın və emosianal aktyor 1981-ci ildə həyatla vidalaşır.*

## ATIB ABIR-HƏYANI, MƏN YAXINA GƏLƏRƏK QUCDUM AĞCAQAYINI ÖZGƏNİN ARVADI TƏK



**Yeseninin bu məşhur misraları nədənsə hər dəfə klublarımıza əcnəbi məşqçilər gətirəndə yadıma düşür. Özümüzün bacarıqlı, təcrübəli məşqçilərimiz küçədə it döyür, amma biz yenə klublara heç bir fayda verməyən naftalin iyi verən əcnəbi məşqçiləri öpüb gözümüzün üstünə qoyur,  altı aydan sonra da dalına bir təpik vurub  deyirik xoş getdin.**

İndi də ”Neftçi”yə yeni bir əcnəbi məşqçi gətirmişik, o da özüylə bir ”KamAZ” məşqçi gətirib.

Uğurlar olsun. Hamımızın içində bir ”Neftçi” sevgisi var, yavaş-yavaş öldürürlər. Belə davam eləsə qorxuruq ki, ”Neftçi” ya ”Səbail”in, ya da ”Xəzər-Lənkəran”ın taleyini yaşasın.

**Sübhan Mahmudov**

Faiq Qismətoğlu Azərbaycan Aşıqlar Birliyinin sədri, professor **Məhərrəm Qasımlıya** əzizi

**Paşa Xanoğlanoğlunun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



***Fikrət Əkbərli,***
***Türkiyə üzrə***
***araşdırmaçı-yazar***

# "İnsan ruhunun boş lövhədən kamilliyə doğru səyahəti"

**Fərabinin babasının adı Uzluk, atasının adı isə Tarxan olmuşdur. O, türklərin məskunlaşdığı bölgədə dünyaya gəlmişdir. Mənbələrdə ondan ”əl-Fəyləsuf ət-Türki” kimi bəhs edilir. Mavəraünnəhr bölgəsində, Fərab vilayətinin Vesic kəndində H. 257 / M. 870-ci ildə doğulmuşdur. Bir müddət Mərv şəhərində təhsil almışdır. Daha sonra Bağdad, Harran və Şam şəhərlərində olmuş, fəlsəfi biliklərini Bağdadda inkişaf etdirmiş, burada Əbu Bişr Mətta b. Yunusdan dərs almışdır. Daha sonra Harranda Yuhanna b. Haylandan məntiq dərsi almışdır. Daha sonra Hələb və Şam bölgələrinin hökmdarı Seyf əd-Dövlənin dəvəti ilə Şama köçmüşdür. O, bir çox dildə danışmağı bacarırdı. Son dərəcə zəka sahibi və çalışqan bir insan idi. Fəlsəfə, məntiq, psixologiya, musiqi, riyaziyyat və tibb sahələrində böyük alim kimi tanınmışdır. H. 339 / M. 950-ci ildə səksən yaşında Şamda vəfat etmişdir. Onun ölümü Seyf əd-Dövləni çox kədərləndirmişdir.**

Fərabi ardında çoxsaylı əsərlər qoyub getmişdir. Onun əsərləri arasında bunları qeyd edə bilərik: Məqalə fi Əğrad Mə Badə't-Təbiə, Kitab Ara Əhl al-Mədinət al-Fazilə, Kitab əs-Siyasət al-Mədəni, Kitab al-Musiqi al-Kəbir, İhsa al-Ulum, Təhqiq Gərad Aristotelis fi Kitab Ma Ba?də't-Təbiə, Uy?n al-Məsail, Kitab Təhsil əs-Səadə.

Fərabinin idarəçiliklə bağlı fikirləri diqqət çəkicidir. O, ümumi şəkildə cəmiyyəti iki yerə ayırmışdır, 1- Kamil cəmiyyət, 2- Əksik cəmiyyət. Kamilləşmiş cəmiyyət öz daxilində böyük, orta və kiçik olmaqla üç hissəyə bölünür. Əksik cəmiyyət isə kənd, məhəllə, küçə və ev olmaqla dörd qismə ayrılır. İnsanların xoşbəxt ola bilməsi üçün mütləq bir idarəetmə altında yaşamasının zəruriliyini vurğulayır. Çünki insan sosyal varlıqdır, yardımlaşmaya və həmrəyliyə ehtiyac duyur. Cəmiyyət müəyyən prinsiplərə və qanunlara malik olmadıqda qarışıqlıq yaranar, nizam pozular. Bu qarışıqlığı aradan qaldırmaq üçün hər kəsin riayət edəcəyi qanunlar vacibdir. Cəmiyyətin xoşbəxtliyi üçün düşünmək, prinsiplər müəyyənləşdirmək və varlığın hikmətini araşdırmaq gərəkdir. İnsan həyatında dinin mühüm yeri vardır, din insanı fəzilətli və xeyirli əməllərə yönəldir. Bu isə yalnız yardımlaşma və başqalarının ehtiyaclarını ödəməklə mümkündür.

Bir ölkəni hər kəs idarə edə bilməz, rəhbərliyə layiq olan şəxsin fitrətən istedadlı olması şərtdir. Bundan əlavə, təcrübə, dərin baxış və iradə baxımından da hazırlıqlı olmalıdır. Belə bir hazırlığa sahib olan insan nəfsi və ağılı ilə doğru əlaqə qurar. Bu əlaqə də müstəfəd ağıl vasitəsilə mümkün olmaqdadır. ”Müstəfəd ağıl”, varlığa aid formaların maddi xüsusiyyətlərdən tamamilə ayrılaraq saf bilik halında tam şəkildə formalaşmış durumdur. Bu ağıl, insan varlığının çata biləcəyi varoluş mərtəbələrinin ən son və ən yüksək pilləsini təşkil edir.

Hər hansı bir ərazinin rəhbəri olan şəxs bilgiləri fəal olan ağıl vasitəsilə alır. Bu xəbərlər bir növ vəhyə bənzəyir. Bu bilgiləri həm yuxuda, həm də oyaq halda almaq mümkündür. Fəal ağıl sadəcə vasitəçi bir qüvvədir, çünki bu Allahdan gələn bir qabiliyyətdir. Deməli, Uca Allah bilgiləri fəal ağıl vasitəsilə rəhbər insana ”vəhy edir”. Fəal ağıl Allahdan aldıqlarını müstəfəd ağıl yolu ilə münfail ağla ötürür. Münfail ağıl üzərinə yazı yazılmamış bir lövhə kimidir. Bu bilgilər rəhbər insanın müxəyyiləsinə keçir. Bu mərhələyə çatan şəxs öndər, filosof və ya fəzilətli bir insan olur. Əgər bu bilgilər insanın təsəvvür (mütəhayyilə) qabiliyyətinə axarsa, həmin şəxs peyğəmbər olur, möcüzə sahibi olar və gələcəkdən xəbər verər. Bu mərtəbəyə yüksələn insan xoşbəxtliyin və insani dərəcələrin ən yüksək zirvəsinə çatmış hesab edilir.

Beləliklə, Fərabi peyğəmbər, filosof və dövləti idarə edən rəhbər arasında fəlsəfi bir əlaqə qurmağa çalışmışdır. Əslində o, Təhsilü's-Səadə adlı əsərində filosof, başçı, hökmdar, qanun qoyucu və rəhbərin mahiyyət etibarilə eyni məna daşıdığını irəli sürmüşdür. Fərabi, bir rəhbərdə (öndərdə) olması zəruri olan xüsusiyyətlər barədə diqqətçəkən fikirlər irəli sürür. Bu xüsusiyyətlərin bir qismi fitrətən (yaradılışdan), bir qismi isə sonradan qazanılır. Rəhbərin fitrətən malik olması gərəkli özəllikləri beş qrupa ayırmışdır. Bunlar cismani, əqli, bəlağətli, elmi və əxlaqi özəlliklərdir. Rəhbərin sonradan qazanacağı xüsusiyyətlər gəlincə ilk öncə rəhbərin ruhi vəziyyəti kamil olmalı və fəal ağıl ilə əlaqə qurmağı bacarmalıdır. Rəhbər özündən əvvəlki şəxslərin qoyduğu qanun və üsulları bilməlidir. Sələflərinin təcrübə və qanunlarından yeni hökmlər çıxarmaq qabiliyyətinə malik olmalı, müqayisə etməyi bilməlidir. Bunları edərkən ölkənin mənafeyini nəzərə almalı, düzgün, isabetli qərarlar verməlidir.

Fərabi peyğəmbər, filosof və siyasi rəhbəri çox zaman eyni xüsusiyyətlərə sahib şəxslər kimi görsə də, möcüzə məsələsində peyğəmbərin xüsusi və seçkin qabiliyyətlərini hər zaman qəbul etmişdir. O, heç bir vaxt Peyğəmbərin haqq elçisi olduğunu inkar etməmişdir. Fərabi peyğəmbərlik fəlsəfəsini izah edərkən Qurana əsaslanmış, bununla yanaşı Əflatunun ”Dövlət” (Cümhuriyyət) əsərindən də faydalanmış və dinlə fəlsəfəni uzlaşdırmağa çalışmışdır.

Onun anlayışına görə peyğəmbər yüksək xoşbəxtlik mərtəbəsinə çatan rəhbərdir. Filosof isə ağıl və elmi araşdırma yolu ilə bu mərtəbəyə yüksələn və düşünən, ağlından istifadə edən, həqiqi xoşbəxtliyi axtaran insandır.

# Rənglərin danışdığı gün - Beynəlxalq Rəssamlar Günü

**Rəsm də sözə bənzəyir. Söz ifadə olunur, təsəvvür yaradır, mücərrəddir.. Rəsm isə konkretdir. Toxuna bilirik, görə bilirik. Bəlkə də ən çətin peşələrdən biri rəssamlıqdır. Çünki rənglərin ahəngini birləşdirib həyatı əks etdirən bir tablo yaratmaq heç də asan iş deyil. Bir rəssam bir əsər üçün günlərlə, bəzən də aylarla zaman sərf edir. Deyərdim ki, rəssamlıq insanla ”danışan” peşədir.**

İncəsənəti sevənlər bilir ki, 8 dekabr - Beynəlxalq Rəssamlar Günü kimi qeyd olunur. Əlbəttə, bu günə rəssamların bayramı da deyə bilərik.

Bu əlamətdar günlə bağlı bir neçə gənc rəssam arzu-istəklərini Adalet.az-a söyləyib:

Gənc rəssam Aynurə Mustafazadə seçdiyi peşənin özəlliyini daha çox ön plana çəkib:



”Yaradıcı insanların arzusu tükənmir ki   Çəkmək istədiklərimiz hər zaman olub və olacaq. Həmin əsərlər eskiz halında toplanırlar. Sonra zamanı gəldikcə kətana köçürlər. (gülür)  Mənim üçün bu peşənin özəlliyi odur ki, rəssamlar tək görüləni deyil, görülməyəni də rənglərlə ifadə edə bilirlər. Məhz bu səbəbdən rəssamlıq sənətini çox sevirəm.  İncəsənətin bütün növləri kübarlıq, zəhmət və səbr tələb edir. Rəssamlıq sənəti isə bu məqamda xüsusi diqqət çəkir. Hər bir detala diqqət etmək, gözlə görüləni səbrlə çəkmək, gözlə görülməyəni xəyal edib tabloya köçürmək rəssamın peşəsinə olan məhəbbətidir”.

Daha çox milli mövzularla bağlı rəsm çəkməyi sevən rəssam Nigar Cavadova isə etmək istədiyi yenilikləri dilə gətirib: ”Bir gənc rəssam kimi yaradıcılığımda ən çox milli mövzulara yer verirəm. Mən həm xalqımıza məxsus rəngləri və ənənələri, həm də köhnə Azərbaycan kinolarının unudulmaz personajlarını çəkməyi çox sevirəm. Çünki düşünürəm ki, bu obrazlar həm mədəni yaddaşımızın bir parçasıdır, həm də insanlarımız üçün xüsusi nostalji hislər yaradır. Hazırda yaratmaq istədiyim əsərlərdən biri milli ənənələrimizi Avropa incəsənətinin üslubu ilə birləşdirməkdir. Artıq bu mövzuda müəyyən işlər görməyə başlamışam”.

Fırçanı ”danışdırmağı” bacaran daha bir gənc rəssam Nuray Allahverdiyeva isə rəssamlığı özünü ifadə vasitəsi adlandırır: ”Rəssamlıq mənim üçün təkcə peşə deyil, həm də özümü ifadə formamdı. Bütün fikirlərimi fırça ilə ifadə edirəm. Bu həm də bir mənəvi istirahətdir. Fırçanı əlimə aldığım an dünya susur, mən danışmağa başlayıram. Rəssamlıq mənə həyatı öz rənglərimlə yaratmaq imkanı verir. Hər əsərə daxilimdən bir parça əlavə edirəm - bəlkə də bu peşəni mənə xüsusi edən budur. Üzərində çalışdığım bütün rəsmlərə diqqət edirəm. Çünki peşəmi çox sevirəm. Rəssamlıq mənim üçün həyatı hər rəngdə sevmək deməkdir.Demək olar ki, çəkmək istəyib, ancaq çəkə bilmədiyim heç bir rəsm yoxdur”.

**Əntiqə Kərimzadə**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 258
Çapa imzalanmışdır: 11.12.2025